# Xalq qəzeti

Xalqın qəzeti!

№ 166 (30282) 8 avqust 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


## Günün xəbəri

**Azərbaycan Xarici İşlər Nazirliyi:**

**BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçiləri və müstəqil ekspertinin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyərək “Dağlıq Qarabağ” kimi ifadələr işlətməsi, ölkəmizin daxili işlərinə qarışması və ikili yanaşmalar tətbiq etməsi qəbuledilməzdir.**

# Regionların sosial-iqtisadi inkişafı uğurla həyata keçirilir

## Qazax şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Qazax rayonuna səfər edib.**

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Qazax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

## Qarapapaq-Çaylı avtomobil yolunun açılışı olub



**Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazax rayonunda yenidən qurulan Qarapapaq-Çaylı avtomobil yolunun açılışında iştirak edib.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, bu avtomobil yolu uzun müddət təmir olunmadan istifadə edildiyindən, həmçinin təbii faktorların təsirindən yararsız vəziyyətdə idi. Vətəndaşların rahat gediş-gəlişini təmin etmək məqsədilə avtomobil yolu əsaslı şəkildə yenidən qurulub.

Uzunluğu 19 kilometr olan Qarapapaq–Çaylı avtomobil yolu 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Qazax rayonu ərazisində üç yaşayış məntəqəsini birləşdirən bu yolun yenidən qurulması nəticəsində 14 mindən çox əhalinin rahat gediş-gəlişi təmin olunub, yük və sərnişin daşınması asanlaşıb.

Layihə çərçivəsində yol boyunca torpaq, qazma işləri görülüb. Yolun torpaq yatağının eni 10 metr, hərəkət hissəsi isə 6 metrdir.

Yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə mövcud dəmir-beton boruların bərpası, zəruri olan yerlərdə isə yeni suötürücü boruların tikintisi işləri yerinə yetirilib.

Yenidənqurma işləri yekunlaşdıqdan sonra zəruri olan yerlərdə yol nişanları, siqnal dirəkləri və məsafə göstəriciləri, dayanacaqlar quraşdırılıb, yol-cizgi və yolgöstərici xətlər, həmçinin piyada zolaqları çəkilib.

(ardı 2-ci səhifədə)

## Ağdam-Xankəndi yolu separatçılara niyə sərf eləmir?



**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan yol infrastrukturu layihələrindən biri olan Bərdə-Ağdam avtomobil yolunun tikintisi artıq yekunlaşmaq üzrədir.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına əsasən, başlanğıcını Bərdə şəhərindən götürən Bərdə-Ağdam avtomobil yolunun uzunluğu 44,5 kilometr təşkil edir. Avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun olaraq inşa edilir.

(ardı 9-cu səhifədə)

## Qərbin riyakar sifətindəki ləkə

*Donetskə olmazdı, Qarabağa olar... Niyə?*

**Əlbəttə, “Caliber.az” saytının Qərb dövlətləri Rusiyanın Ukraynanın Donetsk vilayətinə yardımı ilə Ermənistanın Azərbaycanın Qarabağ bölgəsinə yardımına münasibətindəki ikili standartlı yanaşmalarını müəyyənləşdirməsi, apardığı paralellər və müqayisələr alqışlanmalıdır.**




Sayt indiyədək haqqında söz açdığımız ikili standartlar siyasətinin dünyanın gündəmindən düşmədiyini, Azərbaycana münasibətdə xüsusən həyasız xarakter daşıdığını bir daha ortaya qoydu. Təsəvvür edin, illər əvvəl Rusiya Ukraynaya humanitar yardım göndərir, aparıcı beynəlxalq təşkilatlar ayağa qalxıb bildirir ki, bəs, Kiyevin razılığı olmadan həyata keçirilən bu aksiya ölkənin ərazi bütövlüyünün pozulmasıdır. Azərbaycana gəldikdə isə, Laçın-Xankəndi yolunun başlanğıcında Həkəri çayı üzərindəki körpüdə yaratdığımız sərhəd buraxılış-məntəqəsi zonasında, necə deyərlər, lövbər salmış Ermənistanın “Spayka” “tır”ları, az qala, “təkərli mələklər” obrazında təqdim olunmaqdadır. Doğrudan da, həyasızlığın bundan böyük həddi yoxdur. Ancaq onu da deyək ki, ümumən bundan o yana həd yoxdur. Yəni, növbə müharibənindir. Fikrimizi əsaslandırmaq üçün bir neçə məqama diqqət yetirməyi zəruri sayırıq.

Birincisi, Qarabağa “tır” göndərən Ermənistan Rusiyanın qət etdiyi separatizm yolu ilə gedir. O Rusiyanın ki, beynəlxalq ictimaiyyət hazırda onu Ukrayna müharibəsinə görə, sözün bütün mənalarında, linç etməklə məşğuldur. Dünya isə İrəvan hakimiyyətinin Qərbpərəst olduğuna inanır. “Spayka” “tır” şousuna diqqət yetirəndə, baş nazir Nikol Paşinyanın, əslində, haradan nə öyrəndiyi üzə çıxır.

(ardı 6-cı səhifədə)

## “Vaşinqton post” və psevdokleptokratiya

*ABŞ nəşri Qubad İbadoğlu məsələsini Cənubi Qafqazdakı sülh prosesinə nə üçün daxil edir?*

Səhifə ⇨ 6




## Yaxın günlərdə Zabuxa köç başlayacaq

**Dünən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Laçın rayonunun Zabux kəndinə birinci mərhələdə köçürüləcək ailələr arasında püşkatma keçirib.**



Qurumdan bildiriblər ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəliyinin və Laçın Rayon İcra Hakimiyyətinin nümayəndələri iştirak ediblər.

(ardı 6-cı səhifədə)

## “TotalEnergies” və ADNOC “Abşeron” yatağında SOCAR-ın tərəfdaşı oldular




## Arazın o tayından görünənlər




## Ciddə danışıqları – barışığa doğru addım

Səhifə ⇨ 11

# Qarapapaq-Çaylı avtomobil yolunun açılışı olub

(əvvəli 1-ci səhifədə)




Prezident İlham Əliyevə Fərəhli avtomobil yolunun əsaslı təmiri layihəsi də təqdim olundu.

Qeyd edildi ki, Qazax rayonunun Qazax-Yuxarı Əskipara avtomobil yolunun 13-cü kilometrliyindən ayrılan Fərəhli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq görülən yenidənqurma işləri yekunlaşıb.

Uzunluğu 5 kilometr olan yol dördüncü texniki dərəcəyə uyğun yenidən qurulub. Yolun Fərəhli kəndinə qədər olan hissəsi 3 kilometr, kəndin içərisindən keçən hissəsinin uzunluğu isə 2 kilometrdir. Bu yolun hərəkət hissəsinin orta eni 5,8 metrdir.

Yolun tikintisi həmin kəndlərdə yaşayan əhalinin mənzil başına tez və rahat çatmasına, həmçinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının bazarlara və digər satış məntəqələrinə vaxtında çatdırılmasına şərait yaradacaq.

# "Qazax" Əlahiddə Sərhəd Diviziyasının qarnizon kompleksi ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qazax" Əlahiddə Sərhəd Diviziyasının qarnizon kompleksində yaradılan şəraitlə tanış olub.**



Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısına kompleksdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, 20,5 hektar ərazini əhatə edən hərbi hissə kompleksinə qərargah binası, 5 binadan ibarət 146 mənzilli yaşayış kompleksi, yeməkxana, hamam, camaşırxana və tibb məntəqəsindən ibarət əsgər yataqxanası, şəxsi heyətin xidmətinin yüksək səviyyədə aparılması üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları daxildir. Bununla yanaşı, kompleksin ərazisində helikopter meydançası, hərbi texnikaların saxlanması üçün avtomobil parkı, avtomobil yuma və yanacaqdoldurma məntəqələri, silah, ərzaq və əşya-geyim anbarları, içməli su anbarı, qazanxana binası mövcuddur.

Qeyd edildi ki, kompleksin idman şəhərciyində hərbi qulluqçuların idmanla məşğul olmaları üçün zəruri avadanlıq quraşdırılıb və voleybol meydançası yaradılıb.

İstilik sistemi, daimi su və elektrik enerjisi ilə təmin edilən kompleksdə ehtiyat generatorlar quraşdırılıb. Ərazidə əsaslı tikinti-abadlıq işləri aparılıb, 23 min kvadratmetr sahə asfaltlanıb, geniş yaşıllıq salınıb, ağaclar əkilib.

Xidmətin yüksək səviyyədə aparılması, şəxsi heyətin döyüş qabiliyyətinin təkmilləşdirilməsi, peşəkar vərdişlərinin daha da inkişaf etdirilməsi üçün hərtərəfli şərait yaradılıb.

Dövlətimizin başçısına, həmçinin "Qazax" Əlahiddə Sərhəd Diviziyasının xidməti istifadəsinə verilmiş silah arsenalı, döyüş texnikaları, yüksəkkeçidli nəqliyyat vasitələri, zirehli və avtomobil texnikası, tibb avtomobilləri nümayiş etdirildi.

# Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemləri istismara verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində iştirak edib.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına layihə çərçivəsində görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, layihə Azərbaycan Hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı" çərçivəsində həyata keçirilir. Layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla, Qazax şəhərində 26 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb.

"Qazax şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin icrasına 2019-cu ildə başlanılıb. Qazax şəhəri və ətraf kəndləri dayanıqlı içməli su ilə təmin etmək üçün Ağstafa rayonu ərazisində 12 subartezian quyusu qazılıb və 7,8 kilometr uzunluğunda artezianlararası su xətti çəkilib. Su mənbəyindən Qazax şəhərinə 8,9 kilometr uzunluğunda magistral su kəməri inşa olunub. Şəhər yaxınlığında hər birinin tutumu 5 min kubmetr olan iki su anbarı tikilib.

Qeyd edildi ki, şəhər ərazisində 119 kilometr uzunluğunda paylayıcı su şəbəkəsi inşa olunub. İnvestisiya hesabına 6900, daxili imkanlar hesabına 1324 ünvan olmaqla, ümumilikdə 8224 ünvana birləşmə verilərək sayğaclar quraşdırılıb. Şəhər ərazisində 83 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi, 3,8 kilometr uzunluğunda kanalizasiya kollektoru inşa edilib. Tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 10 min kubmetr olan tullantı sutəmizləyici qurğu tikilib.

Şəhər şəbəkəsinin operativ idarə edilməsi və işçilərin iş şəraitinin yaxşılaşdırılması məqsədilə inzibati bina da inşa olunub. Layihənin icrası nəticəsində rayonun Ağköynək və Qarapapaq kəndlərinin şəhərə bitişik hissəsi də su ilə təmin edilib. Bu layihə çərçivəsində yeni yaradılmış su mənbəyi hesabına gələcəkdə həmin kəndlərin digər hissəsinə, eləcə də Hüseynbəyli və Ağstafa rayonunun Dağ Kəsəmən kəndlərinə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə layihədən 45 min sakin faydalanacaq.

Prezident İlham Əliyev Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsini bildirən düyməni basdı.

# Prezident İlham Əliyev ADA Universiteti Qazax Mərkəzində

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində yaradılan şəraitlə tanış olub.**



ADA Universitetinin rektoru Hafiz Paşayev dövlətimizin başçısına Qazax Müəllimlər Seminariyasının tarixi və Mərkəzdə yaradılan şərait barədə məlumat verdi.



Bildirildi ki, Qazax Müəllimlər Seminariyasının tarixi 1876-cı ildə Qoridə yaradılmış Zaqafqaziya Müəllimlər Seminariyası ilə bağlıdır. Ümumilikdə 250 azərbaycanlı, o cümlədən Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Nəriman Nərimanov, Süleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyli Qori Seminariyasını bitirib.

1918-ci ildə çar rejiminin dağılmasından sonra Zaqafqaziya Müəllimlər Seminariyası parçalanıb və onun Azərbaycan bölməsinin bazasında Qazax Müəllimlər Seminariyası yaradılıb. Azərbaycan bölməsinin Qoridən Azərbaycana köçürülməsini Firidun bəy Köçərli həyata keçirib. Qazax Müəllimlər Seminariyasının təntənəli açılışı qazaxlı Məşədi İbrahimin seminariyaya hədiyyə etdiyi evdə 1918-ci il noyabrın 10-da baş tutub.

Xalqımızın ümummilli lideri Heydər Əliyev 1999-cu ildə Qazax Müəllimlər Seminariyasının 80 illik yubileyinin keçirilməsi haqqında göstəriş verib və bu məqsədlə təşkil olunmuş ümumrespublika elmi-praktiki konfransının iştirakçılarına təbrik məktubu ünvanlayıb.

Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci il noyabrın 3-də Qazax Müəllimlər Seminariyasının 100, 2013-cü il fevralın 14-də isə Firidun bəy Köçərlinin 150 illik yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalayıb.

ADA Universiteti Seminariyanın tarixi binasının və onun maarifçi missiyasının bərpası təşəbbüsü ilə çıxış edib. 2021-ci ilin oktyabrında başlanılan bərpa işlərinə Heydər Əliyev Fondu, Azərbaycan Sahibkarlar Konfederasiyası, Amerika Azərbaycan Cəmiyyəti cəlb olunub. Seminariya binasının tarixi əhəmiyyətli obyekt olduğu nəzərə alınaraq, bərpa işləri xüsusi yanaşma ilə aparılıb. Cari il yanvarın 26-da Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində Firidun bəy Köçərlinin 160 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Qeyd olundu ki, Qazax Müəllimlər Seminariyasının tarixi binasında 2022-ci ilin oktyabrından ADA Universiteti Qazax Mərkəzi fəaliyyət göstərir. 2022-2023-cü tədris ilindən Mərkəzdə təhsillə bağlı iki magistr proqramı həyata keçirilir. Təhsil üzrə menecment, təlim və tədrisin təşkili metodikası üzrə proqramlarda 33 tələbə magistr dərəcəsi almaq üçün tədrisə cəlb olunub və birinci kursu bitirib. 2023-2024-cü tədris ilindən Qazax Mərkəzində bu ixtisaslarla yanaşı, dövlət idarəetməsi magistr proqramı tədris olunacaq. Yeni dərs ilindən bu üç ixtisasa 94 tələbə qəbul edilib. Beləliklə, Mərkəzdə ümumilikdə 127 tələbə təhsil alacaq.

Qeyd olundu ki, ADA Universiteti tərəfindən 2022-ci ildən etibarən müəllimlər üçün "Bir müəllimin manifesti" birillik üçmərhələli ixtisasartırma proqramı həyata keçirilir. Proqram çərçivəsində bölgələrdən müsahibə yolu ilə seçilmiş müəllim və direktorlar birinci mərhələdə Qazax Mərkəzində, ikinci mərhələdə ADA Universitetində, üçüncü mərhələdə isə ADA Vaşinqton Mərkəzində tədrisə cəlb olunurlar. Bu proqram vasitəsilə ötən il 38, bu il isə 20 müəllim və məktəb direktoru ixtisasartırmaya cəlb edilib. Proqramın ilk 38 iştirakçısı arasından 4 nəfər seçilərək ADA Universitetinin Qazax Mərkəzində əməkdaş olaraq fəaliyyətə başlayıb. Bu proqramın əsas məqsədi seçilmiş təhsil işçilərini gücləndirilmiş ingilis dili dərslərinə cəlb etmək, inkişaf etmiş ölkələrin təhsil sistemi ilə yaxından tanış olmaq məqsədilə Amerika məktəbləri ilə əyani təcrübə əlaqəsi yaratmaqdır.

Gələcəkdə ADA Universiteti tərəfindən Qazax Mərkəzində 10-11-ci siniflərin təhsil alacağı müasir tipli Yeni Məktəbin qurulması, bir neçə bakalavr ixtisasının açılması və kollecin təsis edilməsi nəzərdə tutulur.

Hazırda Mərkəzdə fəaliyyət göstərən magistr proqramlarının tədrisinə ADA Universitetinin müəllim və professor heyəti cəlb olunub. Onlar mütəmadi olaraq Qazax şəhərinə ezam edilirlər. Bu məqsədlə Mərkəzin tədris kompleksində Universitet tərəfindən Müəllimlər Evi tikilir. Tikintisi başa çatmaqda olan Müəllimlər Evi ADA Universitetinin Mərkəzdə çalışan bölgələrdən olan daimi əməkdaşları və ezam edilən müəllim heyəti üçün nəzərdə tutulub.

Məlumat verildi ki, Mərkəzin nəzdində elmi-tədqiqat şöbəsinin fəaliyyəti və müxtəlif tipli təhsil və mədəniyyət yönlü beynəlxalq tədbirlərin təşkili planlaşdırılır. Bu fəaliyyət çərçivəsində 1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetinin ərəb əlifbasından latın qrafikasına transliterasiyası həyata keçirilir.

ADA Qazax Mərkəzinin tədris kompleksinə daxil olan XIX əsrə aid yerli əhəmiyyətli tarixi İsrafil Ağa hamamının təmirindən sonra onun daxilində Qazax xalçaçılıq məktəbi nümunələrindən ibarət muzeyin və rəsm dərnəyinin açılması nəzərdə tutulur. Bura, həmçinin kiçik həcmli musiqili ədəbi-mədəni tədbirlərin keçirilməsi üçün ideal məkandır.

# Dövlətimizin başçısı "Venzana" mebel fabrikini işə saldı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Qazaxda "Venzana" mebel fabrikinin açılışında iştirak edib.**



Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Qeyd olundu ki, fabrik "Saloğlu" mebel istehsalı müəssisəsinin nəzdində yaradılıb. "Saloğlu" müəssisəsi 2000-ci ildən mebel istehsalı və satışı sahəsində fəaliyyət göstərir. İstehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, həm də ixrac edilir. Daxili bazarda mebellər müəssisənin öz mağazalarında və bir çox rayonlarda yerləşən nümayəndəliklərdə istehlakçılara təklif olunur. Müəssisənin illik istehsal gücü 14 min 260 mebel dəstidir. Hazırda müəssisədə 425 nəfər işlə təmin olunub.

Qeyd edildi ki, "Saloğlu" müəssisəsinin istehsal fəaliyyətinin genişləndirilməsi məqsədilə Sahibkarlığın İnkişafı Fondundan 10 milyon manat güzəştli kredit ayrılıb. Eyni zamanda, pandemiyadan zərər çəkmiş iqtisadi fəaliyyət sahələrinə dövlətin dəstək proqramı çərçivəsində müəssisəyə 1,4 milyon manat yeni alınan bank kreditinə dövlət zəmanəti verilməklə, kredit faizinin bir hissəsi 3 il müddətinə subsidiyalaşdırılıb.

Digər dəstək mexanizmi kimi, müəssisəyə İqtisadiyyat Nazirliyi tərəfindən 2017-ci ildə "Müasir mebel istehsalının qurulması" layihəsi üzrə investisiya təşviqi sənədi verilib. Layihənin icrası çərçivəsində müəssisə tərəfindən 8,4 milyon manat dəyərində texnika, texnoloji avadanlıq və qurğular idxal olunub, müəssisə 1,8 milyon manat məbləğində vergi və rüsumlardan azad edilib.

"Saloğlu" müəssisəsi dünyanın aparıcı mebel şirkətləri ilə sıx əməkdaşlıq edir, mebel istehsalı sahəsində innovativ həllərin, qabaqcıl texnologiyaların və iş təcrübəsinin Azərbaycana gətirilməsi istiqamətində çalışır və tətbiq edir.

(ardı 3-cü səhifədə)

# Dövlətimizin başçısı “Venzana” mebel fabrikini işə saldı

(əvvəli 2-ci səhifədə)



Bildirildi ki, “Saloğlu” mebel istehsalı müəssisəsinin nəzdində yaradılan “Venzana” mebel fabrikinin təməli Prezident İlham Əliyevin 2016-cı ildə Qazax rayonuna səfəri çərçivəsində qoyulub. İstehsal sahəsi 18 min kvadratmetr, investisiya dəyəri isə 30 milyon manat olan fabrik il ərzində 12 min dəst yataq, 6 min dəst qonaq otağı mebeli istehsal etmək gücündədir.

Müəssisədə istehsal olunan mebellərin daxili bazarla yanaşı, Rusiya, Qazaxıstan, Gürcüstan, Almaniya və digər ölkələrə ixracı nəzərdə tutulur. Fabrik işə düşdükdən sonra “Saloğlu” fərdi firmasında ümumilikdə 600 işçi çalışacaq. Layihənin davamı olaraq 20 hektar ərazidə ümumi dəyəri 27,2 milyon manat olan 4 yeni fabrikin (masa və oturacaq, süngər, metal məmulatları və döşək istehsalı fabrikləri) tikilməsi nəzərdə tutulur. Layihənin əsas hədəfi bu fabrikin, eləcə də ölkəmizdəki digər mebel istehsalı müəssisələrinin xammal tələbatının yerli istehsal hesabına təmin edilməsidir. Layihənin 2025-ci ildə tamamlanması planlaşdırılır.

Dövlətimizin başçısı “Venzana” mebel fabrikini işə saldı və istehsal prosesi ilə tanış oldu.

Qeyd edək ki, bu cür istehsal müəssisələrinin istifadəyə verilməsi, onların ən müasir avadanlıqla təchiz edilməsi ölkəmizdə sənaye sahəsinin inkişafına əhəmiyyətli dərəcədə töhfə verir. Bu həm də daxili bazarın tələbatını ödəmək baxımından müstəsna əhəmiyyət daşıyır. Qeyri-neft sənayesinin şaxələndirilməsi, mövcud təbii və iqtisadi resursların dövriyyəyə cəlb edilməsi istiqamətində görülən işlər həm də yüzlərlə yeni iş yerinin açılmasına imkan yaradır. Belə istehsal sahələrinin yaradılması həm də onu göstərir ki, dünyada hökm sürən iqtisadi böhrana baxmayaraq, ölkəmizin sənaye potensialının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər uğurla davam edir.

# Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun Gəncə-Qazaxbəyli hissəsinin açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də “Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolunun Gəncə-Qazax-Gürcüstan ilə dövlət sərhədi (130,15 km) hissəsinin 4 zolağa genişləndirilməsi layihəsi” çərçivəsində yenidən qurulan, ümumi uzunluğu 102 kilometr olan Gəncə-Qazaxbəyli hissəsinin açılışında iştirak edib.**

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na əsasən yenidən qurulan 1b texniki dərəcəli yol dörd hərəkət zolağından ibarətdir. Yolun bu hissəsində 67 alt keçid, 17 qovşaq və 20 körpünün tikintisi başa çatdırılıb.

Dövlətimizin başçısı görülən işlərlə bağlı videoçarxa baxdı.

Qeyd edək ki, uzunluğu 130,15 kilometr olan Gəncə-Qazax-Gürcüstan ilə dövlət sərhədi yolunun dörd hərəkət zolağına genişləndirilməsi və sürətin artması ilə vətəndaşların rahat və təhlükəsiz gediş-gəlişi təmin ediləcək. Bundan başqa, yolun iri yaşayış məntəqələrindən kənar keçməsi əhalinin və yoldan istifadə edən sürücülərin təhlükəsizliyi baxımından önəmlidir.

Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolu beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycandan keçən tərkib hissəsi olmaqla, Avropa-Asiya və Yaxın Şərq ölkələri ilə, həmçinin respublika ərazisində bu istiqamətdə əlaqələrin inkişafında mühüm rol oynayır. Layihə tam reallaşdırıldıqdan sonra Şərqdən Qərbə və əks istiqamətdə “Böyük İpək yolu”nun Azərbaycandan keçən hissəsi olan bu yol Avropa ilə Asiya arasında avtomobillə beynəlxalq və daxili yükdaşımaların artmasında önəmli rol oynayacaq.



# Sərkar kənd uşaq musiqi məktəbinin yeni binası istifadəyə verilib



**Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Samuxda Heydər Əliyev Fondunun “Təhsilə dəstək” layihəsi çərçivəsində inşa olunan Sərkar kənd uşaq musiqi məktəbinin yeni binasının açılışında iştirak edib.**

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına binada yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Sərkar kənd musiqi məktəbi 2002-ci ildən 1935-ci ildə inşa olunmuş kolxoza aid birmərtəbəli tikilidə fəaliyyət göstərib. Məktəbin binası ötən müddət ərzində köhnəlmiş və istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Üç yüz şagird yerlik yeni məktəbin inşasına Heydər Əliyev Fondu tərəfindən 2021-ci ilin iyulunda başlanılıb. Tikinti işləri həmin ilin noyabrında yekunlaşıb.

Məktəbin ümumi ərazisi 0,5 hektar, üçmərtəbəli korpusun sahəsi isə 2500 kvadratmetrdir. Bina 8 ballıq zəlzələyə davamlıdır.

(ardı 4-cü səhifədə)

# Prezident İlham Əliyev Şəmkirdə



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Şəmkir rayonuna səfər edib.**

Dövlətimizin başçısı Ümummilli Lider Heydər Əliyevin Şəmkir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

# Təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyi müasir tələblərə cavab verir



**Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəmkir şəhəri Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyin yeni binasının açılışında iştirak edib.**



Dövlətimizin başçısına bu təhsil ocağında yaradılan şərait barədə məlumat verildi.

Qeyd edək ki, Şəmkir şəhərinin mərkəzində yerləşən, 1958-ci ildə tikilmiş Məhəmməd Füzuli adına tam orta məktəb-liseyin köhnə binasının müasir tələblərə cavab verməməsi, 600 şagird yerlik məktəbdə 1500 şagirdin təhsil alması və binanın qəzalı vəziyyətdə olması ilə əlaqədar yeni binanın tikintisinə zərurət yaranmışdı. Azərbaycan Prezidentinin “Şəmkir şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında” 2020-ci il 5 mart tarixli Sərəncamının icrası ilə əlaqədar məktəbin binası yenidən inşa olunub.

Bildirildi ki, eyni vaxtda 1600 şagirdin təhsil ala biləcəyi məktəb-lisey bütün inventarla təchiz edilib. Yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək müasir təhsil ocağı 65 sinif otağından ibarətdir. Bundan başqa, binada fizika, kimya, biologiya laboratoriyaları, informatika, texnologiya, hərbi təlim, tibb, əmək təlimi, STEAM otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, həmçinin açıq idman meydançası var.

Məktəb-liseyin həyətyanı sahəsi abadlaşdırılıb, yaşıllıq işləri görülüb.

Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri avadanlıqla təchizatı gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almalarına şərait yaradır. Məktəb infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür.

# Samux Rayon Mərkəzi Xəstəxanasının yeni binası istifadəyə hazırdır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Samux Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak edib.**

Dövlətimizin başçısına xəstəxanada yaradılan şərait barədə məlumat verildi.

Qeyd olundu ki, Samux Rayon Mərkəzi Xəstəxanasının tikintisinə 2019-cu ildə başlanılıb. İnşaat işləri bu ilin avqustunda başa çatdırılıb. İki hektar sahədə inşa olunan xəstəxana 90 çarpayılıqdır. Tibb müəssisəsinin üçmərtəbəli binasında əhaliyə ən müasir tələblər səviyyəsində səhiyyə xidməti göstərilməsi üçün lazımi şərait yaradılıb. Belə ki, xəstəxana Yaponiya, Koreya Respublikası, İtaliya və Türkiyə istehsalı olan ən müasir avadanlıqla təchiz edilib.

Tibb müəssisəsində cərrahiyyə, terapiya, uşaq xəstəlikləri, nevrologiya, ginekologiya, travmatologiya, LOR, infeksion xəstəliklər, şüa-diaqnostika, reanimasiya, qəbul, laboratoriya, doğuş, hemodializ, təcili tibbi yardım şöbələri fəaliyyət göstərəcək. Ərazidə əsas korpusla yanaşı, yoluxucu xəstəliklər korpusu və digər yardımçı sahələr üçün binalar inşa olunub.

Burada yaradılan şəraitdən görünür ki, vətəndaşların hərtərəfli tibbi xidmətlə təmin edilməsi, onların müalicə və müayinə işinin yüksək səviyyədə təşkili, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr dövlətimizin başçısının daim diqqətində və nəzarətindədir.

# Prezident İlham Əliyev Samuxda



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Samux rayonuna səfər edib.**

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Samux şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

# Sərkar kənd uşaq musiqi məktəbinin yeni binası istifadəyə verilib



**(əvvəli 3-cü səhifədə)**



Məktəb binasında 29 dərs otağı, orkestr, xor və tibb otaqları, qarderob, kitabxana, yeməkxana və akt zalı var. Təhsil ocağı zəruri mebel, avadanlıq və əyani vəsaitlə tam təchiz edilib. Binanın daxilində və ərazidə videomüşahidə kameraları quraşdırılıb. Həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemləri quraşdırılıb.

Prezident İlham Əliyevə Heydər Əliyev Fondu tərəfindən Samux rayonunun Sərkar kəndində görülmüş digər işlər barədə də məlumat verildi.

Qeyd edildi ki, burada yeni salınmış park istifadəyə verilib. Parkın ərazisində yaşıllıq zonası salınıb, uşaq əyləncə və idman meydançası quraşdırılıb. Açıq havada idmanla məşğul olmaq üçün əlverişli imkan yaradılıb, ərazidə müxtəlif trenajorlar qoyulub. Heydər Əliyev Fondunun dəstəyi ilə Sərkar kəndində 6 min nəfərə yaxın sakinə xidmət göstərəcək yeni tibb məntəqəsi də fəaliyyətə başlayıb. Həkim otağı, sarğı otağı və texniki otaqdan ibarət olan tibb məntəqəsi zəruri tibbi avadanlıqla təmin edilib.

Prezident İlham Əliyevə məlumat verildi ki, hazırda Samux şəhərində Heydər Əliyev Fondu tərəfindən 3 saylı körpələr evi-uşaq bağçası üçün də yeni bina inşa olunur.

Xatırladaq ki, Heydər Əliyev Fondu Samux rayonunda bu günədək bir sıra layihələr həyata keçirib. Fond tərəfindən Sərkar kəndində 800 şagird yerlik tam orta məktəb və körpələr evi-uşaq bağçası yenidən inşa edilərək 2020-ci ildə istifadəyə verilib. Eləcə də həmin il rayonun Ziyadlı kəndində 523 şagird yerlik orta məktəb əsaslı təmir olunub, körpələr evi-uşaq bağçası üçün bina inşa edilib.

# R.Ə.Balayevin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Rasim Əhməd oğlu Balayev "İstiqlal" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 7 avqust 2023-cü il**

# Y.S.Qusmanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin inkişafında böyük xidmətlərinə görə Yuli Solomonoviç Qusman "Şərəf" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 7 avqust 2023-cü il**

# Prezident İlham Əliyev Bərdə rayonuna gəlib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Bərdə rayonuna səfər edib.**

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Bərdə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

# Ölkəmizin başçısı Qarabağ Regional DOST və Peşə Hazırlığı Mərkəzlərində



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Bərdədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Qarabağ Regional DOST Mərkəzinin və Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin açılışında iştirak edib.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, DOST Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılıb. Agentliyin DOST mərkəzləri vasitəsilə tam şəffaf və vətəndaş məmnunluğu prinsipləri əsasında məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində "bir pəncərə" prinsipi ilə 15 istiqamət üzrə 159 xidmət göstərilir. Hazırda Azərbaycanda 6 DOST Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə indiyədək 1 milyon 673 min nəfərə xidmət göstərilib. Vətəndaşların xidmətlərdən məmnunluq dərəcəsi 98,2 faiz təşkil edir. 2025-ci ilədək mərkəzlərin sayının 17-yə (o cümlədən Bakıda 5, regionlarda 12), yerlərdə xidmətlərin təşkili məqsədilə filialların sayının 55-ə çatdırılması planlaşdırılır.

Bildirildi ki, Qarabağ Regional DOST Mərkəzinin dördmərtəbəli binası ən yüksək tələblərə cavab verir. Burada 123 işçi çalışacaq, "Könüllü DOST" proqramı üzrə 50 könüllü fəaliyyət göstərəcək. Mərkəzdə gün ərzində orta hesabla 650-700 vətəndaşın qəbulu nəzərdə tutulur. Qarabağ Regional Dost Mərkəzinin əhatə dairəsinə 9 inzibati rayon daxildir. Burada ümumilikdə 770 mindən çox əhaliyə xidmət göstəriləcək. Onlardan 170 mini bilavasitə sosial müdafiəyə cəlb olunan şəxslərdir.

Binanın birinci mərtəbəsində DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları tərəfindən hazırlanmış dulusçuluq (keramika), floristika, ağacoyma, vitraj və boyama sənəti üzrə əl işlərindən ibarət sərgi təşkil olunub.

Məlumat verildi ki, hazırda Mərkəzdə 14 yaradıcılıq istiqaməti üzrə 195 benefisiara xidmət göstərilir. Onların 146-sı fərdi müraciət əsasında, 49-u müəssisələrlə fərdi əməkdaşlıq çərçivəsində qəbul olunub. Bu benefisiarların 37 nəfəri 6-10, 59 nəfəri 11-18, 99 nəfəri isə 18 yaşından yuxarıdır.

Prezident İlham Əliyev Qarabağ Regional Peşə Hazırlığı Mərkəzi ilə də tanış oldu.



Məlumat verildi ki, Mərkəzdə 7 emalatxana, 8 sinif və instruksiya otağı, Peşəyönümlü və Karyera Planlaması Mərkəzi, inzibati və texniki otaqlar mövcuddur. Burada 48 peşə istiqaməti, o cümlədən dərzi, tikişçi, dizayner, aşpaz, ofisiant, bərbər, vizajist, çilingər, dülgər, tornaçı, xarrat, mebel ustası, rəngsaz, qaynaqçı, santexnik və digər peşələr üzrə tədrisin həyata keçirilməsi üçün infrastruktur yaradılıb. Mərkəzdə bir dəfədə 300, ildə isə 1200 nəfərin hazırlıq keçməsi nəzərdə tutulub. Qarabağ Regional Peşə Hazırlığı Mərkəzində 20 nəfərlik heyət fəaliyyət göstərəcək.

Dövlətimizin başçısına ölkəmizdə peşə hazırlığı istiqamətində görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, hazırda Bakı, Göyçay, Gəncə və Qarabağ Peşə Hazırlığı mərkəzləri fəaliyyət göstərir. DOST Konsepsiyasına uyğun olaraq, Quba, Cəbrayıl, Sabirabad, Şəki, Masallı, Ucar və Şamaxıda da Peşə Hazırlığı mərkəzləri açılacaq. Ümumilikdə 175 peşə və ixtisas üzrə tədris aparılır. Bu sahədə 100-dən çox əlavə təhsil müəssisəsi ilə əməkdaşlıq həyata keçirilir.

Ümumilikdə son beş ildə ölkəmizdə 1 milyondan çox şəxsə məşğulluq xidməti göstərilib, 425 min nəfər işlə təmin olunub. Həmçinin, 68 min nəfər özünüməşğulluq xidməti, 20 min nəfər işsizlikdən sığorta ödənişi ilə təmin edilib, 18 min nəfər peşə hazırlığına, 473 min nəfər isə peşəyönümlü xidmətlərə cəlb olunub. Postmüharibə dövründə 19 min şəhid ailəsi üzvü və müharibə iştirakçısı müvafiq xidmətlərdən yararlanıb.

Azərbaycan Prezidentinə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən məşğulluq tədbirləri barədə də məlumat verildi.

Qeyd olundu ki, indiyədək 129 min şəxsin təhlili aparılıb. Laçın, Füzuli rayonları, Ağalı və Talış kəndləri üzrə 2257 şəxslə iş aparılır, 200-dək işəgötürənlə əməkdaşlıq qurulub. Şuşaya köçürüləcək əhalidən 19 mindən çox şəxs təhlil olunub, 56 nəfərin məşğulluğu təmin edilib.

**AZƏRTAC**

# Dövlət əhəmiyyətli xüsusi tapşırıq



*(əvvəli ötən saylarımızda)*

Heydər Əliyev məni təcili yanına çağırtdırmışdı. Görüş zamanı Ukraynadan gələn təyyarənin ruslar tərəfindən Gəncədə saxlanıldığını bildirdi. Rimma Nikolayevna Heydər Əliyevə zəng etmiş, ondan kömək istəmişdi. Gəncə şəhər rəhbərliyi, milis idarəsi, digər hüquq-mühafizə orqanlarının cəhdləri uğursuz olmuşdu. Mənə dedi ki, sabah təyyarə Naxçıvanda olsun. Bu təyyarənin bizim üçün böyük əhəmiyyəti vardı. Ukrayna əsgər və zabitlərini yola saldıqdan sonra sıra ruslara gələcəkdi. Hər dəfə Naxçıvana gələndə 100 nəfər əsgər və zabiti qonaqpərvərliklə yola salırdıq. Nəyin bahasına olursa-olsun təyyarə azad olunmalı idi.

Saat 13 radələrində təyyarə Gəncəyə eniş etdi. Ümumi vəziyyəti öyrənmək üçün aeroportun komandiri Firudin Qasımovun kabinetinə getdim. Firudin müəllim təyyarənin desant əsgərlər tərəfindən həbs olunduğunu söylədi. Heç kim təyyarəyə yaxın buraxılmırdı. Əfqanıstanda xidmət keçmiş mayor İqor Peçorskinin batalyonu təyyarəni nəzarətdə saxlayırdı. Aeroportun, şəhər rəhbərliyinin ünsiyyət yaratmaq cəhdləri bir nəticə verməmişdi. Firudin müəllimə birlikdə təyyarənin yanına getməyi təklif etdim. Üzərimdə olan vəsiqəmi saxlamaq üçün ona verdim. Aeroportun şöbə rəisi İsmayıl Əhmədov məni vuracaqlarından ehtiyat edərək getməməyimi məsləhət gördü. Yüz metrə qədər yaxınlaşdıqda Firudin müəllimə dayanmasını bildirərək irəli tək getdim. Təyyarənin üç tərəfinə qum kisələri düzmüşdülər, on nəfər avtomatlı əsgər təyyarəni qoruyurdu. Təxminən, otuz metr yaxınlaşmışdım ki, atəş səsi eşitdim. Bir az sonra ikinci atəş səsi gəldi. Onlar məni qorxutmaq, qaçırtmaq istəyirdilər. Əllərimi qaldıraraq “mən silahsızam” – dedim. Qarşıma yekəpər bir mayor çıxdı. Bu, İqor Peçorski idi. Əlamətlərinə görə, desant zabitinə oxşayırdı. “Məndən qorxursan?” – deyə ona müraciət etdim. “Axı, Əfqanıstana gedənlər qorxaq olmur, nəyə görə söhbətdən qaçırsan?” – deyə sual verdim. Sözlərim təsir etmişdi. Qoluma girdi. Əsgərləri eşitməsin deyə təyyarədən on metr aralandıq. Kim olduğumu, haradan gəldiyimi soruşdu. Naxçıvan şəhərindən gəldiyimi deyəndə bir anlığa duruxdu. Məndən bir nəfəri tanıyıb-tanımadığımı soruşdu. Azər Məmmədovun adını çəkəndə “dayan” – dedim. Azərin qısa tərcümeyi-halını danışdım. Bundan sonra söhbətimiz dostcasına alındı. Mənə dedi ki, iki saatdan sonra təyyarəni apara bilərsən.

Telman Sadıqov “Niva” markalı avtomobilin açarını mənə vermişdi. Təyyarənin ekipajı mehmanxanada idi. “Saat yarımdan sonra Naxçıvana uçuruq” – deyəndə onlar əvvəl inanmadılar, sonra bir-birinin üzünə baxaraq yır-yığış etməyə başladılar. Onları Naxçıvana şəxsən özüm yola saldım. Rimma Nikolayevna Heydər Əliyevə rusların onları da həbs etmək istədiklərini bildirmişdi. Naxçıvana qayıdışlarını isə möcüzə adlandırmışdı. Mənim isə Gəncədə görüləsi işlərim hələ çox idi. Müəyyən ekstremist qrupların hərbi hissələrdən silah-sursat əldə etmək cəhdlərinin qarşısını almaq üçün vacib görüşlər keçirməli idim.

On il sonra mənə bir zəng gəldi. Telefonu açdım. Azər Məmmədov idi. Mənimlə görüşmək istəyirdi. Naxçıvan Sərhəd Dəstəsinin keçmiş rəisi, istefada olan polkovnik Nizaməddin Məmmədovla birlikdə Bakıdan gəlmişdilər. Şam yeməyindən sonra çay süfrəsində üzümü Azərə tutub olmuş bir hadisəni onlara danışmaq istədiyimi bildirdim. Hər ikisi məni diqqətlə dinlədi. Axı, İqor Peçorski Azərə görə təyyarəni azad etmişdi. Qaranlıq bir məsələ var idi. Rəhbərliyin əmrlərini heçə sayaraq, təyyarəni buraxmaq sadə məsələ deyildi. Sən demə, Azərlə İqor Əfqanıstanda birlikdə xidmət etmişdilər. İqorun Azərə nə borcu var idi? Sualıma cavab ala bilmədim, söylənilən xatirələr Azəri çox-çox uzaqlara aparmışdı...

Artıq prezident seçkiləri geridə qalmışdı. Xalqımızda böyük bir ümid yaranmışdı ki, əcdadlarımızın arzuladığı, lakin görə bilmədikləri, Rusiyadan asılı olmayan müstəqil milli dövlət qurulacaq. Çünki seçilən şəxs ümummilli liderimiz Heydər Əliyev idi. Əbülfəz Elçibəy də milli azadlıq hərəkatının rəhbəri olmuşdu. Bir dəfə Heydər Əliyev görüş zamanı Elçibəylə münasibətimin olub-olmadığını soruşdu. Onunla heç bir zaman görüşmədiyimi dedim, lakin milli azadlıq hərəkatında sədaqətli dostlarımın onunla isti münasibət qurduqlarını bildirdim. Ona dedim ki, indi xalqımız Heydər Əliyevlə Əbülfəz Elçibəyin birləşərək Dağlıq Qarabağ problemini həll edəcəyinə böyük ümid bağlayıb. Heydər Əliyev mənə bir vərəq uzatdı. Səhifənin yarısına qədər onun Əbülfəz Elçibəyə ünvanladığı təbrik teleqramı idi. Oxumağımı istədi. Çox səmimi bir təbrik idi. Sonra digər bir vərəqi uzatdı. Səhifə axıra qədər yazılı idi. Bu, Əbülfəz Elçibəydən cavab məktubu idi. Əbülfəz Elçibəy Heydər Əliyev haqqında çox səmimi sözlər yazmışdı. Çox təəssüflər olsun ki, bu təbrik və cavab məktubu mərkəzi qəzetlərdə dərc olunmadı. Heydər Əliyev öz böyüklüyünü etmişdi. Milli birlik üçün ilk addım onun tərəfindən atılmışdı. Lakin xalqımız bilmirdi ki, yüksək vəzifələrdə əyləşən kiçik adamların böyük iddiaları ümumi işimizə xələl gətirəcəkdir. Bu birliyi o nakəslər pozdular.

Heydər Əliyev mənə Azərbaycanın Müdafiə naziri Rəhim Qazıyevlə görüşüb mövcud vəziyyətlə bağlı rəsmi bir məktubu təqdim etməyi tapşırdı. Məktubu Heydər Əliyevin müavini Asif Kələntərli yazmışdı. Məktubda Naxçıvandakı ağır vəziyyətlə bağlı Müdafiə nazirindən hərbi yardım göstərilməsi xahiş olunurdu. Məktubu götürüb Gəncəyə getdim.

Mürşüd Məmmədov yenicə Gəncə şəhərinə icra başçısı təyin olunmuşdu. Müsavat partiyasının üzvü idi. Ziyalı və vətənpərvər idi. Məni səmimi qəbul etdi. Biz öncədən tanış idik. Ondan Müdafiə naziri Rəhim Qazıyevin Gəncəyə gələcəyi vaxtı mənə bildirməsini xahiş etdim. Mürşüd müəllim mənə dedi ki, əgər Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırılmasaydı, xalqımız Dağlıq Qarabağ problemi ilə üzləşməzdi. Öz salamını Heydər Əliyevə çatdırmağımı xahiş etdi.

Aeroportda təyyarəmizi yükləyirdik ki, Naxçıvandan gələn sərnişin təyyarəsi eniş etdi. Sərnişinlərin arasında Bəylər Eyyubovu gördüm. Ona yaxınlaşıb görüşdüm. Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən göndərildiyini dedi. Nazirliyin beş-on min ədəd avtomat patronlarına ehtiyacı olduğunu bildirdi. Üç gün əvvəl Daxili İşlər Nazirliyində Bəylər müəllim, mən və Oruc Zalov (hazırda Azərbaycan Daxili İşlər nazirinin müavini, general-leytenantdır) Naxçıvandakı ağır vəziyyəti bir saatdan artıq müzakirə etmişdik. Axırıncı dəfə onunla 2001-ci ildə yazıçı Güllü Məmmədovanın “Qarabəkir əfsanəsi” kitabının (kitab Qars müqaviləsinin 80 illiyinə həsr olunmuşdu) beş nüsxəsini Heydər Əliyevə çatdırmaq üçün görüşmüşdüm. Kitabın yazılmasında mənim də bir az zəhmətim olmuşdu. Onunla keçmiş ağır günləri yada saldıq.

Bir saat keçməmiş yüz min ədəd patronu Bəylər müəllimlə Naxçıvana Ukraynaya məxsus təyyarə ilə yola saldıq.

İki gün sonra Mürşüd müəllim axşam saatlarında Rəhim Qazıyevin Gəncədə qonaq evində olacağını bildirdi. Axşam qonaq evində Rəhim Qazıyevlə söhbət etdik. Biz ilk dəfə idi ki, görüşürdük. Bundan xeyli əvvəl onun müavini Baba Nəzərli ilə əlaqə yaratmışdım. O da bizim ümidlərimizi doğrultmadı, yəni Naxçıvana kömək göstərmədi. Məktubu Müdafiə nazirinə verdim. Rəhim Qazıyev məktubu oxuyub əsəbi halda üstümə atdı. Əyilib məktubu götürəndə dedi ki, gedin, qoy Naxçıvanı Heydər Əliyev qorusun. Dönüb yanındakı əli avtomatlı cangüdəninə baxanda cəld sağ əlimi cibimə saldım. Üzünü mənə tutaraq dedi ki, bir də səni Gəncədə görməyim. Dərhal otaqdan çıxdım. Sürücüm mühərriki söndürməmişdi, biz qonaq evindən uzaqlaşdıq. Azərbaycan Respublikasının Müdafiə naziri öz sözünü demişdi. Bizə onlardan haray yox idi.

Sözün açığı, Rəhim Qazıyev şəxsi təmənnasına görə Heydər Əliyevi sevməyə bilərdi, ancaq burada söhbət Naxçıvanın taleyindən gedirdi. Əbülfəz Elçibəyə yaxın olan dostlarıma Rəhim Qazıyevin Azərbaycana böyük problemlər yaradacağından bəhs etdim. Hərbi düşüncəsi olmayan bu adamın təcili surətdə Müdafiə naziri vəzifəsindən azad olunması barədə öz təklifini verdim. Söhbət Vətənə böyük bir xəyanətdən gedirdi. Xəyanətkar isə Müdafiə naziri Rəhim Qazıyev idi. Təəssüflər olsun ki, mənim sözüm eşidilmədi. Zaman mənim haqlı olduğumu sübut etdi. Sonralar bunu dostlarım da etiraf etdilər.

İki gün sonra Xanlar (indiki Göygöl) rayonuna getdim. Rayon polis şöbəsinin rəisi polkovnik İlyas Məmmədovla görüşdüm. Humanitar yardım təşkil etmişdi. Yükü aeroporta yola saldıqdan sonra vəziyyəti birlikdə müzakirə etdik. Onun kabinetindən Naxçıvana zəng etdim, Heydər Əliyevlə danışdım. O, mənə təcili Naxçıvana gəlməyimi tapşırdı.

Heydər Əliyev çox narahat görünürdü. Məni diqqətlə dinlədi. Həyatımın təhlükədə olduğunu, hər an həbs edilə və ya vurula biləcəyimi söylədi. Ona bildirdim ki, işlər yekunlaşmaq üzrədir, Naxçıvanın başı üzərindən təhlükə hələ sovuşmayıb. Gəncəyə qayıdacağımı israrla söylədim. Dostlarım məni çox ciddi qoruyurdular. Üç günə “yük dolu” doqquz təyyarəni Naxçıvana yola sala bildik.

Ürəyimə danmışdı ki, xoşagəlməz bir hadisə ilə üzləşəcəyəm. Səhər tezdən aeroporta gələndə o xəbəri aldım. Müdafiə Nazirliyi tərəfindən Naxçıvana uçuşlar dayandırılmışdı. Səbəb uçuşların təhlükəli olması, ermənilər tərəfindən təyyarələrin vurulması ehtimalı idi. Təcili Bakıya getdim, lazım olan razılıqları alaraq Gəncəyə qayıtdım. Çox riskli bir qərar qəbul etmişdim. “Humanitar yardımı” Bakıya, oradan da Naxçıvana aparacaqdım. 350 km məsafəni, çox sayda polis nəzarət postlarından keçməklə qət etmək asan olmurdu. Bu işin fasiləsiz görülməsi üçün bütün lazımi tədbirləri görərək, səfərbər olmuşduq. Bakıdan Naxçıvana “Tu-134” və “Tu-154” sərnişin təyyarələri uçurdu. Öncə baqaja bizim “yüklər”, sonra isə sərnişinlərinki yüklənirdi. Təyyarələr İran İslam Respublikası üzərindən Naxçıvana uçurdu. Qonşu ölkənin nümayəndələri təyyarələrin Tehranda enməsini, yoxlanışdan sonra Naxçıvana uçmasını bildirəndə Heydər Əliyev hava gəmisində yaşlıların, uşaqların olduğunu söyləmişdi. Onları narahat etməyin yolverilməz olduğunu demişdi. Son bir şansım var idi. Axşam Gəncədə “Yak-40” təyyarəsinin pilotu Əliyev Tanrıverdi ilə görüşdüm. Ona sabah Naxçıvana uçmağı təklif etdim. Təklifimi qəbul etdi. Gəncə pilotları qəhrəman pilotlar idi. Ertəsi gün yük dolu təyyarə ilə Gəncədən Naxçıvana uçduq.

Ukrayna əsgər və zabitlərini biz yüksək qonaqpərvərliklə evlərinə yola saldıq. Naxçıvanda rus əsgər və zabitləri qalmışdı. Müəyyən təxribatçı qruplar onların ailələrinə qarşı yolverilməz hərəkətlər etmək istəyirdilər. Onların qarşısı qətiyyətlə alınırdı. Biz qonaqlarımızı gül-çiçəklə yola salmağa hazırlaşırdıq.

Gəncədə olarkən bir xəbər aldım. Naxçıvanda hərbi anbarda partlayış baş vermişdi. On tona yaxın mərmi partlamışdı. Təxribatı ermənilər törətməmişdilər. Sözün bitdiyi yerdir. Kimin tərəfindən törədildiyinə şübhə qalmamışdı...

Elşən Əliyevlə Gəncədə çox mühüm işlər görmüşdük. Elşən əsl xalq qəhrəmanı sayılırdı. Hüquqşünas olmasına baxmayaraq, münaqişə başlayan gündən hadisələrin qaynar nöqtəsində olurdu. Bir çox kəndlərimizin alınmasında misilsiz xidmətləri olmuşdu. Barəsində saysız məqalələr, onlarca kitab yazılmışdı. Hərbi sənaye ilə ciddi maraqlanırdı. Hətta o bizə 100 mm-lik top mərmilərini yenidən istehsal etmək üçün mexaniki bir qurğu da vermişdi. Mərmilərin müxtəlif təyinatlı başlıqlarından, barıtından və s. hissələrindən xeyli tədarük edərək Naxçıvana göndərmişdik. O cümlədən, 64 və 82 mm-lik minaatanların mərmilərini də biz yığa bildik. Bunun üçün Ağstafa rayonundan külli miqdarda hissələr gətirmişdim. Elşənə dedim ki, bir təklifim var, sənin döyüş dostlarından ibarət bir tabor yarat, sizi Naxçıvana aparmaq istəyirəm. Komandir də sən olacaqsan. Təklifimi müsbət qarşıladı. Naxçıvana qayıdanda Heydər Əliyevlə görüşümdə gəncəlilərdən ibarət bir tabor yaratmaq fikrimi ona bildirdim. Ulu öndər təklifimi bəyəndi.

Gəncəyə qayıdanda Elşən otuz nəfərin siyahısını mənə verdi. Hazırda Gəncədə olmasalar da, təxminən, yüz nəfərdən çox könüllünün də adlarının siyahıya alınması xahişini bildirdi. Siyahını Naxçıvanda Elman Abbasova təqdim etdim. Beləliklə, Gəncə taboru Naxçıvan Dövlət Milli Müdafiə Komitəsində rəsmi qeydiyyatdan keçirildi.

Gəncə Maşınqayırma zavodunun direktoru Eldar Qarayev altı ədəd “QRAD” kompleksinin hazır olduğunu bildirdi. Zavodun üç nəfər mütəxəssisini qurğuları quraşdırmaq üçün Naxçıvana gətirdik. Elman bəy bizə qurğuları “Elektrotexnika” zavodunda altı ədəd Zil-131 markalı avtomobilə quraşdırmaq üçün hər cür şərait yaratmışdı. Burada Gəncədən gətirdiyim otuz ədəd döyüş vertolyotlarının raket atan qurğuları da quraşdırılacaqdı. Onların da kifayət qədər “C5” və “C7” mərmilərini Gəncədən gətirmişdik. Bir neçə gün əvvəl 50 ədəd iri çaplı pulemyot, 20 ədəd 82 mm-lik, otuz ədəd 120 mm-lik minaatan və onların külli miqdarda mərmilərini gətirmişdik.

İndi isə Gəncə taborunu gətirməyə gedirdim. Bir gün öncə onlarla görüşüb müvafiq söhbət apardım. Əsgərlərdə döyüş əhval-ruhiyyəsi çox yüksək idi. Elşən isə Kamo kəndində qaçqınlara verdiyi evdə birgə yaşayan həyat yoldaşına və üç azyaşlı övladına “tezliklə gələcəyəm” deyərək üç gün əvvəl mənimlə Gəncəyə qayıtmışdı. Ermənilər Kamo kəndini aramsız atəşə tuturdu, evin hər tərəfində güllə izləri vardı. Yerli əhali isə kənddən çıxmamışdı.

Naxçıvanda ən şiddətli döyüşlər Sədərəkdə gedirdi. Sədərək Naxçıvanın qapısı idi. Ona görə də ermənilər bütün güclərini orada cəmləşdirmişdilər. Özləri üçün bəzi bənzətmələr qoşub söyləyirdilər. Qarabağı üzüyə, Naxçıvanı isə almaz qaşına oxşadırdılar. Coğrafi baxımdan Sədərəyin İrəvana yaxın olması onlarda xəyal yaratmışdı. Bəzi strateqlər və siyasətçilər sonralar Qarabağdansa Naxçıvanı ələ keçirmədiklərinə görə böyük səhv buraxdıqlarını etiraf edirdilər.

Heydər Əliyev Gəncə taboruna uğurlar arzuladı. Bütün hazırlıqlar görülmüşdü. Elman bəylə görüşüb taboru Sədərəkdəki mövqelərimizdə yerləşdirdik. O günə qədər ermənilər on üç dəfə Sədərəyə hücum etmişdilər. Ermənilərin hücumunu gözləyirdik. Gəncə taborunun Naxçıvana gəlməsi muxtar respublikada böyük əhval-ruhiyyə yaratmışdı. İstər yerli əhali, istərsə də döyüşçülərimiz arasında döyüşü qazanacağımıza böyük inam yaranmışdı.

Ermənilərin növbəti hücumu onlar üçün axırıncı oldu. Üç gün ərzində əsgərlərimiz qəhrəmanlıq göstərdilər. Elşən mahir topçu idi. Bizim topçularımızdan cəsur döyüşçümüz Abdulla, II Dünya müharibəsi veteranı Qafar dayı, istefada olan mayor Nurəddin Rəhimov, istefada olan mayor Ağaəli Əsədov və başqaları Naxçıvanın müdafiəsində adlarını hərb tariximizə qızıl hərflərlə yazmışdılar.

Gəncə taboru və bizim əsgərlər bu döyüşdə qəhrəmanlıq göstərdilər. Heydər Əliyev Gəncə taborunun əsgərlərini mükafatlandırdı. Telman, Nəriman, Firdovsi, Gəray, Xanlar, İlqar, Ceyhun, Şahin, Oruc və digərləri döyüşlərdə çox fərqlənmişdilər.

Heydər Əliyev taborun komandiri Elşən Əliyevə “Qaz-24” avtomobili bağışladı. Döyüşdən sonra Heydər Əliyev Ermənistan prezidenti Levon Ter-Petrosyanın ona zəng edib, döyüşləri dayandırmaq barədə xahiş etdiyini bildirdi. Üzümə baxıb gülümsədi. Axı, döyüşdən öncə erməni prezidentini onun ayağına gətirəcəyimizi bildirmişdim.

Heydər Əliyev 1993-cü ildə prezident seçildikdən sonra onun göstərişi ilə Azərbaycan televiziyasından bir qrup işçi məndən həmin epizodu lentə almaq üçün Naxçıvana gəlmişdilər. Gələnlər arasında telejurnalist Nurəli və rejissor Tofiq Gülməmmədov vardı. Çəkiliş Sədərək səngərlərində oldu. Bizimlə bərabər həmin hadisələrin iştirakçıları və şahidləri, Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Adil Kazımov, rayon prokuroru Arif Rzayev, rayon məhkəməsinin sədri Mahmud Cəfərov və başqaları da çəkilişdə oldular.

Heydər Əliyevə bizə yardım edənlərin əməyinin qiymətləndirilməsini söylədim. Ulu öndər mənim təqdimatımla otuz nəfərə təşəkkür məktubunu imzaladı. Məktubları ara sakitləşəndən sonra sahiblərinə şəxsən özüm təqdim etdim. Heydər Əliyev daha çox fərqlənən on bir nəfəri Naxçıvanın “Fəxri vətəndaşı” adının verilməsi üçün təqdimat hazırlamağıma göstəriş verdi.

Həmin günlərdə gedən döyüşlərdə biz şəhid vermədik. Ermənilərin çoxsaylı canlı qüvvəsini, texnikalarını məhv etdik. Düşmənin bütün atəş nöqtələri əsgərlərimiz tərəfindən darmadağın edildi. Ermənilərin həyəcan dolu qışqırıq səsləri eşidilirdi. Qaçmağa yerləri yox idi. Minaatanlarımız onları göyə uçururdular. Hiss olunurdu ki, nə baş verdiyindən şoka düşüblər. Özlərini tamamilə itirmişdilər.

Bu döyüşlərdə keçmiş Naxçıvan DTK rabitəçilərinin əməyini qeyd etməmək insafsızlıq olardı. O vaxtdan bu günədək Naxçıvana hücum etmək üçün ermənilər özlərində bir daha cürət tapmadılar.

Tezliklə Heydər Əliyevin rəhbərliyi altında ruslarla təhvil-təslim prosesi başa çatdı. Sovetlər Birliyində Naxçıvan ilk bölgə idi ki, ruslardan hərbi əmlakı alaraq, onları gül-çiçəklə yola salırdı. Rus diviziyasının yerinə Müdafiə nazirinin müvafiq əmri ilə briqada yaradıldı. Elman Abbasov briqadaya komandir təyin olundu. Beləliklə, Naxçıvanın üzərindən təhlükə sovuşdu. Lakin heç kəsin ağlına gəlməzdi ki, biz tezliklə torpaqlarımızın 20 faizini itirəcəyik. Heydər Əliyevlə görüşərək, xeyli söhbətdən sonra Ali Məclisdən çıxdım. Görüş zamanı Heydər Əliyev mənə növbədənkənar polkovnik rütbəsinin verilməsi, habelə nazirliklərdən birinə yüksək vəzifəyə təyin edilməklə yanaşı, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülməyim barədə təqdimatın yazılmasına münasibətimi öyrənmək istədi. Səmimi şəkildə açıqladım ki, torpaqları işğal altında olan, əsirlikdə qadınları, qızları olan və şəhidlərimizin intiqamını tam almayan bir məmləkətin əsl vətənpərvər övladı kimi o fəxri adı hələ qəbul etmək istəmirəm. Ulu öndər razılıq hissi ilə dedi ki, bu cavabı səndən gözləyirdim.

2003-cü ilin əvvəlində Naxçıvan MTN-nin bir əməkdaşı mənimlə görüşərək bildirdi ki, Azərbaycanın Milli Təhlükəsizlik naziri general-polkovnik Namiq Abbasov tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sənin doğma yurd uğrunda misilsiz tarixi xidmətlərinlə bağlı olaraq bir təşəkkür məktubu göndərilib.

Ulu öndərin gözəl bir deyimi var: ”Qoy ədalət zəfər çalsın!” İllər keçdi, ədalət zəfər çaldı. 1993-cü ilin yayında Heydər Əliyev xalqın tələbi ilə Bakıya gəldi. Əvvəlcə Ali Sovetin sədri, sonra isə Azərbaycan Respublikasının Prezidenti seçildi. Ulu öndər 2003-cü il dekabrın 12-də dünyasını dəyişdiyi günə qədər Azərbaycan Respublikasının iqtisadi və hərbi cəhətdən güclənməsi yolunda böyük işlər gördü. Onun layiqli varisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ata vəsiyyətini yerinə yetirərək torpaqlarımızı düşmən tapdağından azad etdi.

***Urfullah QURBANOV,***
***Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi***

# Qərbin riyakar sifətindəki ləkə

(əvvəli 1-ci səhifədə)

Qərb əziyyət çəkib 2018-ci ildə Ermənistanda inqilab elədi, məlum oldu ki, erməni xisləti Moskvadan "dərs mənimsəməyi" tərgitməyib. İndi isə Qərb həmin "rus dərsinin" müdafiəsi ilə məşğuldur. Belə getsə, 2018-ci il inqilabı rus tarixşünaslığının pafosla təqdim etdiyi Böyük Oktyabr Sosialist İnqilabına çevriləcəkdir...

**İkinci məqama** keçid alaq. Cənubi Qafqazda separatizmin saxlanılmasını istəyən Rusiyadır. Moskva niyyətini müxtəlif arqumentlərdə pərdələmək yolu tutur. Guya, sülh naminə iş aparılmalıdır, Azərbaycan və Ermənistan cəmiyyətləri bir-biri ilə dialoqa girməlidir, yaxınlaşmalıdır və sair bu sayaq mətləbdən yayındıran məsələləri gündəmə gətirir. Sanki 1945-ci ildə nasist Almaniyasını məğlubiyyətə uğradanda onun boğazına çöküb bütün şərtləri qəbul elətdirən SSRİ olmayıb. Və sanki Rusiya həmin dövlətin varisi rolunda çıxış etmir. Yeri gəlmişkən, Rusiyanın baş naziri Dmitri Medvedyev bir neçə gün əvvəl bildirmişdi ki, Ukrayna diz çöküb aman diləyənədək, Kiyevə qarşı reallaşdırılan xüsusi hərbi əməliyyat davam edəcəkdir. Deməli, düşüncə 1945-ci ilin düşüncəsidir. Söhbət heç də ondan getmir ki, Rusiya Ukrayna müharibəsində haqsız və ya haqlıdır. Məsələ yanaşmadadır.

Bəli, Azərbaycan Qarabağdakı separatizmin kökünü kəsməkdə haqlıdır. Bunun üçün bütün vasitələr keçərlidir, bu, öz yerində. Maraqlı olan isə həm də odur ki, hazırda Qərb Rusiyanın məntiqindən çıxış edir. Bəlkə məsələnin fərqində deyil, ancaq nəticə bunu deməyə əsas verir. Halbuki, həmin Qərb Moskvanın Cənubi Qafqazdan sıxışdırılmasını istəyir. Hazırkı durum prosesin reallaşmasına imkan verirmi? Əsla yox! Yəni, dolayısı ilə bu gün "Spayka" "tır"larının qurduğumuz sərhəd məntəqəsindən keçməsini istəyən və mövcud istiqamətdə özünün ermənipərəst mövqeyini ortaya qoyan Qərb, faktiki olaraq, Rusiyanın xeyri üçün çalışmaqdan başqa bir iş görmür. Nəzərə almır ki, "Spayka" ilə birgə Qarabağa dürtülməsinə çalışılan separatizmin davamıdır. Kreml bu gedişatdan faydalanmaq üçün daha böyük şanslara malikdir, nəinki Qərb.

**Üçüncü məqam.** Görünür, Ermənistan Rusiyanın Donetskdə etdiyi kimi, "humanitar yüklər"lərdən sonra Qarabağa qoşun göndərsə, Qərb İrəvanın işğalçılıq niyyətini əsaslandırmaq üçün də nələrsə tapa bilər. Necə ki, otuz ilə yaxın müddətdə tapmışdı. Əvvəldə də bildirdik ki, "Spayka" "tır"larını sərhədə yığmaq Qarabağ müstəvisində Ermənistanın ata biləcəyi son addımdır. Bundan o tərəfi müharibədir.




Nəzərə alaq ki, ölkəmiz həmin "tır"ların Qarabağa keçməsinə ona görə yol vermir ki, Ermənistan hökumətinin bölgəyə humanitar yardım göndərmək qərarı Azərbaycanın ərazi bütövlüyünə təhdiddir. Təhdiddən sonra isə bir qayda olaraq, müharibə gəlir. Ukraynadakı kimi. Rusiya birinci Donetskdə humanitar yüklər göndərdi, sonra tanktop. Yeri gəlmişkən, onun yardım "tır"larının içərisində "humanitar Kalaşnikov avtomatı"nın olduğunu da söyləmək üçün müəyyən əsaslar var. Çünki həmin yüklər Donetskə gedib çatdıqdan sonra bölgədə "fəallaşma" olmuşdu. Tam mümkündür ki, "Spayka" "tır"ları Qarabağa yetişsə, orada da separatizm aktivləşəcək.

Onu da nəzərə alaq ki, yük avtomobillərinin içərisində silahların deyil, humanitar təyinatlı malların olduğunu müəyyənləşdirmək mümkünsüzdür. Digər tərəfdən, Ermənistanın 44 günlük müharibədən sonra daim sadiq qaldığı "ənənə" var – Laçın yolundan silah-sursat, mina daşımaq. Belə görünür, indiki halda Azərbaycandan Ermənistanın "tır"larının Qarabağa buraxılmasını tələb edən beynəlxalq ictimaiyyətin istədiyi elə budur.

**Dördüncü məqam.** Ötən həftə Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinq zamanı bildirmişdi ki, Ermənistan Qarabağa humanitar yüklər göndərəndə Azərbaycan ilə məsləhətləşməmişdi. Bu fikir, əslində, Qarabağın hüquqi sahibinin kimliyini müəyyənləşdirmək baxımından böyük əhəmiyyətə malikdir. Hərçənd, hiss olunurdu ki, Zaxarovanın cavabı Ermənistan jurnalistlərinin çoxsaylı təxribatçı suallarına qarşı bir növ üsyandır. Təxminən belə: əl çəkin məndən. Qarabağ sizin deyil, birtəhər istəyirik ki, nə isə edək, gic-gic suallarla baş-beynimizi tökürsünüz.

Nəsə etməyə gəlincə, Zaxarova ondan da söz açmışdı. Yəni, o, İrəvanın Qarabağa humanitar yük göndərərkən, məsələni Bakı ilə razılaşdırmadığını bildirsə də, hazırda Rusiyanın Azərbaycanla həmin yüklərin ünvanına çatması üçün danışıqlar apardığını vurğulamışdı. Əlbəttə, Azərbaycan özünün prinsipial mövqeyindən geri çəkilməyəcək. Ölkəmiz Qarabağdakı separatizmin çənbərini hər ötən gün daha da daraltmaqdadır.

Sonda bir daha ikili standarlar siyasəti barədə. Azərbaycan buna öyrəncəlidir. Yəni, prinsip etibarilə dünyanın vaxtilə Ukraynaya yanaşdığını hazırda ölkəmizə münasibətdə ortaya qoymaması təəccüblü deyil. Həmin Qərb idi ki, onun bəzi dairələri 44 günlük müharibə başlayanda dünyaya Azərbaycanın Ermənistana qarşı işğal törətdiyini car çəkmişdilər. İndi də bizi qeyri-insani rəftarda, sadə insanların həyatını siyasi oyunlarda alətə çevirməkdə günahlandırırlar.

Qərb bir şeyi ciddi düşünməlidir: Ukraynaya münasibətdəki yanaşma sonda böyük müharibə doğurdu ki, bu gün də həmin müharibə neçə-neçə insanın arzularını torpağa gömür. Yəni, Ukraynadakı müharibəyə görə Rusiya nə qədər təqsirkardırsa, Qərb də eyni dərəcədə müqəssirdir. Sabah Qarabağda müharibə başlasa, yenə təqsirkar Rusiya və Qərb olacaq. Çünki ikili standartlar siyasəti fonunda bu iki cinahın bir-biri ilə apardığı rəqabət perspektivdə yalnız müharibə vəd edir.

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

# "Yel əsib, Zəngəzura qoz tökülüb?"

*Moskva, Tehran, Dehli və Brüssel həmin qozu toplamaq üçün konsulluq və ofislər yaradırlar*




**"Milçək şirəyə yığışar" deyimi köhnə bayatıdır. Elə bəzi siyasi mərkəzlərin eyni ünvandakı iqtisadi maraqların üstünə yürüş etməsi də təzə tendensiya deyil. Tarix boyu belə faktları çox görmüşük. Zaman sübut edib ki, həmin yürüşlərin sonunda qalib gələn olmur. Kimsə azacıq uğur qazansa da, həmin nəticə də müvəqqəti olur.**

Söhbət tarixi Azərbaycan torpaqlarından olan Zəngəzur ərazisinin son illərdə hamı üçün iqtisadi maraq kəsb edən məkana çevrilməsindən və bəzi dövlətlərin oraya can atmasından gedir.

Onu da xatırladaq ki, Zəngəzur mahalı qədim Azərbaycan ərazisi olmaqla yanaşı, oranın bütün dünyanın diqqət mərkəzinə düşməsi də Azərbaycanın 44 günlük İkinci Qarabağ müharibəsində qazandığı tarixi Zəfərin yaratdığı yeni reallıqlardandır. Yəni indi hamının "ağzını sulandıran" həmin dəhliz üç minə yaxın azərbaycanlı hərbçinin qanı bahasına yeni status qazanıb.

Söhbət hansı statusdan gedir? Əlbəttə ki, TransXəzər, Orta dəhliz, Şərq–Qərb, İpək Yolu, "Bir kəmər, bir yol" kimi nəhəng iqtisadi layihələrin tərkibi olmaq statusundan. Bu dəhliz açılarsa, Qədim İpək Yolunun üstündə olan ölkələrin hamısı böyük iqtisadi imkanlar əldə edəcək. Ancaq elə ölkələr var ki, bilavasitə həmin dəhlizə nəzarət etmək, bir çox məsələləri öz əlində cəmləşdirmək iddiasından əl çəkmirlər. Bədbəxt ermənilər isə elə bilirlər ki, son illər o ərazilərdə konsulluq və ya ofis açanlar Ermənistanın hansısa probleminin həllinə kömək edəcəklər. Ay hay! Buradakı "hay" sözü lap yerinə düşdü.

## Öndə Tehran gedir

Fikrimizi əsaslandırmaq üçün bəzi faktları yada salaq. Hələ ötən il oktyabrın 21-də regionun kütləvi informasiya vasitələri xəbər verdilər ki, bu gün Zəngəzur vilayətinin Qafan şəhərində İranın Baş Konsulluğunun açılış mərasimi keçiriləcək. İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian həmin məqsədlə bir gün öncədən Ermənistana gedibmiş. O, konsulluğun açılış mərasimində Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla birlikdə iştirak edəcəkmiş. Erməni mətbuatı özü də bilmədən cənab Abdullahianın bu açılışı etməyə tələsdiyini ifşa etmişdi: "Konsulluq binasında təmir və abadlıq işləri hələ başa çatmayıb".

## Ruslar isə oraya sentyabrda gələcəklər

TASS agentliyi avqustun 4-də xəbər verdi ki, "Rusiya diplomatları sentyabr ayında konsulluğun açılması məsələsi ilə bağlı Ermənistanın Sünik vilayətinin Qafan şəhərinə səfər edəcəklər".

Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə dördüncü departamentinin direktoru Denis Qonçar mətbuata bildirib ki, biz Sünik vilayətinin Qafan şəhərində Rusiya baş konsulluğunun geniş səviyyədə açılışına fəal şəkildə hazırlaşırıq. Artıq sentyabr ayında Rusiya diplomatları bölgəyə səfər edəcək, məsələ ilə birbaşa yerində məşğul olacaqlar".

Əlavə edək ki, bu il mayın 25-də Moskvada Nikol Paşinyanla Vladimir Putinin görüşündə Rusiyanın Ermənistanda konsulluq açmaq məsələsi müzakirə edilmişdi.

## Brüssel də Ermənistanda fəal şəkildə təmsil olunmaq istəyir

Məlum səbəblərdən həm Moskva ilə, həm də İranla münasibətləri həddən artıq gərgin olan Avropa İttifaqı eyni zərbə ilə həm İranı, həm də Rusiyanı Ermənistandan çıxarmaq üçün genişmiqyaslı planlar qurmaqdadır. Bu il iyunun 7-də Aİ-nin İrəvandakı nümayəndəliyinin mətbuat xidmətindən xəbər gəldi ki, İttifaqın Ermənistandakı missiyası Cermuk, Yeqqnadzor və İcevanda yeni əməliyyat mərkəzləri açacaq.

Əlavə etdilər ki, bizim məqsədimiz digər məsələlərlə yanaşı, sərhədyanı ərazilərdə təhlükəsizliyin sabitləşməsinə töhfə verməkdir. Maraqlıdır, həmin "digər məsələlər" nədən ibarətdir?

Xatırladaq ki, bu il fevralın 20-də Ermənistanda iki illik mandatla 100 nəfərdən ibarət yeni Avropa missiyası fəaliyyətə başlayıb. Öz fəaliyyətlərinə də ad veriblər ki, missiyanın məqsədi Ermənistanın sərhədyanı rayonlarında sabitliyi təşviq etmək, yerlərdə inam yaratmaq və Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması səyləri üçün əlverişli mühiti təmin etməkdir. Təbii ki, rəsmi Bakı Avropa İttifaqını kəskin qınayıb və missiya ilə əməkdaşlıqdan imtina edib.

## ...Hindus da ermənini axtarıb tapır

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaza, daha doğrusu, Ermənistana can atan ölkələrdən biri də Hindistandır. Rəsmi Dehlinin İrəvanla əlaqələri son illərdə, demək olar ki, bütün sahələrdə artan templə inkişaf edir. Hindistanın xarici siyasət dairələri Ermənistanla strateji tərəfdaşlığın formalaşdırılmasında bir neçə səbəbdən maraqlıdır.

Bəzi ekspertlər yazırlar ki, guya, Dehli Azərbaycan – Pakistan dostluq və tərəfdaşlığını qəbul edə bilmədiyinə görə İrəvanla qucaqlaşır. Digər mütəxəssislərin fikrincə isə, 2020-ci ildəki 44 günlük müharibə ilə regional güc balansının dəyişməsi və Rusiyanın Ukraynadakı uğursuzluqları səbəbindən Cənubi Qafqazda potensial güc vakuumunun yaranması Yeni Dehli üçün regionda müəyyən fürsətlər yaradır. Guya, bu fürsətlərin dəyərləndirilməsi Hindistanın həm öz geosiyasi rəqiblərinin addımlarını cavablandırması, həm də geo-iqtisadi layihələrinin həyata keçirilməsi baxımından vacibdir.

Bəlkə də, bu arqumentlərdə hansısa həqiqətlər var. Ancaq bəzi hərbi ekspertlər Hindistanın İrəvana maraq göstərməsini Ermənistanın silah-sursata ehtiyacının artması ilə əlaqələndirirlər. Fikrimizcə, dördüncü qisim ekspertlər daha haqlıdırlar. Onlar Hindistandakı müxtəlif çevrələrin Ermənistanın həm Şimal – Cənub, həm də Fars körfəzi – Qara Dəniz nəqliyyat dəhlizləri layihələrində iştirakının mümkünlüyünü vurğulayırlar. Ermənistanın Çin tərəfindən maliyyələşdirilən nəhəng infrastruktur layihələrindən kənarda qalması da Hindistanın alternativ infrastruktur marşrutları çərçivəsində bu ölkəni öz layihələrinə daxil etməsini şərtləndirir. Diqqət yetirdinizsə, yenə də fikirlər Zəngəzur dəhlizinin üstünə gedir. Yəni "milçək şirəyə yığışır".

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

**ABŞ-ın "Vaşinqton post" qəzeti özünün bir neçə gün öncəki sayında Azərbaycanda iqtisadçı ekspert Qubad İbadoğlunun həbsinə münasibət bildirən məqalə yayımlayıb. "Rəy" rubrikası ilə təqdim edilmiş məqalənin ilk növbədə sərlövhəsinə diqqət yetirmək kifayətdir ki, onun qərəzli mahiyyət daşıdığı barədə firkir yürütmək mümkün olsun.**

# "Vaşinqton post" və psevdokleptokratiya

"Kleptokratiya geri çəkilir. Azərbaycanlı istisadçı azad edilməlidir". "Vaşinqton post"un avqustun 6-da yayımlanmış məqaləsinin başlığı budur. Öncə "kleptokratiya" sözünün üzərində dayanaq. Beləliklə, şəxsi fəaliyyəti və siyasi gücünü artırmaq üçün ərazisinin insanlarını və təbii sərvətlərini istismar edən quruluş kleptokratiya adlanır.




Nəzərə alaq ki, ABŞ-ın özünün yaranması məhz kleptokratik düşüncə tərzinin məhsulu olmuşdur. Yəni, avropalılar var-dövlət toplamaq üçün Amerika qitəsinə axın etmiş, oranın yerli əhalisi olan hunduların kökünü kəsmiş, sonra bir-biri ilə müstəmləkə varidatlarını bölüşdürə bilməmiş, "Boston çay dəsgahını ildırım vurmuş", müharibə başlamış, nəticədə qitənin kolonialistləri İngiltərədən asılılığı aradan qaldırmış və beləliklə də, ABŞ adlı dövlətin formalaşması baş vermişdi.

Birləşmiş Ştatlar mövcudiyyətinin müxtəlif illərində də xarici ölkələrə yanaşmada kleptokratik düşüncə tərzini müdafiə etmişdi. Özünü demokrat kimi təqdim edən Ağ ev dünyanın bir sıra anti-demokratik quruluşlarını bilavasitə bəsləmiş, həmin quruluşların öz xalqlarının istismarına şərait yaratmışdı. Əlbəttə, sonradan onların içərisində, necə deyərlər, ABŞ-ın üzünə ağ olanları da tapılmışdı. Məsələn, Liviyanın mərhum lideri Müəmmar Qəzzafi elə ki, Vaşinqtonun dediyini yerinə yetirmədi, diktatora çevrildi. Belə misallar həddən çoxdur.

Sözümüz ondadır ki, bir ABŞ nəşrinin kleptokratiyadan söz açmağa əsla haqqı yoxdur. Həm də ona görə ki, Azərbaycanda belə quruluş olsaydı, "Vaşinqton post" onu tənqid etməz, əksinə öyərdi. Axı "ənənə" də var, müasir ərəb klerikal teokratiyalarını dəstəkləyən təcrübə də. Elə isə düşünək görək, qəzetin dərdi nədir?

Bu barədə söz açmazdan əvvəl bildirək ki, "Vaşinqton post"un Azərbaycan hakimiyyətini iqtisadçı Qubad İbadoğlunu həbsdən azad etməyə çağırış səsləndirməsi absurddur. Daha doğrusu, məsələnin qəti şəkildə qoyulması yolverilməzdir. Heyrətə gəlməmək mümkün deyil. Dünyanın nüfuzlu nəşri sayılan bir media orqanının qanunlardan uzaq düşüncə tərzinə necə yer verdiyi maraqlıdır. Həqiqətən, "Vaşinqton post"un hökm çıxarmaq əzmi qanunçuluğa tüpürməkdən başqa bir şey deyil. Azərbaycan məhkəmə və hüquq sistemi olan dövlətdir. Belə görünür ki, Birləşmiş Ştatlar üçün bu anlayışlar yaddır.

Q.İbadoğlunun kultlaşdırıldığı məqaləyə diqqət yetirəndə ilk baxışdan yaranan təəssürat budur ki, guya, iqtisadçı ekspert Azərbaycandan kənarda mövcud hakimiyyətə qarşı inqilabçı nəslin hazırlanmasında iştirak etdiyinə görə həbsə düşüb. Halbuki əsas məsələ heç də bu deyil. Sən demə, "Vaşinqton post"un marağı başqa imiş. Qəzet konkret sifariş yerinə yetirməkdədir ki, bu isə jurnalistika prinsiplərinə də tüpürməkdir.

Bəli, nəşrin dərdi başqadır. Bu barədə söz açarkən, bildirək ki, ABŞ-da güclü erməni lobbisi və diaspor təşkilatları var. Onlar Azərbaycana qarşı total əks-təbliğatla məşğuldurlar. Belə yaramaz fəaliyyətin müxtəlif təzahür formaları mövcuddur. Birləşmiş Ştatların senator və konqresmenlərinin ələ alınmasından tutmuş, ayrı-ayrı media orqanları müstəvisindəki manipulyasiyalaradək, bir çox məqamları vurğulamaq mümkümdür. İndi belə mənfi halların üzərində dayanmağa ehtiyac duymuruq. Çünki "Vaşqinqton post" məqaləsində hazırkı "məqsədini" bəlkə özü də fərqinə varmadan açığa çıxarır.

Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının getdiyi, Birləşmiş Ştatların da prosesdə aktiv vasitəçilik həyata keçirdiyi bir vaxtda erməni lobbi və diaspor təşkilatları çalışırlar ki, ABŞ-ın öz missiyasına yanaşmasında koordinal dəyişikliklər yaransın. Başqa sözlə desək, mətndəki "kleptokratiya" təqdimatı fonunda iqtisadçı ekspertin həbsinə toxunulması, Vaşinqtonun anti-demokratik ölkə kimi səciyyələndirilən Azərbaycana təzyiq göstərməsinə şərait yaratmağı hədəf seçib: "Azərbaycan etnik erməni qüvvələrinin otuz ildir nəzarətində olduğu Dağlıq Qarabağa tam nəzarəti bərpa etməyə çalışır. Ermənistan və Azərbaycan sülh danışıqları aparırlar. Böhranla bağlı Azərbaycanla istənilən təmasda cənab İbadoğlunun dərhal azadlığa buraxılması xahişi də yer almalıdır".

Demokratiyadan və kleptokratiyadan söz düşmüşkən, Ermənistanın baş naziri Nikol Paşinyan müxtəlif miqyaslı xarici toplantılarda, eləcə də qəbullarda ölkəsinin demokratik olduğunu göstərmək yönümlü fikirlər səsləndirir. O, belə etməklə, dolayısı ilə dünyanın anti-Azərbaycançı ritorikasındakı motivləri yada salır. Çalışır ki, həmin motivlər Cənubi Qafqazdakı sülh prosesinə nəzərən işlək halda olsun. Əslində, "Vaşinqton post"un da yanaşması məhz buna "xidmətdir".

Göründüyü kimi, Qubad İbadoğlunun məsələsi yalnız "vasitədir". Hər bir halda, belə "gedişlər" gerçək nəticə verə bilməz. Azərbaycan Ermənistanla sülh prosesindəki qətiyyətinə və prinsipiallığına tam sadiqdir. Heç bir qüvvə ölkəmizi haqlı mövqeyindən daşındırmaq qabiliyyətində deyil. Hansısa hadisədən də Bakının geri çəkilməsi naminə istifadə konkret fayda verməyəcək.

Yəni, "Vaşinqton post" kimi nəşrlər əziyyət çəkib nə jurnalistikanın, nə də beynəlxalq hüququn prinsiplərinə etinasızlıq etsinlər. Demirik ki, Azərbaycana münasibətdə obyektiv olsunlar. Bacarmayacaqları işlə məşğul olub əzab çəkmələrini istəmirik. Nə edək, biz də belə humanistik. Yalnız susmalarını arzulayırıq.

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***

# Yaxın günlərdə Zabuxa köç başlayacaq



(əvvəli 1-ci səhifədə)

Püşkatmada 20 ailə (88 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 4-ü ikiotaqlı, 4-ü üçotaqlı, 8-i dördotaqlı, 4-ü beşotaqlı mənzil ilə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar.

Püşkatmanın keçirilməsi məcburi köçkünlərin yerləşdirilməsində obyektivliyi və şəffaflığı təmin etmək məqsədi daşıyır. Məcburi köçkün ailələrin nümayəndələri püşkatma vasitəsilə onlara verilən evlərin dəqiq ünvanını müəyyənləşdirirlər.

Tezliklə daimi yaşayış üçün Zabux kəndinə qayıdacaq keçmiş məcburi köçkünlər çox böyük sevinc hissi keçirdiklərini qeyd ediblər. Onlar işğaldan azad olunmuş ərazilərdə yaradılan şəraitə və məcburi köçkünlərə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

Püşkatmada iştirak etmiş ailələr yaxın günlərdə Zabux kəndinə yola salınacaqlar.

Zabux kəndinin layihələndirilməsi və tikintisi üzrə sifarişçi Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondudur. Zabux kəndində birinci mərhələdə beton zirzəmi-sığınacağı olan 223 birmərtəbəli fərdi yaşayış evi inşa edilir. Bundan başqa, kənddə uşaq bağçası, inzibati bina, tibb məntəqəsi və digər obyektlər də tikilir.

***Q.QASIMOV, "Xalq qəzeti"***

# Arayikin çarəsizliyi

## Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasının qaçılmaz olduğunu artıq hamı qəbul edir

**Azərbaycanın Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlı kontingentinin müvəqqəti məsuliyyəti zonasında baş verən hadisələr ölkə ictimaiyyətinin diqqət mərkəzindədir. Məlumdur ki, bu ərazidə ölkəmizin vətəndaşları olan etnik ermənilər yaşayırlar. Onlar Azərbaycan SSR daxilində Dağlıq Qarabağ Muxtar Vilayətinin qurulduğu 1923-cü ildən etibarən respublika daxilində heç bir problemlə üzləşmədən yaşayıblar. Öz dillərini, dinlərini, adət-ənənələrini inkişaf etdirmək və yaşatmaq üçün onlara hər cür şərait yaradılmışdı. Mərkəzi büdcədən ayrılan dotasiyanın çox olması hesabına DQMV-nin iqtisadi göstəriciləri Azərbaycanın digər bölgələrindəkindən, o cümlədən Naxçıvan Muxtar Respublikasının göstəricilərindən yüksək idi.**

1988-ci ilin fevralında isə Qarabağda müxtəlif vəzifə tutan Leonard Petrosyan, Robert Koçaryan, Serjik Sarkisyan (Petrosyan həmin vaxt DQMV Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin sədri, Koçaryan Xankəndi ipəkəyirmə fabrikinin partiya komitəsinin katibi, Sarkisyan isə vilayət partiya komitəsinin birinci katibi Boris Gevorkovun köməkçisi idi – S.H.), habelə Samvel Babayan, Bako Saakyan və digər şəxslər "Ermənistana birləşmək" ("miatsum") şüarı altında etnik separatizmi qızışdıraraq iki xalq arasında nifrət toxumu səpiblər. Ermənistan hakimiyyətindən və xaricdəki erməni diasporundan dəstək alan separatçılar Qarabağdan azərbaycanlıları zorla qovub çıxarıblar. Onlar 1991-ci ildə orada "dqr" adlı qondarma qurum yaradıblar. Separatizm hərəkatı daha sonra Ermənistanın Azərbaycana qarşı açıq silahlı təcavüzünə çevrilib. Qarabağın dağlıq hissəsindəki qanunsuz erməni silahlı hərbi birləşmələrinin və Ermənistan Respublikası silahlı qüvvələrinin təcavüzkarlıq əməliyyatları keçmiş DQMV-yə daxil olmayan 7 rayonumuzun – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlının da işğal altına düşməsi ilə nəticələnib. Ümumilikdə, ərazilərimizin 13 min kvadratkilometri 30 ilə yaxın işğal altında olub.



Prezident İlham Əliyevin müzəffər sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu 2020-ci ildə cəmi 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın təslimolma sənədini imzalamağa məcbur olması ilə müharibə başa çatdı. Azərbaycanın döyüş meydanında qazandığı böyük Qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı – Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

Vətən müharibəsi dövründə, bütövlükdə, 10 min kvadratkilometr ərazi işğaldan azad edildi. İndi Qarabağ iqtisadi rayonunda ermənilərin yaşadığı ərazi cəmi 3 min kvadratkilometrdir. Azərbaycan dövləti həmin ərazidə yaşayan erməniləri öz vətəndaşları hesab edir. Onların Azərbaycan cəmiyyətinə sosial, siyasi, iqtisadi baxımdan yenidən inteqrasiyasına (reinteqrasiya) nail olmağa çalışır.

Ölkəmizin aprelin 23-də Laçın sərhəd nəzarət-buraxılış məntəqəsini yaratması, bir ay sonra – mayın 23-də isə Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, bura Qarabağın da daxil olduğunu bəyan etməsindən sonra situasiya əhəmiyyətli dərəcədə dəyişib. Artıq Qarabağ erməniləri də başqa çıxış yolunun olmadığını başa düşürlər. Buna baxmayaraq, Qarabağda "hakimiyyəti" ələ keçirmiş şəxslər reinteqrasiya prosesinin qarşısını almaq üçün cəhdlər edirlər. Ancaq qəlblərinin dərinliklərində bunun faydasız olduğunun fərqindədirlər.

Separatçı rejimin başçısı Arayik Arutyunyanın avqustun 6-da "Artsaxın ictimai televiziyası"na verdiyi müsahibə belə cəhdlərdən biri hesab oluna bilər. Eyni zamanda, müsahibə bir sıra etiraflarla zəngindir. A.Arutyunyan faktiki olaraq, Qarabağ ermənilərinin çıxılmaz durumda olduğunu təsdiqləyir. Müsahibə Qarabağdakı rejimlə Ermənistan hakimiyyəti arasında ciddi fikir ayrılıqlarının, hətta uçurumun yarandığının göstəricisidir. Xankəndi və İrəvanın Qarabağ məsələsinə baxışı bir vaxtlar tam üst-üstə düşürdü. İndi isə A.Arutyunyan İrəvanla ən mühüm fikir ayrılığının Qarabağ problemi ilə bağlı olduğunu vurğulayıb. O, Ermənistan hakimiyyətini çox diqqətli olmağa çağırıb: "Mən Ermənistan hakimiyyətini "Artsax"ın öz müqəddəratını təyin etməsinə şübhə yarada biləcək addımlardan və bəyanatlardan çəkinməyə çağırıram. "Artsax hərəkatı" erməni xalqı tərəfindən başlayıb və referendumlarda öz əksini tapıb. O, bir nəfərin inhisarında deyil. Mən Ermənistan hakimiyyətini "Dağlıq Qarabağla" bağlı çox diqqətli olmağa çağırmaq istəyirəm. Heç kimin bizim öz müqəddəratını təyinetmə hüququmuzu şübhə altına almaq və məhdudlaşdırmaq hüququ yoxdur".

Xunta rejiminin "qlavar"ı müxtəlif beynəlxalq instansiyalara etdikləri müraciətlərinin nəticəsiz qaldığından da gileylənib: "Beynəlxalq strukturların reaksiyası olub, var və olacaq. Amma nəticə yoxdur. Mən ilk məktubumu iyunun əvvəlində Rusiya Federasiyasının Prezidentinə göndərdim və vəziyyətin artıq fəlakət həddində olduğunu bildirdim. İyulun 5-də Ermənistanın baş naziri buna əlavə olaraq istinad edib. Bunun ardınca İlham Əliyev, Nikol Paşinyan və Şarl Mişel, daha sonra isə Ceyhun Bayramov, Ararat Mirzoyan və Sergey Lavrov arasında üçtərəfli görüşlər keçirilib. Görünür, hər yerdə problem olduğunu və vəziyyətin gündən-günə pisləşdiyini görürlər, lakin nəticə sıfırdır".

Müsahibədə digər etiraflar da var. Mümkün Bakı–Xankəndi dialoquna toxunan Arutyunyan deyib: "Dialoq tətbiq olunmur. Görünən odur ki, bizi Azərbaycanla tək buraxmaqla bağlı üstüörtülü razılıq var. Azərbaycan isə təzyiq üsulundan istifadə edir. Amma bu, artıq təzyiq üsulu deyil, biz "soyqırımı"nın astanasındayıq. Yəni, bunu dialoq adlandırmaq olmaz, bizi ancaq Azərbaycanın bizim üçün qəbuledilməz olan şərtlərini, tələblərini qəbul etməyə sövq edirlər".

Göründüyü kimi, müsahibə həm də ölkəmizin ünvanına yalan ittihamlarla doludur. Qarabağda özünü hakimiyyət başçısı adlandıran bu şəxsin və rəsmi İrəvanın iddialarının əksinə olaraq, Azərbaycanın gündəliyində hansısa soyqırımı, etnik təmizləmə siyasəti yoxdur. Heç zaman da olmayıb. Ümumiyyətlə, Azərbaycan xalqının və dövlətinin tarixində belə hallar olmayıb. Əksinə, azərbaycanlılar XX əsrdə dəfələrlə etnik təmizləmənin qurbanı olublar. Bu baxımdan Arayik dönüb öz xalqının keçmişinə baxsaydı, daha yaxşı olardı.

Onu da deyək ki, müsahibə ermənilər arasında da etiraz dalğası yaradıb. Analitik Arşak Abramyan öz "Facebook" hesabında yazıb: "Arayik başa düşmür ki, iş adamının çevikliyi ilə "ölkə"yə (qondarma rejimə-S.H.) rəhbərlik edə bilməz. Dünənki çıxışı zamanı onun qırxılmamış üzünə və çarəsiz görünüşünə baxıb fikirlərini eşitdikdə bir şey məlum oldu: Arutyunyan bütün hesablamalarında yanılır, böyük oyunçuların heç biri artıq onunla hesablaşmır və vəziyyətə nəzarət edə bilmir. Bu vəziyyətdə, o, ehtiyatlılıq nümayiş etdirməli və böhran vəziyyətlərində idarə edə bilən, bacaran insanlara yol verərək səssizcə getməlidir".

*Səxavət HƏMİD, "Xalq qəzeti"*

### Ekspert rəyi

**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi şərhçi**



– İstər Azərbaycana dost olan, istərsə də qeyri-konstruktiv yanaşan, həmçinin Ermənistan özü də yaxşı bilir ki, Qarabağ ermənilərinin reinteqrasiya prosesi mütləq baş verəcək və baş verir. Əslində, Azərbaycanın son bir ildə gördüyü bütün işlər reinteqrasiya prosesini hərəkətə gətirmək üçün təkan rolunu oynayır. Burada istər Arutyunyan, istərsə də digər mərkəzlərə tabe olan onun kimi əldəqayırma fiqurların hamısı başqa yolun olmadığını dərk edirlər. Sadəcə istər separatçıların indiki rəhbərləri, istərsə də əlində silah xalqımıza qarşı soyqırımı törədənlər Azərbaycan tərəfindən cəzalandırılacaqlarından qorxurlar. Bu qorxu onları birləşdirir və onlar Qarabağ ermənilərinin adından danışırlar. Əslində isə öz canlarının və mallarının hayındadırlar.

Gələcəkdə Azərbaycan vətəndaşlığını qəbul etmək istəyən sadə ermənilərə gəldikdə isə deməliyik ki, onlar üçün heç bir təhlükə yoxdur. Vaqif Xaçatryanın həbsi də göstərir ki, Azərbaycan istənilən vaxt yalnız cinayətkarları saxlayacaq, bu işi də öz qanunvericiliyi çərçivəsində görəcək. İndiyədək Laçın sərhəd nəzarət-buraxılış məntəqəsindən 2 mindən çox Qarabağ ermənisi keçib. Azərbaycan sərhədçiləri heç kimə toxunmayıb. Amma cinayətkarlar mütləq həbs olunacaq, cəzaları da veriləcək. Bu, əslində, Qarabağ separatçılarına və oradakı cinayətkarlara mesajdır. Azərbaycan bir neçə ay öncə onlara iki dəfə dialoq təklif etdi. Onlar isə Azərbaycanın hər iki təklifindən imtina etdilər. Bundan sonra dövlət başçımız daha dəvət olmayacağını bəyan etdi.

Qarşıdakı aylarda – ilin sonunadək Qarabağ erməniləri arasından bir nəfər ortaya çıxıb Azərbaycanla dialoqun ölkənin öz ərazisində getməli olduğunu bəyan etməlidir. Bunun üçün xahiş edilməlidir. Bundan sonra Azərbaycan mövqeyini yumşaldar və dialoqa gedər. Dialoqun bir predmeti ola bilər: Azərbaycanın suverenliyinə hörmət, ölkənin sosial-iqtisadi həyatına reinteqrasiya. Başqa yol yoxdur. Bununla bağlı beynəlxalq platformada danışıqlar olmayacaq. Ancaq Azərbaycanın ərazisində və şərtləri əsasında bu proses gedə bilər.

---

# XİN: BMT-nin bəzi xüsusi məruzəçilərinin iddiası təəssüf doğurur

**BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçiləri və müstəqil ekspertinin guya Azərbaycan tərəfindən "Laçın dəhlizi"nin blokadada saxlandığı və "Dağlıq Qarabağ" bölgəsində "gərgin humanitar vəziyyət" yarandığı iddiası ilə çıxış etməsi təəssüf doğurur və BMT orqanlarının siyasi manipulyasiya alətinə çevrilməsi cəhdlərindən xəbər verir.**

XİN-in Mətbuat Xidməti İdarəsindən bildirilib ki, 30 il ərzində Azərbaycan ərazilərinin işğalına, 1 milyona yaxın qaçqın və məcburi köçkünün insan hüquqlarının pozulmasına, son üç il ərzində Azərbaycan ərazilərində erməni silahlı qüvvələrinin mövcudluğuna, məcburi köçkünlərin öz evlərinə geri qayıtmasına maneçilik törədilməsinə göz yuman BMT xüsusi məruzəçilərinin və ekspertlərinin Ermənistanın manipulyasiyalarına aldanıb qərəzli bəyanatlar verməsi narahatlıq doğurur. Bununla yanaşı, həmin şəxslərin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyərək bəyanatda "Dağlıq Qarabağ" kimi ifadələr işlətməsi, ölkəmizin daxili işlərinə qarışması və ikili yanaşmalar tətbiq etməsi qəbuledilməzdir.

Azərbaycan tərəfindən erməni sakinlərin, Beynəlxalq Qızıl Xaç Komitəsinin və Rusiya sülhməramlı kontingentinin sərhəd-buraxılış məntəqəsindən keçidinin təmin olunmasına baxmayaraq, Ermənistan tərəfi ərazilərimizdə qeyri-qanuni fəaliyyətini davam etdirmək məqsədilə, bölgədə saxta "gərgin humanitar vəziyyət" barədə iddialar yayıb. Eyni zamanda, 15 iyun tarixində sərhədçilərimizin atəşə tutulması, qaçaqmalçılığa cəhd edilməsi, yük avtomobillərinin 26 iyul tarixində Azərbaycan ərazilərinə icazəsiz göndərilməsi kimi təxribatlar törədib.

Bütün bu təxribatlara baxmayaraq, Azərbaycan tərəfi BQXK tərəfindən erməni sakinlərin keçidinə şərait yaradır.

Azərbaycanın suveren ərazilərində yaşayan erməni sakinlərin ehtiyaclarının qarşılanması məsələsinə gəldikdə isə bunun üçün Azərbaycan tərəfindən "Ağdam–Xankəndi" yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla, bir sıra təkliflər irəli sürülməsinə və onların Avropa İttifaqı, BQXK tərəfindən dəstəklənməsinə baxmayaraq, erməni tərəfinin bu təkliflərə qarşı çıxması, alternativ yollara beton maneələr düzməklə əraziyə girişi bloklaması "humanitar vəziyyət" barədə iddialarının siyasi şantaj və manipulyasiya olduğunu bir daha göstərib.

Azərbaycan, hazırda bölgədə davamlı sülh və təhlükəsizliyin təmin edilməsi üçün səy göstərir və bu məqsədlə sülh sazişi, delimitasiya, kommunikasiyaların açılması istiqamətində təşəbbüslər irəli sürüb. Bu səyləri dəstəkləmək əvəzinə qərəzli bəyanatlar verilməsi prosesə müsbət təsir etməyəcək.

# ABŞ Azərbaycan və Ermənistan arasında sülh razılaşmasına çalışır

**ABŞ Azərbaycan və Ermənistanla sülh razılaşması əldə etmək üçün çalışmağa davam edəcək.**

Bu barədə ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller brifinqdə bildirib.

"Biz bu ölkələrlə birbaşa əlaqə saxlamışıq. Xüsusi elçi Lui Bono keçən həftə bölgəyə səfər edib və tərəflərlə birbaşa əlaqə saxlayıb. Hesab edirik ki, bu məsələnin tərəfi olmayan digər ölkələrin hər hansı şərhinə baxmayaraq, sülh razılaşması əldə edilə bilər və buna nail olmaq üçün tərəflərlə işləməyə davam edəcəyik", - deyə o qeyd edib.

---

### "Xalq TV"nin qonağı

# Din və mənəvi irsimiz

**Görkəmli şərqşünas və islamşünas, müstəqil Azərbaycanda dövlət dini işlər komitəsini formalaşdırmış ziyalı, "İRŞAD" İslam Araşdırmaları Mərkəzinin direktoru, fəlsəfə elməri doktoru Rafiq Əliyev "Xalq TV"-yə müasir dövrdə din və irsimiz barədə müsahibə verib. Müsahibəni oxuculara təqdim edirik.**



***–Rafiq müəllim, Türkiyədən gəlmiş Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Fikrət Türkmənlə türklərin tarixində İslam və türklərin İslamı barədə söhbət apardıq. Fikrət müəllim türklərin tarixində İslamın önəmli yer tutduğunu vurğuladı və türklərin İslam anlayışının nə qədər dərin olmasını təsdiqlədi. Bu barədə nə deyə bilərsiniz?***

– Əlbəttə, türklərin tarixində İslam mövzusuna toxunuruqsa, deməliyik ki, İslamla türklərin qarşılıqlı əlaqələri onların biri-birinin mövcudluğunu təsdiq etmişdir. Əgər türklər İslamı uzun müddət saxlayıb, onu yeni nəslə ötürübsə, eyni zamanda, İslam da türklərə böyük bir imperiyanı – Osmanlı dövlətini qurmaqda kömək edib. İslam tarixinin əvvəlindən, Məkkədə aparılan tikinti-quruculuq işlərindən başlayaraq, əksər mərhələlərdə türklərin böyük rolu olub. Bu isə onların iman sahibi olmalarından irəli gəlib. Türklər bütün tarixi dövrlərdə inanclı olub, hələ İslamdan öncə də Göy Tanrıya sitayiş ediblər.

Ümumiyyətlə, türklərin İslama bağlılığının müsbət cəhətləri özünü onların qurduqları Osmanlı imperiyası daxilində göstərib. Belə ki, digər imperiyalardan fərqli olaraq Osmanlı imperiyası daha çox ədalətli qərarları ilə tarixdə qalıb. Osmanlı yolunun, ideologiyasının əsasını məhz İslam dini və qaydaları təşkil edirdi. Osmanlı imperiyası dağıldıqdan sonra yüksək əxlaqi və mənəvi dəyərləri özündə birləşdirən dövlətin tərkibindən çıxmış xalqlar uzun müddət öz ideologiyalarını formalaşdırmaqda çətinlik çəkdilər.

Osmanlıdan sonra onun varisi olan Türkiyədə İslam dini və ənənələri yenə də qorunub saxlanıldı. 1923-cü ildə imperiya buraxılandan sonra yeni yaranan Türkiyə dövlətində İslam dininə həssas münasibət ortaya qoyuldu. Din-dövlət münasibətləri tənzimləndi. Belə ki, din, dini məktəb və mədrəsələr dövlətdən ayrıldı. Bütün bu işləri Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürk həyata keçirdi. O, 1931-ci ilədək türk xalqının və dövlətinin yeni ideologiyasını formalaşdırdı. O dövrə kimi, demək olar ki, türkçülük ideologiyası yox idi. İmperiya daxilindəki xalqların hər birinin ideologiyası özünəxas xüsusiyyətlərə malik idi. Atatürkün əsasını qoyduğu türkçülük ideologiyasının üstünlüyü əsrlərdən bəri xalqın inanc yeri olan İslamla türkçülük ideologiyası əsasında vahid və sağlam bir yol seçməkdə idi. O, dini dövlətdən ayırsa da, elə bir xətt təyin etdi ki, İslam bu gün də yaşayır. Ortaya çıxan türkçülük ideologiyası isə İslam ənənələri əsasında inkişaf edir.

***Tarixdə İslama siyasi müdaxilələr ölkəmizi də sünni və şiə deyilən bölgələrə ayırıb. Lakin bu ideya o qədər də uğur qazanmayıb və Azərbaycan mentalitetində oturuşmayıb. Bir qədər də bu barədə.***

– Deyə bilərəm ki, biz azərbaycanlılar İslama çox inanan və ona bağlı olan xalqıq. Əslində, şiə və sünni məsələsi müəyyən dövrlərdə, xüsusən də, XVI əsrdə daha çox körüklənib. Lakin Azərbaycan xalqı bu təhlükəli meyllərdən hər zaman uzaq olub. Bizdə radikal düşüncə heç zaman kütlə düşüncəsinə hakim kəsilməyib. Yəni, dövlət və din münasibətləri bütün dövrlərdə sabit şəkildə təşəkkül tapıb. Bu gün də ölkəmizdə fanatizm, demək olar ki, yox dərəcəsindədir. Kənardan ölkəmizə din pərdəsi adı altında İslamın hansısa radikal meyllərini sırımağa çalışan qüvvələrin də qarşısı dövlətimiz tərəfindən qətiyyətlə alınır.

Onu da qeyd edim ki, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə azərbaycançılıq və türkçülük ideologiyasının əsası qoyulmuş oldu. Ulu öndərin yürütdüyü uğurlu siyasət nəticəsində dövlət və din münasibətləri daha yüksək səviyyədə tənzimləndi. Bu gün də ölkəmizdə həmin siyasət uğurla davam etdirilir.

***–Necə bilirsiniz, Qərb ideoloji dairələrini İslamda qorxudan nədir ki, onlar müqəddəs dini aşağılamağa və gözdən salmağa çalışırlar. Təəssüflər olsun ki, artıq ayrı-ayrı ölkələr də bunu dövlət siyasətinə çevirməyə başlayıblar. İslamafobiyanın kökündə nələr durur?***

–Hazırki vəziyyətdə Qərbin özünün İslama olan münasibəti çox qarışıqdır. Bu da onların İslamın mahiyyətini tam anlamamasından və dərk etməməsindən irəli gəlir. Xatırlayırsınızsa, bir neçə il bundan öncə Sorbon Universitetinin professorlarından biri Bakıya qonaq gəlmişdi. Bizimlə söhbətində etiraf etdi ki, Fransada 6 milyon müsəlman yaşayır. O, həmin müsəlmanlara nə qədər sosial və humanitar yarıdımlar etdiklərini bildirsə də, həmin İslam kəsiminin beyinlərinə və düşüncələrinə təsir göstərə bilmədiklərini təəssüf hissi ilə qeyd etmişdi. Ona izah etdik ki, siz onların dninə, inancına qətiyyən toxunmayın. Çünki onların imanını əllərindən alsanız, bu, çox mənfi fəsadlara gətirib çıxara bilər.

Qərbin İslamdan qorxmasının digər amillərindən biri isə İslam aləmindəki inkişafdır. Qərbdə artıq inkişaf dayanıb. Kapitalizm quruluşunun sonu çatır. Onlar yenidən sosializm quruluşunun və sosial cəmiyyətin daha üstün cəmiyyət olduğunu dərk etməyə başlayırlar. Hətta son illər Fransada kapitalizm sisteminin yeni sistemlə əvəzlənməsi məsələsi gündəmdədir. Mən hətta bir neçə il əvvəl "Kapitalizmsiz Avropa" adlı bir kitab da yazmışam. Onlar həmin kitabdan müəyyən şüarlar da çıxararaq istifadə ediblər.

Ümumiyyətlə, İslamın üstünlüyü bu dinin xeyirxahlıq və sülh, əmin-amanlıq dini olmasıdır. Mənəviyyat, mədəniyyət dövlətçiliyin saxlanılmasında ən əsas amillərdəndir. Din mədəniyyətin bir hissəsidir. Dinin içərisində böyük bir mənəvi dünya var. Əgər biz bunları düzgün uzlaşdıra bilsək, onda cəmiyyəti də hər zaman doğru yola çıxara bilərik.

***Söhbəti qələmə aldı:***
***Tahir AYDINOĞLU, "Xalq qəzeti"***

---

### Replika

# "Məzlum ən böyük zalımdır"

## İnsanlığa qənim kəsilənlərin Şeytana qulluq etməsi qətiyyən təəccüblü deyil

**Sərlövhəyə çıxardığımız aforizm mollanəsrəddinçi məşhur yazar Ömər Faiq Nemanzadənin 1917-ci ildə qələmə aldığı məqalədəndir. Doğulub-böyüdüyü mühitə, çəkdiyi əzablara, bütövlükdə, keçmişinə nifrət edən məzlumun xislətindən bəhs edən sosial-psixoloji pritçadır.**

Müqayisə bir qədər qüsurlu görünə bilər, amma yüz ildən artıqdır özlərini "əzabkeş", "məhrumiyyətlərə düçar olan", "döyülən-qovulan xalq" sayan ermənilərin pakistanlı qardaşlarımızın faciəsinə bunca qeyri-insani münasibətinin başqa cür izahını tapa bilmədik.

Pakistanda 30 nəfərin həyatını itirdiyi dəhşətli qatar qəzasından sonrakı video-görüntünü də "şərhinə" əlavə edən "baqramyan26" sosial şəbəkə istifadəçisinin faciəyə ironiyalı reaksiyasına fikir verin: "Bütün bədbəxtliklərin baiskarı Pakistan qatarlarıdır! Axı onlar özlərinin atom bombası ilə fəxr edərək uzun və xoşbəxt həyat yaşaya bilərdilər. İntəhası, onlar bir dəfə də olmadıqları Ermənistanı məhv etməyi arzulayırdılar. Üstəlik, Afinada "Greek City Times"-ın bürosunun şefi Pol Antonopulosu öz tərəflərinə çəkməyə cəhd edirdilər. Amma bu zaman məlum oldu ki, Pakistanın hələ ...qatarları da var. Başsağlığımızı qəbul edin".

Yox, biz içi çirkabla dolu erməninin səviyyəsinə enib, ona özünün "yarımvəhşi ampluasında" cavab vermək istəyindən uzağıq. Sadəcə olaraq, bircə onu xatırlatmağı lazım bilirik ki, özgənin faciəsinə sevinən, hüznlü məmləkəti lağa qoyan "baqramyanlar" bununla həm də biz Azərbaycan türklərinin bostanına daş atdıqlarını düşünürlər. Nəinki bəşəri qanunlarla, hətta cəngəllik qaydaları ilə bir araya sığmayan belə davranışları ilə haylar əyri burunlarının yanındakı əfi ilan, hiyləgər tülkü gözlərilə daim İblisə təzim etdiklərini, Şeytanın qulluğunda dayandıqlarını bütün dünyaya nümayiş etdirmiş oldular. Özlərini tanımayanlara tanıtdılar. Bu mənada, həmin "baqramyan26" həmcinslərinə "ayı xidməti" göstərmiş oldu.

Zalımın, qəddarın zülmündən qurtarmaq zaman məsələsidir. Amma, bu, xroniki mərəzə, sağalmaz xəstəliyə çevriləndə dünyanın bütün hüri-mələkləri bir yerə toplaşsa da, çarəsiz qalacaq. Necə deyərlər: Qozbeli qəbir düzəldər...

***İ.HƏSƏNQALA,***
***"Xalq qəzeti"***

Tarix unudulmur

# Nüvədiyə son səfər

## Bu qəhrəman kənddən sonuncu azərbaycanlının çıxarılmasından 32 il ötür

**Qədim Oğuz yurdlarını hiyləgərliklə, hissə-hissə ələ keçirən erməni daşnaklar ötən əsrin sonlarında öz məkrli planlarını bütün Göyçə–Zəngəzur boyunca davam etdirir, oradakı Azərbaycan kəndlərində həmyerlilərimizə divan tutur, onları dədə-baba torpaqlarından didərgin salırdılar. Təkcə Meğri rayonunun Nüvədi kəndinə 1991-ci ilin yayına kimi güc gələ bilməmişdilər.**



Üç il yarımdan da artıq – 1988-ci ilin əvvəllərindən 1991-ci ilin avqust günlərinə kimi Ermənistandakı heç bir Azərbaycan kəndində bir azərbaycanlı belə qalmadığı halda, Bakıdan ciddi bir köməyi olmayan silahlı təzyiqlərə belə mətinliklə sinə gərirdilər. Bu kəndin sakinləri dağlar kimi qürurlu, qayalar kimi sərt olduqları üçün dözüb dururdular. Nüvədinin Bakıda, respublikamızın digər şəhər və rayonlarında yaşayıb-çalışan vətənpərvər oğulları da kəndlə əlaqəni üzmür, bütün mümkün köməklikləri edirdilər. Kənd camaatı dar ayaqda qonşu Zəngilanın köməyinə arxalanırdı. Və kənd, çətin də olsa, öz gündəlik həyatını yaşayırdı.

Onda hələ rus hərbçiləri də erməni fitvasına tam uymamışdılar. Hətta onlardan biri – 19 yaşlı leytenant Yevgeni Yurçenko silahlı haylara qarşı mübarizədə nüvədililərə kömək edərkən igidliklə həlak olmuşdu. Kənd camaatı onu elə Nüvədidə ehtiramla torpağa tapşırmışdı.

Lakin 1991-il avqustun ilk günlərindən Nüvədi ilə bağlı Ermənistan rəhbərliyinin hərbçilərə təzyiqi artmışdı. O zamankı prezident Levon Ter-Petrosyan "hərbçilərin Nüvədidə saxlanmasının heç bir hüquqi əsası olmadığını" bildirərək, Ermənistanda azərbaycanlıların yaşadığı bu sonuncu kənddən hərbi bölmələrin çıxarılmasını tələb etmişdi.

Bizə – o vaxtkı respublika qəzetlərinin Dağlıq Qarabağ mövzusunda yazan müxbirlərinə heç bir izahat vermədən təcili olaraq Ermənistanın cənub sərhədi yaxınlığında yerləşən Zəngilana getməyimiz, avqustun 7-də isə mütləq Nüvədidə olmağımız tapşırıldı. Avqustn 6-da Bakı–Şərur qatarında (o zaman "Noraşen" qatarı adlanırdı) Zəngilana yola düşdük. 9 nəfər idik – Tahir Məmmədov ("Həyat" qəzetinin müxbiri, erməni dilini yaxşı bilən Qafar Çaxmaqlı ("Kommunist"in müxbiri), Söhbət Məmmədov ("Bakinski raboçi" qəzetinin şöbə müdiri), Zemfira Əmiraslanova ("Respublika" qəzetinin əməkdaşı), foto-müxbirlər Rafiq Nağıyev, Sadıq Həşimov, daha iki müxbir (indi xatırlaya bilmirəm) və mən. Ertəsi gün səhər saat 6-ya yaxın Mincivan stansiyasına çatdıq və təsadüfi yol maşınları ilə Zəngilan rayon mərkəzinə yollandıq. Hökmən raykomun 1-ci katibi ilə görüşməli və onun göstərişi ilə ayrılacaq maşınlara minərək, müşayiətçilərlə Nüvədiyə getməli idik.

Katibin Zəngilandakı və Nüvədidəki vəziyyətlə bizi tanış etməsindən sonra xüsusi göstəriş verilsə də, rayon milis şöbəsi bizim üçün maşın ayrılmasını yubadırdı. Şöbəyə gedib, "hay-küy" salmalı olduq. Orada öyrəndik ki, gecikmənin səbəbi benzinin olmamasıdır. Bu, əsl etinasızlıq və məsuliyyətsizlik idi.

Biz ilk dəfə görəcəyimiz Nüvədi, onun qeyrətli sakinləri ilə bağlı anbaan nigarançılıq keçirir, lakin bununla belə Zəngilanda yubanır, vaxt itirirdik. Yaranmış məcburi vaxt boşluğundan istifadə edib, jurnalist dostum Tahir Məmmədovla birgə bizi Bakıdan çıxandan bəri narahat edən başqa bir mühüm problemi həll etməyə çalışdıq. Məsələ onda idi ki, bizim "ekspedisiya"mızda yeganə qadın jurnalist olan Zemfira xanımın Nüvədiyə getməsini istəmirdik. Axı, ermənilərə əsir düşə bilərdik. Rayon rəhbərliyindən xahiş etdik ki, öz adından ona Nüvədiyə getməməyi, Zəngilanda qalmağı məsləhət görsün. Lakin katibin, milis rəisinin, hətta DTK rayon şöbəsi rəhbərinin bölgədə vəziyyətin çox gərgin olduğunu bildirmələrinə və dönə-dönə xahiş etmələrinə baxmayaraq, Zemfira xanımı fikrindən döndərmək mümkün olmadı. İsrarla gedəcəyini bildirdi.

Bir neçə saatdan sonra (nəhayət ki, benzin tapmaq mümkün olmuşdu...), günortadan keçmiş Nüvədiyə yollandıq. Hər an erməni silahlılarına rast gələ bilərdik. Xoşbəxtlikdən, bu, baş vermədi və Zəngəzur dağlarının istəkli bir övlad kimi qoynuna aldığı Nüvədiyə yaxınlaşdıq. Hərbi postda keşik çəkən sovet əsgərləri maşınlarımızı dayandırıb, yoxladılar və silah-sursat aparmadığımıza əmin olduqdan kəndə girməyimizə icazə verdilər.

Bu da Nüvədi! (Bəlkə də fizika ilə məşğul olan hansısa bir alim vaxtilə bu kəndi Yer kürəsinin nüvəsinə bənzədərək deyib ki, bu kənd sanki nüvədi. Və kəndin adı qalıb Nüvədi).

Dağlar qoynunda, daşlar-qayalar üzərində ucalan, bütün ab-havası, görünüşü ilə qədim Oğuz yurdu olan, ensiz bir zolaqla uzanan bu kəndin heç yerdə rast gəlinə bilməyən mənzərəsi hamımızı valeh edir. Sakitlikdir. Kənd camaatı özünün gündəlik qayğıları ilə məşğuldur. Yol boyu bizi gülərüzlə qarşılayır, qonaqpərvərliklə "xoş gəlmisiniz!" deyərək, görüşüb-söhbət etməyə çalışır, "o tərəflərdə" Nüvədi ilə bağlı hansısa mühüm qərarın olub-olmadığı ilə maraqlanırlar.

Jurnalist dostlarımızla qərara alırıq ki, hərə bir yana dağılaşaraq, ayrı-ayrı adamlarla görüşsün. Kəndin ortası ilə ora-bura qaçışan uşaqlar, təndirə çörək yapan qadınlar, çomağa söykənərək dağların döşündə qoyun-quzu otaran qocalar sanki erməni daşnaklarını heç veclərinə də almırdılar. Hərə öz işində idi.

Hətta kəndin ağsaqqallı, 1941–45-ci illər müharibəsinin odundan-alovundan çıxmış 86 yaşlı Səhlalı kişi Əliyev bu gün evin damına qalxaraq, iki gün əvvəl ermənilərin "Alazan" raketi ilə dağıtdığı çardağın üstünü qaydaya salmaqla məşğul idi – ömür sürüb-yaşadığı bu kəndi nə vaxtsa həmişəlik tərk edəcəyini ağlına belə gətirmirdi...

Bir gün öncə gecə yarısı daşnaklar "Güllübəyim ənciri" deyilən istiqamətdən kəndə bir-birinin ardınca 20-yə qədər raket atmışdılar. Yaxşı ki, insan tələfatı olmamışdı. Raketlər kəndə şığıyarkən Səhlalı kişi evinin ikinci mərtəbəsində yatırmış. Cəld həyətə düşüb. Yalnız səhərə yaxın hava işıqlananda yuxarı qalxıb və yorğan-döşəyinin dəlik-deşik olduğunu görüb.

Kənd məktəbinin direktoru Cəlal müəllim qeyd edir ki, son günlər ermənilər, guya, onların qayğısına qalaraq, vertolyotlarla kəndin üzərindən yaydıqları vərəqələrdə daşnak hiyləgərliyi ilə nüvədililərdən heç yerə köçməmələrini "xahiş edir", onlara Ermənistanın "tam hüquqlu" vətəndaşları kimi "firavan" yaşamaları üçün hər cür təminat verəcəklərini, seçkili orqanlarda, hüquq-mühafizə sistemində işləmələri üçün bütün mümkün şəraiti yaradacaqlarını vəd edirlər. Və bunun Ermənistanın şəhər və kəndlərində 100 minlərlə azərbaycanlının didərgin salınması fonunda nə qədər ikiüzlü, iyrənc bir təklif olduğunu başa düşməmək qeyri-mümkün idi.

Bir-neçə gündən sonra kənddə toy olmalı idi və nüvədililər bizə bir-iki gün kənddə qalmağı təklif etdilər. Ancaq biz geri qayıtmalı idik. Xahiş etdilər ki, heç olmasa, təzə bişirilmiş yuxa ilə pendirə qonaq olaq. Ləzzətlə pendir-lavaş, üstündən Nüvədinin sərin bulaq suyundan içərək, yola düzəldik.

Kənddən bir qədər aralanmışdıq ki, iki tank yolumuzu kəsdi. Əllərində Kalaşnikov avtomatları tutmuş hərbçilər bizə maşınlardan düşməyi və sənədlərimizi təqdim etməyi əmr etdilər. Bunlar əvvəlki hərbçilər deyildi, maşınları və üst-başımızı diqqətlə yoxladılar. Yaranmış gərgin vəziyyətdən birtəhər çıxa bildik.

Yalnız geri qayıdarkən yolda bildim ki, bizi müşayiət edən maşınların hər ikisində ehtiyat silahımız var imiş. Yaxşı ki, tapmamışdılar.

Yalnız bir-neçə gün sonra Nüvədidən olan bir nəfər bizə bildirdi ki, biz kənddən çıxandan 20-25 dəqiqə sonra haradansa hərbi postun yaxınlığında erməni "boyevikləri" peyda olubmuş". Onlar bizi girov götürmək üçün gəliblərmiş, ancaq gecikmişdilər...

Zəngilana çatar-çatmaz bizə məlumat verildi ki, Azərbaycan KP MK-nın ikinci katibi, 1990-cı ildən etibarən Dağlıq Qarabağ üzrə Təşkilat komitəsinin rəhbəri olan Viktor Polyaniçkonun hərbçilərlə və Nüvədi kəndinin başbilənləri ilə görüşündə biz jurnalistlər də iştirak etməliyik (Sən demə, bizim təcili olaraq Zəngilana, Nüvədiyə ezam olunmağımızın əsas məqsədi bu imiş).

Görüş zamanı V.Polyaniçko kəndin qorunması ilə bağlı qəti tapşırıqlar verdi. Son göstəriş bu oldu ki, kənddən bir nəfər də çıxmamalı, köçməməlidir.

Ancaq təəssüf ki, elə həmin gün gecə saat 4-də hansı "sehirli əl" iləsə əvvəlcə hərbçilər, onların ardınca isə köməksiz qalan kənd camaatı Nüvədini həmişəlik olaraq tərk etdilər.

Nüvədidən qayıtdıqdan sonra mənim "Nüvədinin acı taleyi" adlı geniş məqaləm "Vışka" qəzetində dərc edilmişdi. Qəzetin o vaxtkı redaktoru Yuri İvanov mövzunun həmin dövr üçün mühüm əhəmiyyətini nəzərə alaraq, "Təcili ezamiyyət" rubrikası ilə qəzetin ilk səhifəsində yerləşdirmişdi. Redaktorun həmin yazıda mənim sovet hərbçiləri, hüquq-mühafizə orqanları və digərləri ilə bağlı ittihamlar səsləndirdiyim hissələri də ixtisar etməyib saxlaması onun da bir Azərbaycan vətəndaşı kimi bu yurdun təəssübkeşi olduğunu təsdiq edirdi.

Beləcə, aramızda olan yeganə qadın jurnalist – Zemfira Əmiraslanova ilə bərabər Nüvədiyə gedib sağ-salamat qayıtrdığımız o günlərdən 32 il ötür. Düzdür, sonra Nüvədi də əlimizdən çıxdı, amma indi artıq biz Qarabağı və Şərqi Zəngəzuru azad etmiş qalib xalqıq. Qarşıda Qərbi Zəngəzurun, o cümlədən də Nüvədinin xilası durur.

***Rəhman ORXAN,***
***Əməkdar jurnalist***

# Şuşa "Merlər sülh naminə" hərəkatına qoşulur

**Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov Yaponiyanın Xirosima şəhərinin nüvə silahı ilə bombalanmasının 78-ci ildönümü münasibətilə həmin şəhərdə keçirilən tədbirdə iştirak edib.**



Prezidentin xüsusi nümayəndəsini tədbirdə Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə müşayiət edib.

Sülh Memorialı Parkında keçirilmiş tədbirə Yaponiyanın Baş naziri Fumio Kişida, müxtəlif ölkələrdən olan rəsmilər qatılıblar.

Tədbirdən əvvəl şəhər meri Kazumi Matsui ilə xüsusi nümayəndə Aydın Kərimov arasında görüş keçirilib, Xirosimanın merinə Şuşa şəhəri haqqında məlumat verilib. Eyni zamanda, Aydın Kərimov və Kazumi Matsui Şuşa şəhərinin "Merlər sülh naminə" hərəkatına qoşulmaq niyyəti barədə fikir mübadiləsi aparıblar.

Görüşün sonunda Kazumi Matsuiyə Şuşa şəhəri ilə bağlı xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, "Merlər sülh naminə" hərəkatının əsası 1982-ci ildə Xirosima şəhərinin həmin vaxt meri olan Takeşi Arakinin təşəbbüsü ilə BMT-nin Baş Assambleyasının iclasında qoyulub.

Hərəkat 1991-ci ildə QHT olaraq BMT İqtisadi və Sosial Təşkilatında (ECOSOC) qeydə alınıb. Hazırda şəbəkənin 166 ölkədən 8271 şəhər üzvü var.

***"Xalq qəzeti"***

SOSİAL HƏYAT

# Həssas qrupdan olanlara daha 100 mənzil və fərdi ev verilib

**Şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə Bakı və bölgələrdə daha 100 mənzil və fərdi ev verilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumatda bildirilir. Qeyd olunur ki, mənzillərin təqdim edilməsində Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, nazirliyin aparat rəhbəri Fuad Musayev iştirak ediblər.**



Tədbirlərdə nazirliyin məsul şəxsləri qeyd ediblər ki, şəhid ailələri və müharibədə əlilliyi olanların mənzillə təminatı proqramına ümummilli lider Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanıb və bu iş ildən-ilə uğurla davam etdirilir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi əsasında bu proqram 5 dəfə genişlənib.

Avqustun 6-da Bakı və 15-ə yaxın rayonda daha 100 mənzil və fərdi ev təqdim olunub. Beləliklə, yeni verilən mənzil və fərdi evlər də daxil olmaqla postmüharibə dövründə 5 min 100, bu il 600, ümumilikdə, ötən dövrdə 13 min 900 mənzil və fərdi ev şəhid ailələrinə və müharibə əlillərinə təqdim edilib.

Tədbirdə, həmçinin şəhid ailələri və müharibə iştirakçılarının sosial təminatının gücləndirilməsi, məşğulluğunun təminatı, reabilitasiya xidmətləri ilə əhatə olunmaları və s. istiqamətlərdə həyata keçirilən ardıcıl dəstək tədbirlərindən də bəhs olunub.

Şəhid ailələrinin üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər daim diqqət və qayğı ilə əhatə olunduqlarına, yeni mənzil və fərdi evlərlə təminata görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# 700-dən çox əlilə səyyar xidmət

**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzləri tərəfindən indiyədək 723 nəfər əlilliyi olan şəxsə səyyar reabilitasiya xidmətləri göstərilib.**




Mərkəzlər tərəfindən səyyar formada göstərilən reabilitasiya xidmətlərinə həkim və psixoloq müayinəsi, loqoped seansı, müalicəvi masaj, müalicəvi bədən tərbiyəsi, eləcə də, əmək terapiyası daxildir. Əlilliyi olan şəxs və ya onun qanuni nümayəndəsi nazirliyin "142 – Çağrı Mərkəzi"nə yaxud yaşayış yeri üzrə Tibbi-Sosial Ekspert Komissiyasına müraciət edib səyyar xidmətdən yararlana bilərlər.

Belə ki, hər hansı müraciət edənin reabilitasiya potensialını müəyyən etmək məqsədi ilə müvafiq mərkəzin ixtisaslı həkim və psixoloqlarından ibarət səyyar briqada tərəfindən onun yaşadığı ünvanda ilkin müayinə və qiymətləndirilmə aparılır, diaqnoz və göstərişlərə uyğun olaraq səyyar xidmətə dair rəy verilir. Vətəndaşın faktiki vəziyyəti səyyar xidmətə cəlb edilən diaqnozlara uyğun olduğu halda mütəxəssislər tərəfindən fərdi reabilitasiya proqramı tərtib edilir, prosedurların tarixi, sayı və müddəti göstərilir.

Səyyar xidmətin əsas məqsədi yaşayış yerini tərk etməkdə və nəqliyyatdan istifadədə çətinlik çəkən əlillərə evdə reabilitasiya xidmətinin göstərilməsi, reabilitasiya xidmətlərinə əlçatanlılığın artırılması, həmçinin, reabilitasiya prosesində əldə edilən nəticələrin davamlılığının təminatı, növbəliliyin azaldılmasıdır.

# Ukraynalı uşaqların reabilitasiyasına başlanıb



**Ukraynadakı vəziyyətlə əlaqədar zərərçəkən və Sosial Xidmətlər Agentliyinin (SXA) təşkilatçılığı ilə avqustun 4-də ölkəmizə gətirilərək düşərgələrə yerləşdirilən 30 ukraynalı uşaq mütəxəssislər tərəfindən müxtəlif reabilitasiya tədbirlərinə cəlb olunub.**

Bakı şəhərindəki düşərgədə uşaqlar üçün art-terapiya və peşəkar psixoloq tərəfindən fərdi konsultasiyalar təşkil edilib. Daha sonra uşaqlar üçün Bakı şəhərinə qısa tanışlıq turu təşkil edilib. Onlar İçərişəhər və Şirvanşahlar Sarayı Kompleksi, həmçinin Qız Qalası ilə tanış olmaq və burada maraqlı vaxt keçirmək imkanı əldə ediblər.

Növbəti günlərdə onların Bakı və bölgələrimizdə bir sıra qrup terapiyaları, meditasiya və yoqa məşğələləri, eyni zamanda, psixo-sosial təlimlər, ingilis dili kursları, milli rəqslər, həmçinin digər ustad dərslərinə cəlb olunması nəzərdə tutulur. Düşərgə iştirakçıları Şamaxı, Qəbələ, Şəki şəhərlərinin tarixi və görməli yerləri ilə də tanış olacaqlar.

SXA-nin mətbuat xidmətindən bildiriblər ki, 14 günlük sosial reabilitasiya proqramı çərçivəsində uşaqların emosional vəziyyətlərinin stabilləşməsinə, eləcə də cəmiyyətə inteqrasiyalarının təmin edilməsinə dəstək göstəriləcək.

***Zərifə HÜSEYNOVA,***
***"Xalq qəzeti"***

# SOS: Çimərliklərin tullantı problemi

**Abşeronda yaşayasan, qızmar yay günlərində əsrarəngiz Xəzərin qoynundakı çimərliklərə getməyəsən, bu, heç insafdan deyil. Amma oradakı şəraiti də görüb bura gəlməyinə peşman olursan.**

Təxminən 3-4 günün söhbəti olar. Rəfiqələrimlə birlikdə mən də həftəsonu evimizin yaxınlığındakı çimərliyə getdim. Bizim evdən dənizə 10-15 dəqiqəlik yoldur.

Dənizə çatmamış ilk gözümə çarpan ətrafın çirkliliyi oldu. Sanki dənizə yox, "zibilliyə" gəlmişdim. Ətrafa qarğıdalı, qarpız, yemiş qabıqları atılmışdı. "Bu camaat niyə istirahət etdiyi yerləri bu hala salır?" – deyərək düşündüm.

Hiss edirdim ki, çimərlikdəki antisanitariya heç kimin xoşuna gəlmir. Amma kimə sual versəydim ki, nə üçün buraları çirkləndirib korlayır, təbii ki, günahını boynundan atardı.

Bəs çimərlikləri bu hala salan kimlərdir? Bu sualı özümə verən an, gördüm ki, bir oğlan uşağı əlindəki qar-



pızın qabığını kənara tulladı. Dedim, uşaqdır, yəqin ki, valideynləri götürər. Gördüm ki, yox, heç ana-atası da oğullarından geri qalmırdılar. Kim nəyi yeyirdisə, qalıqları ətrafa tullayırdı. Buranı elə insanlar özləri çirkləndirmişdilər.

Bu gün Abşerondakı çimərliklərin ərazisində müxtəlif ticarət obyektləri, istirahət mərkəzləri fəaliyyət göstərir. Bir çox çimərliklərdən istifadə etmək ödənişlidir.

Əlavə pul ödəmədən istifadə edə biləcəyimiz "ümumi çimərliklər" əsasən yaşayış məntəqələrinə yaxın ərazilərdə yerləşir. Bu çimərliklərin isə sadəcə adı "ümumi"dir. "Pulsuz çimərlik" sözləri yalnız dildə qalır. Əməldə isə tam tərsinədir. Buradakı "besedkaların", stolların qiyməti özəl çimərliklərin ödənişindən heç də geri qalmır.

Bəli, pul verib gəl, amma "zibillikdə" üz. Təkcə sahillər deyil, dənizin içi də hər cür çirkabla doludur. Çimdiyiniz zaman müxtəlif tullantılarla rastlaşsanız, heç də təəccüblənməyin. Bir vaxtlar ən təmiz çimərliklərdən sayılan Şüvəlan çimərliyi də artıq əvvəlki gözəlliyini, təmizliyini itirir. Bunun səbəbkarı isə, təbii ki, bura nəzarət etməli olan qurumlardır və ecazkar Xəzərin qədrini bilməyən biz insanlarıq.

***Leyla HADİ,***
***tələbə-jurnalist***

# “TotalEnergies” və ADNOC “Abşeron” yatağında SOCAR-ın tərəfdaşı oldular



**SOCAR, “TotalEnergies” və ADNOC şirkətləri arasında “Abşeron” qaz-kondensat yatağında 30 faizlik iştirak payının satışına dair saziş imzalanıb. Bununla bağlı Dövlət Neft Şirkəti (SOCAR), “TotalEnergies” və Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) arasında keçirilən mərasimdə çıxış edən iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov sazişin əhəmiyyətini vurğulayaraq sənədin “Abşeron” layihəsinin gələcək inkişafında mühüm mərhələ olacağını bildirib. Azərbaycanın enerji sənayesinin ölkəmizlə yanaşı, regionun iqtisadi inkişafına da mühüm töhfə verdiyini diqqətə çatdıran nazir M.Cabbarov Azərbaycana xarici sərmayələrin daxil olmasında təbii resurslarla yanaşı, əlverişli investisiya mühitinin də xüsusi rol oynadığını qeyd edib.**

Beləliklə, satınalma proseduru tamamlandıqdan sonra ADNOC şirkəti Abşeron qaz-kondensat yatağında 30 faiz iştirak payı əldə edəcək, SOCAR və “TotalEnergies” şirkətlərinin hər birinin iştirak payı isə müvafiq olaraq 35 faiz müəyyənləşəcək.

Xatırladaq ki, ADNOC-un Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) hüdudlarından kənarda ilk investisiyanı ölkəmizə yatırması respublikamızda xarici sərmayədarlar üçün yaradılan əlverişli investisiya mühitinin növbəti təzahürüdür. Sazişin Azərbaycan və BƏƏ arasında strateji əlaqələri daha da gücləndirəcəyi və ölkəmizin etibarlı təbii qaz təchizatçısı kimi mövqeyinə dəyərli töhfə verəcəyi gözlənilir.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən “Abşeron” qaz-kondensat yatağının işlənməsi iki mərhələdə həyata keçirilir. İHS layihəsi çərçivəsində hazırda gündəlik 4,3 milyon kubmetr qaz və 1400 ton kondensat hasil olunur.

Yeri gəlmişkən, “Abşeron” yatağının ehtiyatı da daxil olmaqla Azərbaycanın təsdiqlənən qaz ehtiyatı 2,2 trilyon kubmetrdir. Ölkəmizin illik qaz ixracı isə 21 milyard kubmetr təşkil edir. Yaxın 5 il ərzində Azərbaycan bu həcmdə qaz ixracını 30-31 milyard kubmetrə qədər artırmağı planlaşdırır. Avropaya qaz ixracının isə 11 milyarddan 20 milyard kubmetrədək yüksəldilməsi proqnozlaşdırılır.

“Abşeron” qaz-kondensat yatağından çıxarılan “mavi yanacaq” mühüm önəm daşıyır. Çünki indiyə kimi, Azərbaycanın ixracla bağlı əsas qaz resursu “Şahdəniz” qaz-kondensat yatağı idi. Bu gün isə artıq ölkəmizə məxsus iki böyük qaz-kondensat yatağı var.

Prezident İlham Əliyev cari ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə çıxış edərək “Abşeron”un birinci fazasının artıq icra edildiyini və yaqın ki, SOCAR öz xarici tərəfdaşları ilə bu yatağın ikinci fazasının işlənməsi ilə bağlı tezliklə daha fəal danışıqlara başlayacağını vurğulayıb.

Onu da deyək ki, ölkəmizin qaz ehtiyatlarının həcminə görə, ikinci böyük yatağı olan “Abşeron”dan hasilatın başlanması ilə ixracın artırılmasına müsbət təsir göstərəcəyi proqnozlaşdırılıb. Ötən ayın 10-da Fransanın “TotalEnergies” şirkəti Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə əməkdaşlıq çərçivəsində Xəzər dənizində yerləşən “Abşeron” qaz-kondensat yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində təbii qaz hasilatına başlandığını elan edib.

SOCAR-dan verilən məlumata görə, “Abşeron” qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi sualtı hasilat quyusunu SOCAR-ın “Neft Daşları”ndakı mövcud qurğuları ilə əlaqələndirən qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. Qazın Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur.

JOCAP (Absheron Petroleum Birgə Əməliyyat Şirkəti) tərəfindən idarə olunan layihədə SOCAR və “TotalEnergies” hər biri 50 faiz paya malikdir. Xəzər dənizinin ilk məsafədən idarə olunan platforması olan Abşeron İHS layihəsinin qəbul platformasının idarətməsi “Neft Daşları”nda yerləşən mərkəzi idarəetmə məntəqəsindən həyata keçirilir.

Burada bir tarixi məqamı da xatırlatmaq istərdik. Belə ki, sözügedən yatağın işlənməsi üzrə hasilatın pay bölgüsü sazişi 12 il əvvəl imzalanmışdı. Həmin vaxtdan ötən dövr ərzində “Abşeron” qaz-kondensat yatağından hasilatın başalnması müddətində durğunluq yaranmış, yataqdan ilk qazın alınması ləngimişdi.

Mütəxəssislər bildirirlər ki, “Abşeron”dan hasil olunacaq “mavi yanacaq” əsasən, daxili tələbata yönəldiləcək. Bu isə “Şahdəniz”dən çıxarılan qazın daha çox həcminin ixraca yönəldilməsinə imkan yaradacaq. Yəni Azərbaycan bununla da Avropadakı müştərilərə vəd etdiyi həcmləri təmin etməklə üzərinə götürdüyü öhdəlikləri tamamilə gerçəkləşdirəcək.

Prezident İlham Əliyev bu məqamla bağlı deyib: “Bu yataqda 350–360 milyard kubmetr qaz ehtiyatları vardır. Amma mən hesab edirəm ki, daha çox olacaq. Çünki artıq bizdə olan təcrübə onu göstərir ki, ehtimal olunan resursların daha böyük resurslar üzə çıxır və 100 milyon ton kondensat. Bu da xam neftə bərabər olan bir məhsuldur və beləliklə, Azərbaycan bundan sonra da etibarlı qaz təchizatçısı olacaqdır. Onu da bildirməliyəm ki, “Abşeron”un birinci mərhələsində çıxarılacaq qaz daxili tələbatı istiqamətləndiriləcək. Çünki buna da ehtiyac var. Artan əhali, artan sənaye bunu tələb edir. İkinci mərhələdə çıxarılacaq qaz isə ixrac yolu ilə dünya bazarlarına çıxarılacaq. Çünki artıq bu yatağın tam işlənməsi mərhələli yollarla öz həllini tapacaq”.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*

**Ekspert rəyi**

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



Əbu-Dabi Milli Neft Şirkətinin (ADNOC) satınalma proseduru tamamlandıqdan sonra “Abşeron” qaz-kondensat yatağında 30 faiz iştirak payı əldə etməsi ilə Xəzər dənizinin ölkəmizin sektorundakı layihələrə yeni bir nəfəs və baxış formalaşdıracaq.

Azərbaycanın son 10 ildə ərəb ölkələri ilə əlaqələri genişlənməkdədir. ADNOC şirkəti Birləşmiş Ərəb Əmirliklərinin 90 faizdən çox neftini Əbu-Dabi Əmirliyində çıxarır. Belə bir şirkətin Azərbaycanda təmsilçiliyi isə qərblə şərq arasında yeni münasibətlərin formalaşmasına zəmin yaradır.

Respublikamızın indiyə qədər imzaladığı 40-a yaxın hasilatın pay bölgüsü və risk servis tipli müqavilələri çərçivəsində faktiki olaraq ərəb şirkəti yox idi. Bir vaxtlar Azəri-Çıraq-Güneşlidə yarı ərəb şirkəti olub, ancaq onlar da sonradan paylarını satıb gediblər.

“Abşeron” qaz-kondensat yatağı “Şahdəniz–2” kimi mürəkkəb geoloji struktura malikdir. Lakin “Şahdəniz-2” layihəsindən daha dərində yerləşir. Ona görə də “Abşeron” qaz-kondensat yatağında da manifold texnoloji üsulu ilə hasilatın həyata keçirilməsi gerçəkləşəcək. Bu isə çox bahalı layihədir. Bu baxımdan SOCAR və “TotalEnergies” yarıbayarı paya malik idilər. Onlar öz paylarından 15 faiz kəsib ərəb şirkətinə satışa çıxardılar. Bu, “Abşeron–2” layihəsi üzrə mümkün kapital yatırımında risklərin daha azaldılması mənasını verir.

Yeri gəlmişkən, “Abşeron” layihəsi çərçivəsində bir ildə maksimum 1,5 milyard kubmetr qazın hasil edilməsi planlaşdırılır. Bu qazın bütünlükdə Azərbaycanın daxili tələbatının ödənilməsinə yönəldilməsi qarşıda mühüm vəzifə kimi durur. Yatağın ikinci mərhələsində çıxarılacaq qazın isə xarici bazarlarda satılması və yaxın beş il ərzində bu perspektivin gerçəkləşməsi nəzərdə tutulur. Eyni zamanda, yatağın ikinci mərhələsində nə qədər qazın hasil olunacağlı ilə bağlı SOCAR və onun tərəfdaşı hazırda danışıqlar aparır.

Sonda qeyd edim ki, “Abşeron” çox mürəkkəb quruluşa malik qaz-kondensat yatağıd olaraq indiyədək Xəzər dənizində açılan və istismar edilən ən dərin hissədə yerləşir. Əgər “Şahdəniz” yatağı dənizin 550 metr dərinliyində yerləşirsə, “Abşeron” 600 metr dərinlikdədir. O cümlədən məhsuldar qaz layları əgər “Şahdəniz”də 6 min 800–7 min 100 metr dərinlikdədirsə, “Abşeron” yatağında bu 7 min 300 metr dərinliyə qədər uzanır. Ona görə, mürəkkəblik baxımından Xəzər dənizində indiyənədək hasilat gözlənilən ən mürəkkəb yataqdır.

**Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda bir sıra dəyişikliklər edilib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) sektor müdiri Təranə Salıfova bununla bağlı bildirib ki, sözügedən strategiyanın “Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə” bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi hədəflənir.**

# Əsas diqqət prioritet sahələrə yönəldilir



Dəyişiklikdən əvvəl müvafiq göstəricilər ümumi dövlət borcunun ÜDM-də payının 20 faiz, o cümlədən xarici dövlət borcunun ÜDM-də payının isə 10 faiz ətrafında saxlanması nəzərdə tutulmuşdu. Prezident İlham Əliyevin cari ilin ilk altı ayının sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə də qeyd etdiyi kimi, ötən dövr ərzində qoyulmuş hədəfə nail olunub, xarici dövlət borcumuz 6,7 milyard dollar təşkil etməklə ÜDM-in təxminən 10 faizini təşkil edib.

T.Salıfova bildirib ki, müvafiq dəyişikliklərdən irəli gələrək 2023-cü ilin ilk yarımili üzrə strategiyada nəzərdə tutulan tədbirlərin nəticə indikatorlarının illər üzrə bölgüsünü müəyyənləşdirən cədvəli yenidən nəzərdən keçirilməklə aralıq və yekun nəticə indikatorlarında da müvafiq dəyişikliklər öz əksini tapacaq.

Yuxarıda vurğulanan dəyişikliklər Azərbaycan Prezidentinin 2022-ci il 30 dekabr tarixli Sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022–2025-ci illər üzrə yenilənməsi çərçivəsi”ndə öz əksini tapıb.

Bununla yanaşı, çərçivə sənədində bir sıra əlavə dəyişikliklər də edilib. Belə ki, xarici dövlət borcunun qaytarılması ilə yanaşı, ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədi ilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi üçün 5 milyard ABŞ dollarınadək xarici borcun cəlb edilə biləcəyi qeyd olunub. Bu səbəbdən xarici dövlət borcunun ÜDM-yə nisbət göstəricisi (10 faiz) xarici dövlət borcunun nominal ifadədə təsbit olunan yuxarı hədd göstəricisi (10 milyard ABŞ dolları) ilə əvəz olunub.

Yeni dəyişikliyə əsasən, 2025-ci ilin sonuna xarici dövlət borcunun 7,1 milyard ABŞ dolları məbləğində, yəni, ÜDM-in 10,7 faizi həcmində olması gözlənir. Bununla belə, mövcud xarici dövlət borcunun qaytarılması, eləcə də ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi səbəbindən bu göstəricilərin dəyişəcəyi də istisna edilmir.

*“Xalq qəzeti”*

# Ağdam Sənaye Parkına 176 milyon manat investisiya qoyulacaq

**Azərbaycan İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına əsasən, həmin vəsait 19 rezident və 6 qeyri-rezident tərəfindən ayrılacaq. Həmçinin parkda 25 subyekt tərəfindən 1,7 min iş yeri açılacaq.**



Ağdam Sənaye Parkında qeydə alınan rezidentlər tərəfindən inşa edilən ilk müəssisənin bu il fəaliyyətə başlaması gözlənilir. Bununla da Azərbaycanın işğaldan azad olunan ərazilərində böyük sənaye istehsalı bərpa ediləcək. Sənaye parkında qeydə alınan rezidentlərin çoxu artıq tikinti işlərinə başlayıb.

İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına bildirilir ki, ümumi ərazisi 190 hektar olacaq sənaye parkının qurulması iki mərhələdə nəzərdə tutulub. Artıq əsas işlər birinci mərhələdə tamamlanmaq üzrədir. Hazırda sənaye parkında 17 rezident və 5 qeyri-rezident qeydiyyatdan keçib. Burada istehsal olunan məhsullar işğalçıdan təmizlənən rayonların əksəriyyətində aparılacaq tikinti-quraşdırma işlərində istifadə ediləcək, eyni zamanda, digər rayonlara göndəriləcək, həm də xaricə ixrac olunacaq.

Parkın prioritet sahələri tikinti materiallarının istehsalı, qida sənayesi, kənd təsərrüfatı məhsullarının emalı, gübrə istehsalıdır. Bir sıra layihələr dəyərləndirmə mərhələsindədir, qiymətləndirmə komissiyası tərəfindən nəzərdən keçirilir. Bu müəssisələr həm də bərpadan sonra şəhərə qayıdacaq sakinlərin işlə təmin olunmasında böyük rol oynayacaq.

*“Xalq qəzeti”*

# Ağdam–Xankəndi yolu separatçılara niyə sərf eləmir?

**(əvvəli 1-ci səhifədə)**

Hazırda yol əsasının və asfalt-beton örtüyünün 2 layının tikintisi başa çatıb. Layihədə nəzərdə tutulan yol qovşaqları və körpülər üzrə tikinti işləri, həmçinin magistral boyunca dairəvi suötürücü boru, düzbucaqlı su keçidi və zəruri yerlərdə yeraltı keçidlərin inşası tamamlanıb.

Beləliklə, layihə üzrə nəzərdə tutulan işlərin 88 faizi icra olunub. Yaxın müddət ərzində yeni yolun tikintisinin başa çatdırılması nəzərdə tutulub. Bunun üçün əraziyə lazımi sayda qüvvə cəlb olunub.

Bərdə–Ağdam avtomobil yolu işğalçıdan təmizlənən Ağdam şəhərinə qədər salınır. Magistralın ilk 14 kilometrlik hissəsi Bərdə şəhəri və rayonun bir neçə yaşayış məntəqəsindən keçir. Ümumilikdə isə yol Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, adları çəkilən rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edir.

Bununla yanaşı, Vətən müharibəsindən sonra başlanan tarixi Bərdə-Ağdam dəmir yolu xəttində də yenidənqurma işləri sürətlə aparılır. “Azərbaycan Dəmir Yolları” QSC-nin məlumatına görə, artıq uzunluğu 47,1 kilometr olan yolun 90 faiz layihələndirilməsi yerinə yetirilib. Uzunölçülü relslər 100 faiz quraşdırılıb, 128 mühəndis qurğusunun tikintisi başa çatdırılıb. Ümumilikdə tikinti işlərinin 70 faizi tamamlanıb və layihənin 2023-cü ildə yekunlaşdırılması nəzərdə tutulub.

Göründüyü kimi, Bərdə–Ağdam avtomobil və dəmir yollarının inşası sürətlə aparılır və hər iki infrastruktur tezliklə istismara veriləcəyi gözlənilir. Sözügedən tikinti prosesinə xüsusi əhəmiyyət verilməsi həm də Qarabağa böyük həcmdə digər yüklərin daşınması üçün Laçın yoluna alternativ kimi, Ağdam–Xankəndi marşrutunun önəmi ilə bağlıdır. Çünki əvvələ rəsmi Bakının təklif etdiyi və Brüsselin də dəstəklədiyi bu təşəbbüs Qarabağ iqtisadi zonasında yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının reinteqrasiyası prosesinə mühüm töhfədir. Digər tərəfdən, İrəvan və Qarabağ separatçı liderlərinin müqavimətinə baxmayaraq, Azərbaycanın dəstəklədiyi Ağdam–Xankəndi marşrutu ilə irihəcmli yüklərin daşınması daha sərfəlidir. Ona görə ki, Laçın sərhəd-buraxılış məntəqəsindən keçməklə Ermənistana və yaxud əks istiqamətə işğalçı dövlətin israr etdiyi yolla yük daşınması relyef baxımından əlverişsizdir. Hətta sövet dönəmində belə bu marşrutla iri həcmdə yüklərin daşınması üçün istifadə olunması xatırlanılmır. Bu yolla əlaqədar separatçıların təkidi isə müəyyən ölkələrdən qaçaqmalçılıq yolu ilə əldə olunan silah-sursatın Ermənistana daşınması, oradan isə Xankəndiyə “humanitar yardım” adı altında keçirilməsi məqsədi daşıyır.



Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, Ermənistan rəhbərliyi hələ də hər vəchlə Ağdam-Xankəndi yolundan istifadə etməkdən boyun qaçırır. Halbuki 26 kilometrlik bu yol müasir standartlara uyğun qurulmaqla yanaşı, bölgədə Xankəndinə ən qısa məsafə hesab olunur. Belə ki, Laçın–Xankəndi yolu 60 kilometrdir və bu marşrut Şərqi Zəngəzurla Qarabağı birləşdirir. Ümumiyyətlə, Ağdam–Xankəndi yolu Qarabağ iqtisadi rayonunda daxili şəbəkədir və bu baxımdan da vacib nəqliyyat xəttidir. Daxili nəqliyyat və logistik şəbəkə iqtisadi inkişaf üçün zəmin yaratdığından yolun intensiv istifadəsi əhəmiyyətlidir.

Deputatın fikrincə, əgər məqsəd Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərə humanitar yardım göstərməkdirsə, niyə Ermənistan siyasi hakimiyyəti daha qısa və müasir standartlara uyğun qurulan yoldan istifadədən imtina edir?

Bəli, ekspertlərin haqlı olaraq vurğuladıqları kimi, bu gün Ermənistandan Qarabağa irihəcmli yüklərin daşınması üçün ən səmərəli variant Qazax–Bərdə–Ağdam marşrutudur. Yazının əvvəlində göstərdiyimiz kimi, Bərdə-Ağdam avtomobil və dəmir yollarının sürətli bərpası da bu məqsədə xidmət edir. Yeri gəlmişkən, perspektivdə nəzərdə tutulan yol sovet dövründə olduğu kimi, Qazax-Bərdə-Ağdamdan sonra Əsgərana və buradan da mövcud dəmir yolu ilə Xankəndiyə qədər davam etdirilə bilər.

Təbii ki, Azərbaycanın əlverişlilik baxımından təqdim etdiyi digər marşrutlar da var. Məsələn, yüklər asanlıqla dəmir yolu ilə Gəncəyə çatdırılır. Buradan isə Ağdama məsafə 130 kilometrdir. Perspektivdə isə təcili yüklər Ağdam aeroportuna da daşına bilər. Ümumiyyətlə, bütün variantların Qarabağ ermənilərinin reinteqrasiyasına, elektrik enerjisi və təbii qaz təchizatının yaxşılaşdırılmasına, ticari-iqtisadi əlaqələrin qurulmasına müsbət təsiri şübhəsizdir.

Ermənistan rəhbərliyinin, ilk növbədə, Qarabağ separatçılarının Azərbaycanın bu planlarına qarşı çıxmaları isə, şübhəsiz ki, Laçın yolu ətrafında spekulyasiyaya yol açmaq istəklərindən irəli gəlir. Eyni zamanda, beynəlxalq ictimaiyyəti çaşdırmaq, hədəfdən yayındırmaq üçün Laçın yoluna yönəlmiş bütün cəhdlər Azərbaycan Ordusunu təxribata təhrik etmək məqsədi daşıyır.

*“Xalq qəzeti”*

# Arazın o tayından görünənlər

**1945-46-cı illərdə S.C.Pişəvərinin başçılığında Güney Azərbaycanda milli hökümətin qurulması tarixin gedişini dəyişən hadisələrdən olmuşdu. Cəmi bir il yaşamasına baxmayaraq, milli hökumətin sosial, mədəni və iqtisadi sahələrdə atdığı addımlar Güney Azərbaycan türklərinin oyanışında mühüm rol oynamışdı.**



S.C.Pişəvərinin müəmmallı şəkildə həlak olduğu 1947-ci ildə "Arazın o tayında" sənədli filmi ekranlaşdırılıb. Filmi Güneydə Muxtar Dadaşov çəksə də, quruluşçu rejissor Esfir Şub hesab edilir. E.Şub, həmçinin 1919-cu ildə Azərbaycan Cümhuriyyətinin bir illiyi münasibəti ilə çəkilən xronikanın rejissoru olmuşdu. Rus qadın rejissoru 2-ci dəfə Azərbaycan istiqlalı mövzusunda kino işinə rəhbərlik edirdi.

1946-cı ildə "soyuq müharibə"nin başlanması, ilk növbədə, Güney Azərbaycan insanının qədərini qaraltmışdı. Keçmiş SSRİ, ABŞ və İngiltərə arasındakı zidiyyətlər milli hökumətin yıxılmasına səbəb olmuşdu. Bu qəmli hekayət filmdə əksini əhatəli tapa bilməsə də, insanın ürəyinin sarı siminə toxunan məqamlar az deyil. Arazın xalqımızın taleyində oynadığı acı rol filmin başlanğıcında əksini tapır. Ekran əsəri xalqın keçmişi və bugününü imkan daxilində göstərə bilir.

Azərbaycanın tarixinə səyahət zamanı abidələrdən, ədəbiyyatdan bəhs edilərkən Şah İsmayıl Xətai xüsusən vurğulanır. Lakin "soyuq müharibə"nin amansız məntiqi burada da əksini tapır. Şah İsmayılın Türkiyə ilə müharibələr apardığı da diktor tərəfindən diqqətə çatdırılır (Bu fikirlər 1946-cı ildən Qərb blokunda təmsil olunan Türkiyəyə münasibətin ifadəsi idi).

Filmdə sosial motiv çox güclüdür. Qoca, cavan, uşaq bilmədən bütün güney insanlarının ağır şəraitdə çalışdığı göz önünə qoyulur. Güneyli uşaqların 14 saat kişmişqurutma müəssəsində çalışması dözülməz sosial vəziyyəti diqqətə çatdırır. Ərbabların xalqı istismar etməsi sosialist tərzdə qeyd olunur.Təbrizin xalqın tarixində əhəmiyyətli rolunun olduğu deyilsə də, onun bu gününün ağır olması paltarı cırıq uşağın obrazında əksini tapır. Film bu mesajı verir ki, o taydakı xalqımızın mübarizəsi sosial bərabərsizlikdən doğan hərəkatdır. Sözsüz ki, bu motiv sovet ideologiyasının kriteriyalarına uyğun idi.

Xalqın tarixi və bügünündən yetərincə məlumat verildikdən sonra siyasi proseslər işıqlandırılır. Səttərxan, Bağırxan və Xiyabanidən bəhs edilməsi Pişəvəri hərəkatının güclü təməllərinin




olmasının mesajını verir. Səttərxan bayrağı altında fədailərin silahlanması, insanların torpağı sərbəst əkib-becərməsi hərəkatın sosial xarakterini açan səhnələrdir. Hərbi gücün azadlıq hərəkatındakı rolu da xüsusi vurğulanır. Dünən məzlum, bu gün isə fədai olanların vətənpərlik hissi ilə silaha sarılmaları ekranda görünür.

Göründüyü kimi, "Arazın o tayında" güney insanının bütün xarakterini ortaya qoymağa cəhd edən filmdir. Novruz bayramında S.C.Pişəvəri və silahdaşlarının ziyafət təşkil etmələri xalqın qədim adətlərə bağlılığını sübut edir. Bahar bayramının Güney Azərbaycana yeni nəfəs gətirdiyini bu kadrlar ifadə edir. Sonradan faciəli həyat yaşayacaq Məhəmməd Biriyanın Azərbaycanla bağlı şeir oxuması Vətən hissinin tərcümanı olan səhnədir.

Milli Hökumət təkcə silahlanmaya deyil, həmçinin təhsilə, mədəniyyətə diqqət ayırmışdı. Xüsusən, qızların, qadınların yaşından asılı olmayaraq ana dilində yazıb-oxuma öyrənmələri diqqət çəkirdi. Gələcəkdə övladına başlanğıc bilgi verməli olacaq qadınların təhsilə yiyələnmələrinin həyati əhəmiyyəti vardı. Filmdə Təbriz universitetinin açılmasının əhəmiyyəti də göz önünə gəlir. Hüquqsuz, təhsilsiz qalmış Təbrizin savadlı kadrlar hazırlayacaq potensialda olması insana qürur hissi bəxş edir. Güneyli gənclərin, həmçinin musiqi və rəssamlıqla məşğul olmaları da onların aydın gələcəyindən xəbər verir. Milli Hökumətin "Ey Vətənim Azərbaycan" himninin ifası filmin ən ciddi mesajı kimi qəbul edilə bilər.

Bütün mütərəqqi addımlara baxmayaraq, irtica yaxınlaşmaqda idi. Filmdə bu narahatlıqlar Pişəvərinin başçılıq etdiyi komandanın Tehrana səfər etməsi kontekstində göstərilir. Milli Hökumətin süqutu filmdə Tehranla bağlanan əhdnamənin pozulması kimi təqdim olunub. Film bir növ Tehranın xəyanəti kontekstində baş verən milli faciənin təcəssümüdür. Təbii ki, milli hərəkatın yatırılmasında Qızıl Ordunun Güney Azərbaycandan xaincəsinə çıxmasının da rolu olmuşdu. Amma o dövrdə çəkilmiş filmdə bu məqama toxunula bilməzdi.

Kino lentlərdə Güneyin faciəsi Firudun İbrahimin, general Kəbirinin, Məhəmməd Agahinin həlak olması, ana dilində kitabların yandırılması müstəvisində öz əksini tapır. Faciədən bəhs edilməsinə baxmayaraq, ekran işi nikbin əhval-ruhiyyə ilə bitir. Səttarxan bayrağı altında mübarizənin davam etdiyi tamaşaçılara təqdim olunur.

Nəhayət, qeyd edək ki, 1947-ci il "təvəllüd"lü "Arazın o tayında" sənədli filmi Güney Azərbaycanda milli hərəkat haqqında qənimət sayılacaq bir kino salnaməsidir.

***M. CEYHUN***

# Hər park bir təbəssümdür, gəlin ona qıymayaq...

**Yay fəsli ilə əlaqədar adamlar dincəlmək üçün əsasən fərqli məkanlara - bölgələrə üz tutsalar da, buna imkanı olmayanlar yaşadıqları ünvanın yaxınlığındakı istirahət parklarına gedirlər. Yaşıllıqlar qoynunda – təmiz havada gəzişib söhbət etmək, kafe və restoranlarda əylənmək, sərin su içib, dondurma yemək özü də bir zövqdür.**

Belə məkanlardan biri də 4 il əvvəl əsaslı təmirdən sonra ölkə başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın açılışını etdiyi "Neftçilər" parkıdır. Suraxanı rayonu, Qaraçuxur qəsəbəsində yerləşən bu istirahət parkı 1982-ci ildə salınıb. Ümumi sahəsi 6 hektar olan ərazinin 4 hektarlıq hissəsində mədəniyyət və istirahət guşələri yaradılıb, qalan sahədə isə meşə zolağı salınıb, velosiped yolları çəkilib, işıqlandırma işləri görülüb. Bu istirahət məkanında "IDEA" İctimai Birliyinin layihəsi çərçivəsində uşaq idman meydançaları salınıb, trenajorlar, attraksionlar quraşdırılıb. Eyni vaxtda 100-ə yaxın ailə buradakı mövcud imkanlardan yararlana bilər.





Parkda neft buruğu rəmzi olan "Stella" abidəsi quraşdırılıb, Azərbaycanın Milli Qəhrəmanı Cavanşir Rəhimovun 1999-cu ildə qoyulmuş büstü bərpa edilib və ətrafı abadlaşdırılıb. Bundan başqa, parkda "Veteranlar guşəsi" və iaşə obyektləri yenilənib.

Biz parka günorta çağı getdiyimiz üçün orada dincələnlər az idi. Ətrafa nəzər saldıq. Yaşıllıq bol idi, müəyyən səliqə-sahman da vardı. Orada olan sakinlərə üz tutaraq, istirahətlərinin ürəklərincə olub-olmadığını soruşduq. Onların dediklərini qələmə aldıq.

**Mais Həmidov:**

– Parkın vəziyyətindən razıyıq. Dövlətimiz tərəfindən istirahət məkanlarının salınması, mövcud olanların yenilənməsi təqdirəlayiqdir. Lakin biz də gərək bunun qədrini bilək. Məsələn, bəzi vətəndaşlar uşaqlarını skamyanın üzərinə ayaqqabılı çıxarırlar, oturacaqlar bulaşır, sınır və s. attraksionlar və ayaqüstü yeyəcəklər bahadır. Bundan başqa, zibil qutuları da azdır.

**Şərif Qurbanəliyev:**

– Deyirlər ki, parklar şəhərlərin təbəssümüdür. Doğrudan da, belədir. Amma qazonun üzərinə necə gəldi çıxmaq, şirniyyat kağızlarını, plastik su qablarını, günəbaxan tumunun qabıqlarını hara gəldi, atmaq olmaz. Bu kimi hallar parkın gözəlliyinə xələlə gətirir. Məncə, parkda bir neçə nəzarətçi də olsa, yaxşıdır. Bir də ki, gərək camaat da bunun fərqində olsun, yəni ictimai nəzarət güclənsin və hər kəs öz davranışına fikir versin. Axı, bu da bir mədəniyyətdir.

**Oruc Məmmədov:**

– Mənim 83 yaşım var. Sərin su bulaqlarının tikilməsi, günvurma hallarının qarşısının alınması üçün də tədbirlər görülməsini vacib sayıram.

Parkda çalışan sosial işçilər də vətəndaşların bəzi davranışlarından şikayətləndilər. Onlardan biri – Mehriban Hüseynova bildirdi ki, bəzi sakinlər onların zəhmətini yerə vururlar. Kimsənin tullantını beş addımlıqdakı zibil qablarına atmağa tənbəllik etməsi heç bir məntiqə sığmır. Təmizlik işçiləri var deyə, kimlərinsə belə davranışları düzgün deyil. Bir vaxtlar parkda yeyib-içdiklərinin qalıqlarını yerə tökənlər üçün "20 manat cərimə olacaqsınız" elanı hər ağacın başına vurulurdu. Təsiri az olsa da, kimlərisə parkı zibilləməkdən çəkindirirdi. Bu cür xəbərdarlıqlara, görünür, yenə də ehtiyac var.

Parkı dolandıqca iradların doğru olduğunu bir daha gördük. Bu, bizim şəhərimizdir. Parklar da bizim rahatlığımız üçün salınıb. Bir kibrit çöpünü belə yerə atmamalıyıq. Həm şəhər sivilizasiyası, həm də, ümumiyyətlə, adi davranış normaları bunu tələb edir.

***İmamət İSMAYIL ƏDİLBƏYLİ***

# "İstiqlal"ın mübarəkdir, Rasim Balayev!

*Bu gün ekranımızın Nəsimisinin, Babəkinin 75 yaşı tamam olur*

**Azərbaycan xalqının görkəmli şair və filosofu, hürufi təriqətinin nəğməkarı, insan hisslərinin gözəlliyinin tərənnümçüsü kimi tanıdığımız İmadəddin Nəsiminin anadan olmasının 600 illiyinə həsr olunmuş "Nəsimi" filmi ekranlara çıxanda mən hələ kənddə yaşayırdım. Amma filmin bir çox epizodlarını artıq əzbər bilirdim. Hətta, filmdə istifadə olunmuş bəzi qəzəlləri kənd mədəniyyət evində məhz Rasim Balayev kimi oxumağa çalışırdım. İrad tuturdular ki, öz səsinlə, özün kimi oxu. Amma bacarmırdım. Çünki Rasim Balayev həmin qəzəllərin oxu tərzinə möhür vurmuşdu.**



...İş elə gətirdi ki, bir neçə ildən sonra ozamankı İncəsənət İnstitutunun mədəni-maarif fakültəsinə qəbul olundum və institut illərində gördüm ki, qrupumuzdakı tələbələrin əksəriyyəti Nəsiminin qəzəllərini məhz Rasim Balayev kimi oxumağa çalışır. Bu tendensiyanı "sürətləndirən" digər cəhət isə Rasim Balayevin bacısı Təranə Balayevanın da bizimlə eyni qrupda oxuması idi.

Sonralar mən "Dalğa" qəzetində işləyərkən, dövlət radiosunda çalışdığım dövrdə Rasim Balayevlə çox görüşdüm, dəfələrlə həmsöhbət olduq, ekran, efir, səhnə sənəti haqqında fikirlərini qələmə aldım. Şahidi oldum ki, onun şəxsiyyəti, insanlığı da elə sənətkarlığı kimi ucalarda dayanmağa layiqdir. Bu sənətkarla yaradıcılıqdan, yazı-pozudan kənar olan söhbətlərdə isə onun sadəliyinə, səmimiyyətinə şahidlik etdim.

Xatırladım ki, Rasim Balayev 1948-ci il avqustun 8-də Ağsuda dünyaya gəlmişdir. Daha doğrusu, Azərbaycan kinosu üçün doğulmuşdur. Onu həmkarları, aktyor və rejissorlar çox sevdilər, tamaşaçılar heyranlıqla, ürəkdən qəbul etdilər, dövlət isə xidmətlərini yüksək qiymətləndirdi. Onun Xalq artisti, Dövlət Mükafatı laueratı adlarına, Prezidentin fərdi təqaüdünə layiq görülməsi yaradıcılığına verilən qiymətdirsə, uzun illər Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi olması, ötən ildən isə sədr vəzifəsinə layiq görülməsi bu sahədəki təşkilatşılığına görə göstərilən etimaddır.

Bu yaxınlarda isə daha bir xoş xəbər aldıq. Nəsiminin anadan olmasının 650 və onun haqqında filmin müəllifi – görkəmli kinorejissor və ssenarist Həsən Seyidbəylinin 100 illiyi münasibətilə Ankarada keçirilən təntənəli tədbir çərçivəsində TÜRKSOY-un Baş katibi Düsen Kaseinov Nəsimi obrazının yaradıcısı Rasim Balayevi TÜRKSOY-un təsis etdiyi "Nəsimi" medalı ilə təltif edib.

Yubilyara ən böyük hədiyyə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən gəldi. Dövlət başçısının dünən imzaladığı sərəncamda deyilir: "Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Rasim Əhməd oğlu Balayev "İstiqlal" ordeni ilə təltif edilsin".

"İstiqlal"ın mübarək, Nəsimi izzətli, Babək qətiyyətli böyük sənətkar!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

Akif İslamzadə 75

# Xoşbəxtəm ki, xalq məni unutmayıb

**Bu gün özünəməxsus ifası ilə milyonların sevgisini qazanmış tanınmış müğənni və bəstəkar Akif İslamzadənin doğum günüdür. Sənətə Rəşid Behbudov adına Mahnı Teatrının vokalisti kimi qədəm qoyan ifaçı daha sonra Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində Tofiq Əhmədovun simfonik orkestrində fəaliyyətə başlayıb. Hərbi xidmətdən sonra Azərbaycan Dövlət Konserti Birliyinin vokalisti olub. 1992-1993-cü illərdə Bakı şəhəri Mədəniyyət İdarəsinin rəisi vəzifəsini icra edib.**



İllər öncə boğazında bədxassəli şiş əmələ gələn müğənninin Onkoloji Mərkəzdə altı aylıq müalicələrdən sonra, cərrahiyyə əməliyyatı zamanı səs tellərinin biri götürülüb. 30 ildən çoxdur heç bir mahnı oxumasa da, gözəl ifası ilə möhürünü vurduğu əsərlərlə adını Azərbaycan incəsənət tarixinə qızıl hərflərlə yazdırmağı bacarıb.

Anadan olmasının 75 illiyi ilə əlaqədar onunla həmsöhbət olduq. "Sarı gəlin", "Bu gecə" "Neyləyim" ifaları ilə yaddaşlarda dərin iz qoyan sənətkarın ömür yoluna nəzər saldıq.

**– İndiki dövrdə uşaq olsaydınız, yenə müsiqiyə marağınız yaranardı?**

– Bilmirəm. Mənim musiqiyə marağımın yaranmasında özümdən çox yaşadığım mühitin rolu böyük olub. O vaxt "Vətən" kinoteatrının yaxınlığında yaşayırdıq. Ora tez-tez hind filmləri gəlirdi. 5-6 yaşımda filmə bir dəfə baxmaq kifayət edirdi ki, eşitdiyim melodiyaları yadımda saxlayım. Həmin müsiqiləri hərdən özüm üçün zümzümə edirdim. Anam Sara Qədimova bu istedadımı görəndən sonra məni konservatoriyanın nəzdində olan onillik müsiqi məktəbinə apardı. Lakin orada mənim müsiqi istedadımın olmadığını deyib, məni qəbul etmədilər. Sonradan məni skripka dərslərinə yazdırdılar. Mənimsə marağım pianoya idi, ona görə də skripkaya soyuq yanaşdım və yarıda qoydum. Onuncu sinfi bitirəndə artıq muğam sistemini öyrənmişdim. Qısası, həvəsim uşaqlıq illərimdən var idi. Sonrakı illərdə də bu sahədə özümü inkişaf etdirdim.

**– O vaxtlar başqa nəyə həvəsiniz var idi?**

– Bizim yaşadığımız məhəlləyə universitet həyəti deyirdilər, orada yaşayanların çoxu universitet müəllimləri idi onların təsiri ilə məndə kitab oxumağa böyük maraq yaranmışdı. Çox oxuyurdum və mən tək deyildim. Dostlarımızın çoxunda bu maraq var idi, oxuduğumuz kitabları bir-birimizlə dəyişirdik. Bu gün mənim kitabxanamda iki mindən artıq kitabım var.

**– Bakıdan köçməyi, xaricdə yaşamağı heç düşünmüsünüzmü?**

– Xarici səfərlərimdə düşünürdüm ki, görəsən bu ölkədə yaşaya bilərəm? İnandırım sizi, bunu düşünmək kifayət edirdi ki, gözlərim yaşarsın. Mənim üçün Bakı o qədər doğmadır ki, özümü buradan uzaqda təsəvvür belə edə bilmirəm.

**– Hazırda vaxtınızı nəyə ayırırsınız?**

– Kitabxanamda çoxlu mütaliə edirəm, dostlarla görüşürəm. Bütün eniş-yoxuşlarıyla dolğun bir həyat yaşadım. Bu gün özümü xoşbəxt hiss edirəm. Düşünürəm ki, Azərbaycan xalqı məni uutmayacaq, ifalarım daim xatırlanacaq. Təkcə bu, xoşbəxt olmağıma kifayət edir. Arzum budur ki, Allah ağlımızı əlimizdən almasın. Ölkəmizə, xüsusən də, gənclərimizə arzum odur ki, qarşılarına çıxan çətinliklərin öhdəsindən gəlib, sonrakı nəsillərə daha gözəl dünya miras qoysunlar.

**– Yüz yaşayın, sənətkar!**

***Rüfət MƏHƏRRƏMOV***

# Ciddə danışıqları – barışığa doğru addım

## Rusiya-Ukrayna müharibəsinin tezliklə bitəcəyinə ümidlər artır

**Səudiyyə Ərəbistanının Ciddə şəhərində Rusiya–Ukrayna müharibəsinin sülh yolu ilə başa çatdırılması məqsədi ilə dünyanın 42 dövlətinin yüksək ranqlı diplomatlarının iştirakı ilə sammit keçirilib. Rusiya tədbirə dəvət almayıb. Payızda müzakirələrin davam etdirilməsi qərara alınıb.**




Maraqlıdır ki, toplantıya ABŞ, Böyük Britaniya, Kanada, Fransa, Almaniya, Türkiyə kimi Ukraynananın ərazi bütövlüyünü birmənalı olaraq dəstəkləyən böyük dövlətlərlə yanaşı, illər öncə Rusiyanın təşəbbüsü ilə yaradılan BRİKS qrupunun üzvləri – Braziliya, Hindistan, Çin və Cənubi Afrika respublikaları da qatılıb.

Rəsmi Moskva sammiti "Kollektiv Qərb"in "Qlobal Cənubu" (yeri gəlmişkən, yuxarıda adlarını çəkdiyimiz BRİKS-in dörd üzvü və Cənub yarımkürəsində yerləşən bir çox aparıcı dövlətlər bu qrupa daxil edilir-müəllif) Kiyevin arxasında birləşdirmək cəhdi kimi qiymətləndirib və bu addımın münaqişənin taleyinə heç bir təsir göstərməyəcəyini bildirib.

Rəsmi Kiyev isə, əksinə, tədbirin ədalətin bərpa olunması naminə atıldığını və mühüm əhəmiyyət kəsb etdiyini düşünür. Ukrayna Prezidenti Volodimir Zelenski sammit iştirakçılarına videomüraciətində bildirib ki, "böyük dünyanın Ciddədə toplanaraq sülh və ədalət naminə ciddi səylər göstərməsi sayəsində Rusiyanın Ukrayna torpaqlarına aramsız olaraq endirdiyi dağıdıcı bombalara və raketlərə son qoyula bilər!".

Tədbir iştirakçıları Rusiya–Ukrayna müharibəsinin hər iki xalqa böyük itkilər və məhrumiyyətlər gətirdiyini biildiriblər və mənasız qırğına beynəlxalq hüquq normaları çərçivəsində son qoyulmasını tələb ediblər.

ABŞ-ı sammitdə təmsil edən Prezident Co Baydenin Milli təhlükəsizlik məsələləri üzrə müşaviri Cek Sallivan çıxışında qeyd edib ki, bir suveren dövlətin başqa bir ölkəyə təcavüzü yolverilməzdir və belə hallara son qoyulmalıdır. Ciddə sammiti məhz bu humanist mərama xidmət edir. Onun sözlərinə görə, tədbirin təşkilatçıları və iştirakçıları böyük tarixi missiya yerinə yetirirlər.

Qeyd etmək lazımdır ki, sammitdə müəyyən dərəcədə Rusiyanın maraqlarını müdafiə edən çıxışlar da olub. Belə ki, Braziliyanın xarici işlər nazirinin müşaviri Celso Amorim qeyd edib ki, sülh danışıqları bütün tərəflərin, eləcə də Rusiyanın iştirakını tələb edir. Ukraynanın, həqiqətən, bu münaqişənin ən böyük qurbanı olmasına baxmayaraq, sülh müzakirələri prosesinə hansısa formada Rusiya da cəlb edilməlidir.

Siyasi təhlilçilər bildirirlər ki, sammitin geniş tərkibdə keçirilməsində, xüsusilə, Çinin iştirakının təmin olunmasında Səudiyyə Ərəbistanın vəliəhdi şahzadə Məhəmməd bin Salmanın böyük rolu olub. Sirr deyil ki, zəngin şahzadə ölkəsini dünyanın aparıcı siyasət mərkəzlərindən birinə çevirməyə çalışır və bu istiqamətdə uğurlu addımlar atır. Ciddə sammitinin uğuru, ilk növbədə, məhz "onun aktivi"nə yazılmalıdır. Əlbəttə, Vaşinqtonun nisbətən kölgədə qalan dirijorluğunu da nəzərdən qaçırmaq olmaz.

Ciddə danışıqları Qərb KİV-inin diqqət mərkəzindədir. Məsələn, Almaniyanın xarici işlər naziri Annalena Berbok "Bild" nəşrinə müsahibəsində bildirib ki, Ciddə sammiti Ukraynadakı müharibənin Avropanın hüdudlarını aşdığını göstərdi: Ciddədən gələn mesaj belədir: Rusiyanın təcavüzü Afrika, Asiya və Cənubi Amerikadakı insanların da həyatına təsir edir. Çünki bunun Avropadan çox-çox kənarda təsirləri var: beynəlxalq nizamın gələcəyindən tutmuş enerji təhlükəsizliyinə, taxılın qiymətinin artmasına və qlobal ərzaq təchizatındakı böhrana qədər".

Yeri gəlmişkən, Ciddədə keçirilən müzakirələrdə dəfələrlə Ukrayna taxılının dünya bazarlarına ixracının bərpa olunmasının vacibliyi vurğulanıb. Ekspertlər qeyd edirlər ki, artıq bütün dünyada ərzaq məhsullarının qiymətlərinin artması hiss olunur. Ukrayna taxılının ən böyük idxalçılarından biri isə Çindir. Rəsmi Pekin özü də bu məsələdə strateji tərəfdaşı sayılan Rusiyadan narazıdır.

Səudiyyə Ərəbistanındakı müzakirələrdən ən çox gözləntisi olan dövlət isə, əlbəttə, Ukraynadır. Ukrayna Prezidenti Administrasiyası aparatının rəhbəri Andrey Yermak Ciddədə aparılan danışıqların məhsuldar olduğunu bildirib. Onun sözlərinə görə, müzakirələr zamanı Kiyevin sülh naminə irəli sürdüyü əsas prinsiplərə geniş beynəlxalq dəstək nümayiş olunub.

Lakin Qərb ölkələri Ukraynanı dəstəkləsələr də, bəzi dövlətlər Rusiyanın hərəkətlərini qəti şəkildə pisləməyiblər. Analitiklər belə bir məqama xüsusi diqqət yetiriblər ki, Kopenhagendə danışıqların əvvəlki raundunda iştirak etməyən və Qərbin Rusiyanın müdaxiləsini pisləmək çağırışlarını rədd edən Çinin Ciddə sammitində rəsmi Pekinin mövqeyində əhəmiyyətli olmasa da, mümkün dəyişikliyə işarədir.

Bu arada məlum olub ki, bu ilin avqustunda Türkiyə və Rusiya prezidentlərinin keçirilməsi nəzərdə tutulan görüşündə Rəcəb Tayyib Ərdoğan həmkarı Vladimir Putinə Ukrayna üzrə sülh danışıqlarını bərpa etməyi təklif edəcək. Bu barədə Rusiya KİV-i diplomatik mənbələrə istinadən məlumat yayıb. Qeyd olunur ki, R.T.Ərdoğan növbəti dəfə vasitəçiliyini təklif edəcək: "O, müharibənin qalibinin, sülhün isə məğlubunun olmaması tezisini bir daha təkrarlayacaq. Ankara dəfələrlə bildirib ki, atəşkəs mümkün qədər tez əldə olunmalıdır".

"Sabah" nəşri bildirib ki, Türkiyə hazırda "taxıl sazişi"ni əvvəlki formatda bərpa etmək üçün fəal səy göstərir və Ukraynadan taxıl ixracı üçün alternativ variantları dəstəkləmir. Nəşr qeyd edir ki, Ankarada mövcud "taxıl dəhlizi"nin fəaliyyətini bərpa etmək ümidi ilə BMT, Rusiya və Ukrayna nümayəndələri arasında diplomatik təmaslar davam edir. Ankaranın mövqeyi ondan ibarətdir ki, "taxıl sazişi"nin bərpası Qara dəniz hövzəsində gərginliyi azaldacaq.

Qeyd edək ki, avqustun 5-də Türkiyə və Ukraynanın xarici işlər nazirləri Hakan Fidan və Dmitri Kuleba arasındakı telefon danışığında "taxıl sazişi"nin bərpası istiqamətində atılacaq addımlar geniş müzakirə edilib. Rəsmi Kiyev Ankaranın bu sahədəki səylərinin uğurla başa çatacağına ümidlər bəsləyir.

Dünya ictimaiyyəti də ümid edir ki, Türkiyə lideri R.T.Ərdoğanın və onun peşəkar komandasının fədakarlığı və qətiyyəti sayəsində planetimizdə milyonlarla insanın rifahına təsir göstərəcək bu sazişin icrasını davam etdirmək mümkün olacaq. Hər halda, bu, bəşəriyyətin xeyrinə atılmış addım ola bilər!

*Məsaim ABDULLAYEV,*
*"Xalq qəzeti"*

### Ekspert rəyi



**Ceyran CƏFƏRLİ,**
**politoloq**

– Rusiya–Ukrayna müharibəsi artıq on səkkiz aydır ki. davam edir. İlkin mərhələdə, Rusiyanın rəqibi üzərində sürətli qələbə qazanacağı gözlənilirdi. Bu, baş tutmadı. Ukrayna dövləti və xalqı münaqişənin ilk günlərindən başlayaraq, böyük fədakarlıq nümayiş etdirərək öz torpaqlarının müdafiəsinə qalxdı.

Artıq münaqişə uzun çəkən bir mərhələyə daxil olub. Amma hər iki tərəfdən ağır itkilər davam edir. Bu ilin yazında Ukrayna Silahlı Qüvvələrinin uğurlu əks-hücum əməliyyatı keçirəcəyinə də ümidlər böyük idi. İndi aydın oldu ki, bu dəfə Rusiya Ordusu rəqibinə kifayət qədər güclü müqavimət göstərə bilir.

Rusiya–Ukrayna cəbhəsində köklü dəyişikliklərin olacağına ümid bəsləməyən Qərb dövlətləri müharibənin danışıqlar yolu ilə bitməsi üçün diplomatik addımlar atır. Bu prosesə "Qlobal cənub" deyilən bir çox dövlətlər də cəlb olunub. Fikrimcə, Ciddə danışıqları məhz çağdaş dünyanın müharibənin başa çatmasında maraqlı olduğunu nümayiş etdirir.

Səudiyyə Ərəbistanında iki gün davam edən danışıqlardan böyük dönüş gözləmək sadəlövhlük olardı. Təbii ki, danışıqların sonrakı mərhələləri də olacaq. Bütün hallarda, ən zəif sülh silahların "danışması"ndan yaxşıdır. Ümid etmək istərdik ki. Ukrayna torpağında, nəhayət, sülhü bərqərar etmək mümkün olacaq. Bu, həm Ukrayna, həm də Rusiya xalqlarının xeyrinə ola bilər.

# Tələbə gənclərimiz yaxşı nəticə göstərdilər

## Azərbaycan komandası universiadada 9 medal qazanıb

**Çinin Çendu şəhərində 113 ölkədən 6 min 500 tələbənin idmanın 18 növü üzrə 269 medal dəsti uğrunda mübarizə apardığı 31-ci Ümumdünya Yay Universiadası başa çatıb. Azərbaycan komandası yarışı 3-ü gümüş, 6-sı bürünc olmaqla 9 medalla başa vurub. Son universiadalarda komandamız qızıl medal qazansa da, təəssüf ki, budəfəki yarışda idmançılarımız gümüş və bürünc medallarla kifayətləniblər.**

20 ali təhsil müəssisəsindən 87 atletin 16 idman növündə təmsil olunduğu Azərbaycan komandasının üzvlərindən ən yaxşı göstərici bədii gimnastikada qeydə alınıb. Yarışda 3 medala (halqa və gürzlərlə gümüş, halqa ilə bürünc) sahib olan Zöhrə Ağamirova jurnalistlərə müsahibəsində turnirin ilk iki günü çıxışının istədiyi kimi alınmadığını, topla səhvlərə yol verdiyini deyib. Üç alətlə finala vəsiqə əldə etdiyini bildirən gimnast finalda özünü toparladığını, halqa və gürzlərlə daha yaxşı çıxış etdiyini diqqətə çatdırıb. Z.Ağamirova universiadanın yüksək səviyyədə təşkil olunduğunu, amma adaptasiya prosesinin bir qədər çətin keçdiyini də qeyd edib.




Cüdo komandamızın da bu nüfuzlu yarışda çıxışını xüsusi vurğulamaq lazımdır. Bütün rəqiblərini məğlub edərək finala yüksələn Rəşid Məmmədəliyev (73 kq) gümüş, Yaşar Nəcəfov (66 kq) və Leyla Əliyeva (48 kq) bürünc medala sahib olublar. Komanda yarışlarında da yığmamız mükafatsız qalmayıb. Cüdoçularımız bürünc medala layiq görülüblər. Cüdo üzrə yarışlarda Azərbaycan Cüdo Federasiyasının hakimlər heyətinin üzvü, "A" kateqoriyalı beynəlxalq dərəcəli hakim Nazim Umbayev ədalət təmsilçiləri arasında yer alıb.

Universiadada 8 nəfərlik heyətlə təmsil olunan taekvondo millimizin hazırlığı yüksək qoymətləndirilsə də, dayanq ustalarımızdan yalnız Minayə Əkbərova (48 kq) mükafat qazana bilib. İdmançımız fəxri kürsünün 3-cü pilləsində qərarlaşıb.

Son bürünc medalı komandamızın aktivinə avarçəkənimiz yazdırıb. 1 nəfərlik akademik avarçəkmə qayığında 2000 metr məsafədə yarışan komandamızın üzvü Bəhmən Nəsiri təsnifat və yarımfinal mərhələsini birinci yerdə başa vuraraq A finalında yarışmaq hüququ qazanıb. Həlledici yürüşdə də inamlı çıxış edən idmançımız son ana qədər çempionluq uğrunda mübarizə aparsa da, az fərqlə üçüncü yeri tutub.

"Gənclik" Tələbə İdman Cəmiyyətinin sədri Tofiq Xanəliyev "Xalq qəzeti"nə müsahibəsində nəticələrin qənaətbəxş olduğunu bildirib: "Yarışda dünyanın güclü idman ölkələri mübarizə aparırdılar. Tələbə gənclərimiz universiadada yaxşı çıxış etdilər. Son universiadalarda komandamız qızıl medal qazanıblar. Əslində, idmançılarımızın potensialı var idi və qalib ola bilərdilər. Bədii gimnastika üzrə Zöhrə Ağamirovadan da qızıl medal gözləyirdik. Avarçəkmə üzrə idmançımız birinci yerdə gedirdi, 3-cü pilləyə düşdü. Həmçinin cüdoda Rəşid Məmmədəliyev finalda güclü yaponiyalı idmançı ilə bacara bilmədi.

Ümumilikdə, 9 medal pis nəticə deyil. İdmançılarımız medalçılar sırasına düşmək üçün var gücləri ilə çalışdılar. Gələcək yarışlarda daha yüksək nəticələr qazanmaq üçün səylərimizi artırmalıyıq".

T.Xanəliyev universiadanın yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırdı. O qeyd etdi ki, idmançıların nəticələri onlar üçün yaradılan imkanlardan da əhəmiyyətli dərəcədə asılı olur: "Çində bu nüfuzlu yarış, demək olar ki, Olimpiya Oyunları səviyyəsində keçirildi. Yarışın açılış mərasimi möhtəşəmliyi ilə xüsusilə diqqət çəkdi. Universiada kəndində idmançılar üçün hər bir şərait var idi. Komandamızın üzvlərinin hazırlığı, onların yarış yerlərinə getməsi və geri qayıtması, akkreditasiya sistemi, mədəni tədbirlər, muzeyləri ziyarət, qidalanma – hər bir xırda detal belə diqqətdən qaçmamışdı. Universitetlərin nəzdində fəaliyyət göstərən möhtəşəm idman komplekslərini xüsusi vurğulamaq istəyirəm. Eyni zamanda, könüllülərin işi yüksək səviyyədə idi".

Qeyd edək ki, komandamız 2019-cu ildə İtaliyanın Neapol şəhərində keçirilən universiadada 2 qızıl, 3 gümüş və 2 bürünc medal qazanmışdı.

*Leyla QURBANOVA,*
*"Xalq qəzeti"*

# Moldova ordusu Rumıniyanın hava hücumundan müdafiə sisteminə inteqrasiya olunub

**ABŞ Konqresinin Nümayəndələr Palatasının Silahlı Qüvvələr Komitəsinin nümayəndələri Duq Lamborn, Nensi Meys və Set Multon bazar ertəsi Moldova Respublikasının rəhbərliyi ilə bir sıra görüşlər keçiriblər. Bir gün əvvəl ABŞ nümayəndə heyəti baş nazir Dorin Reçan tərəfindən qəbul edilib. O, milli orduya atıcı silahlar və dronlarla kömək etdiyinə görə ABŞ-a təşəkkür edib. Moldovanın Rusiyadakı keçmiş səfiri Anatol Taranu bildirib ki, "Rusiya ilə münasibətlərin pisləşməsi fonunda və Moldovanın hazırda NATO-ya üzv ola bilməyəcəyini nəzərə alaraq, alyans ölkələrinin hərbi yardımı çox vacibdir". Mütəxəssislərin fikrincə, "Moldova üçün ən yaxşısı Rumıniyanın təhlükəsizlik sisteminə daxil olmaqdır".**

ABŞ Konqresinin Nümayəndələr Palatasının Silahlı Qüvvələr Komitəsinin nümayəndə heyətinin Moldovaya səfəri davam edir. Birləşmiş Ştatlrın Kişinyovdakı səfirliyindən verilən məlumata görə, konqresmenlər Moldovanın hökumət və parlament rəhbərləri ilə görüşüblər. Bir gün əvvəl onları Moldovanın Baş naziri Dorin Reçan qəbul edib. O, Amerika nümayəndə heyəti ilə milli təhlükəsizlik strategiyasına yenidən baxılması və Moldova hökumətinin islahatlar və ölkənin modernləşdirilməsi proqramını davam etdirmək məsuliyyətindən danışıb. Moldova hökumətinin başçısı son vaxtlar ABŞ hökumətinin müasir texnika və silahlardan ibarət milli orduya göstərdiyi dəstəyi alqışlayıb ki, bu da "məşqlər, təlimlər və sülhməramlı missiyalar zamanı hərbi personalın hazırlanması üçün daha yaxşı şərait deməkdir".

Amerika nümayəndə heyətinin nümayəndələri öz növbəsində bəyan ediblər ki, ABŞ Konqresi Moldovada aparılan islahat səylərini dəstəkləyir və Vaşinqton Avropaya inteqrasiya yolunda təhlükəsiz və demokratik Moldovanı dəstəkləməyə davam edəcək.

Ötən gün Moldova Müdafiə Nazirliyi ABŞ-ın göstərdiyi hərbi yardımı nümayiş etdirib. Belə ki, Moldova ordusunun aldığı hərbi texnikanın dəyəri 3 milyon dollardan çox olub.Yardım göndərişinə 600 metrə qədər atəş məsafəsi olan snayper tüfəngləri, pulemyotlar və pilotsuz uçuş aparatları daxildir.

Qeyd edək ki, yardım Moldova ordusunun modernləşdirilməsi və ölkənin müdafiə qabiliyyətinin artırılması kontekstində ABŞ tərəfindən təklif edilib. O, Moldova səmasında görünməsi əhali arasında təlaşa səbəb olan Amerika təyyarəsi ilə çatdırılıb. Sonradan ABŞ səfirliyindən verilən məlumatda bildirib ki, "Son 31 il ərzində Birləşmiş Ştatlar hökuməti ABŞ-ın Avropa Komandanlığı vasitəsilə hazırkı Moldova hökumətinin və əvvəlki hökumətlərin müraciəti əsasında 123 milyon dollardan çox hərbi, təlim və humanitar yardım göstərib. İndi təhvil verilən müdafiə təyinatlı malların müntəzəm tədarükü ilə bağlı müqavilə 2019-cu ildə bağlanıb və yardımın göstərilə biləcəyi bir çox yollardan yalnız biridir".



Bu arada, avqust ayında Moldova Rumıniyadan da hərbi yardım alıb. Belə ki, Moldovanın keçmiş müdafiə naziri Anatoli Salaru televiziyada deyib ki, "Moldovada Rumıniyanın hava hücumundan müdafiə sisteminə inteqrasiya olunmuş müasir radarları yerləşdirməyə başlayıblar ki, bu da ölkəmizə istiqamətlənmiş raketləri vurmağa imkan verir". "İndi onlar ümumi Rumıniya sisteminə və yəqin ki, Ukrayna sisteminə inteqrasiya olunacaq çox müasir, güclü radarlar quraşdırırlar. Bu radarlar ümumi sistemə inteqrasiya olunarsa və Moldova hökuməti ilə müqavilə imzalansa, Moldova Respublikasına doğru uçacaq bütün raketləri vurmaq mümkün olacaq", – deyə Moldovanın keçmiş müdafiə naziri bildirib.

Bundan əvvəl Moldovanın müdafiə naziri Anatoli Nosatıy hava məkanına nəzarət sistemi aldığını açıqlamışdı. Məlumdur ki, Moldovanın hərbi idarəsi Fransa istehsalı olan GM 200 radar sisteminin alınması ilə bağlı danışıqlar aparırdı. Onun alınması üçün Avropa Sülh Fondu pul ayırmışdı. Moldova Prezidenti Mayya Sandu Qərb tərəfdaşlarından Ukraynanın onlardan aldığı sistemlərə bənzər hava hücumundan müdafiə sistemləri istəmişdi.

Xatırladaq ki, 2022-ci il iyulun sonunda Avropa İttifaqı Moldova ordusunun modernləşdirilməsi üçün Avropa Sülh Fondundan 40 milyon avro ayrılması qərarını təsdiqləmişdi. Bundan əlavə, 2021-ci ilin dekabrında "Moldova Respublikası Silahlı Qüvvələrinin Hərbi Tibb Xidmətinin və mühəndis batalyonunun potensialının gücləndirilməsi" üçün 7 milyon avronun ayrılması barədə qərar qəbul edilmişdi. ABŞ, həmçinin 2 milyard dollar ayırdığını, bunun 1 milyardının Ukraynaya gedəcəyini, ikinci milyardın isə orduların modernləşdirilməsi üçün 17 ölkə arasında bölünəcəyini açıqlamışdı. Bu dövlətlər arasında Moldovanın da olduğu iddia edilir.

Moldova Müdafiə Nazirliyinin dövlət katibi Valeriu Mija bildirib ki, Aİ-nin pulları ordunun modernləşdirilməsinə yönəldiləcək. Eyni zamanda, dövlət rəsmisi xatırladıb ki, vəsait Aİ-də qalacaq və departamentə getməyəcək, çünki bütün alışlar avropalı ekspertlər vasitəsilə aparılacaq. "Biz lazımi texnika ilə bağlı sorğumuzu göndərəcəyik, tender yolu ilə alınacaq, ondan sonra Milli Orduya veriləcək. Söhbət ölkənin hərbiləşdirilməsindən yox, Milli Ordunun modernləşdirilməsindən gedir", – deyə dövlət katibi vurğulayıb. Bundan əlavə, Moldova hakimiyyəti logistika, kibermüdafiə, pilotsuz uçuş aparatları və rabitə sahəsinə investisiya qoymaq niyyətindədir. Proqram 36 ay üçün nəzərdə tutulub.

*Hazırladı:*
*S.ELAY, "Xalq qəzeti"*

SON SƏHİFƏ

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 166 (30282) 8 avqust 2023-cü il, çərşənbə axşamı

veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Dünya çempionatında 1 qızıl, 1 bürünc medal



***Türkiyənin İstanbul şəhərində keçirilən güləş üzrə U-17 dünya çempionatına yekun vurulub.***

Sərbəst güləş üzrə millimiz dünya çempionatında 1 qızıl və 1 bürünc medal qazanıb. 84 xal toplayan yığmamız komanda hesabında 4-cü yeri tutub. Millimiz İran (156), ABŞ (126) və Yaponiyadan (106) geri qalıb.

Qeyd edək ki, komandamızın heyətində Yusif Dursunov (110 kq) dünya çempionu olub. Camal Abbasov (60 kq) isə üçüncü yeri tutub.

## II MDB Oyunları: Daha 2 bürünc medal

**Azərbaycanın komandası Belarusun paytaxtı Minskdə keçirilən II MDB Oyunlarında daha 2 medal qazanıb. Gənclər və İdman Nazirliyindən "Xalq qəzeti"nə bildirilib ki, Azərbaycan boksçularından Lalə Mədətova (48 kq) və Nərmin Əlizadə (52 kq) bürünc medala sahib olublar.**

Çimərlik futbolu üzrə Azərbaycan millisi isə növbəti matçda Birləşmiş Ərəb Əmirliklərinin yığmasını 7:3 hesabla məğlub edib. Komandamız turnirdə növbəti oyununu avqustun 8-i Özbəkistan yığmasına qarşı keçirəcək.

Qeyd edək ki, bundan əvvəl bədii gimnastika üzrə qrup hərəkətləri komandamız çoxnövçülükdə 1 bürünc, 5 ip, 5 topla isə 2 bürünc medal qazanıb.

Yunan-Roma güləşçilərimiz 5 gümüş, 4 bürünc medala sahib olublar. Cüdoçularımızdan 3-ü qalib adına layiq görülüb, 1-i gümüş, 5-i bürünc medal əldə edib.

## Paraüzgüçülərimiz İngiltərədə 5 medal qazanıblar



***Azərbaycan paraüzgüçüləri dünya çempionatında 2-si qızıl, 1-i gümüş və 2-si bürünc olmaqla 5 medal qazanıblar.***

İngiltərənin Mançester şəhərində keçirilən mundialda Roman Saley qızıl (100 metr məsafəyə sərbəst üsulla üzmə), gümüş (eyni məsafəyə arxasıüstə üzmə) və 2 bürünc (50 m məsafəyə sərbəst və 100 m məsafəyə "butterfly" üsulla üzmə) mükafata yiyələnib. Komandamızın digər üzvü Vəli İsrafilov isə 100 metr məsafəyə brass üsulu ilə üzmə yarışında qalib adına layiq görülüb.

Roman Saley və Vəli İsrafilov Paris-2024 XVII Yay Paralimpiya Oyunlarına birbaşa lisenziya qazanıblar.

## Nicat Abasov növbəti mərhələyə vəsiqə qazanıb



**Bakıda təşkil edilən şahmat üzrə dünya kuboku yarışında III mərhələnin tay-brek görüşləri keçirilib.**

Azərbaycan şahmatçılarından Teymur Rəcəbov İspaniya təmsilçisi Hayme Santosa, Rauf Məmmədov FIDE adından çıxış edən Yan Nepomnyaşiyə uduzaraq turnirlə vidalaşıblar.

Ölkəmizin yarışda son təmsilçisi Nicat Abasov təcrübəli Aniş Girini üstələməklə növbəti mərhələyə vəsiqəni təmin edib. İlk rapid oyununda Aniş Giri qələbə qazansa da, Nicat Abasov ikinci oyunda hesabı bərabərləşdirib. İlk iki blits partiyasında tərəflər heç-heçəyə razılaşıb 0,5-0,5; 0,5-0,5. Növbəti blits partiyaları həlledici olub. Birinci blits bərabərliklə yekunlaşsa da, növbəti oyun Nicat Abasovun qələbəsi ilə sona çatıb.

Bu gün dünya kubokunda istirahət günüdür. Avqustun 9-da Nicat Abasov FIDE adından çıxış edən Pyotr Svidlerlə qarşılaşacaq.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

Texnologiya yenilikləri



## "Xiaomi"dən yeni keyfiyyətli telefon modeli

**"Poco" alt brendi altında Xiaomi Korporasiyası öz puluna ən müasir avadanlıqla münasib qiymətə smartfonlar istehsal edir. Bu günlərdə brendin yeni hitinə çevrilmək şansı olan "Poco M6 Pro 5G"nin rəsmi premyerası baş tutub.**

Telefonun böyük 90Hz displeyi, optimal prosessoru və keyfiyyətli kamerası var.

Yeni smartfon "çiplərdən" istənilən oyun üçün kifayət edən "Snapdragon 4 Gen 2" prosessoru, böyük 90 Hz ekran və 50 meqapiksellik kamera ilə təchiz edilib.

*Aytən NƏCƏFOVA, "Xalq qəzeti"*

## Milyarderlər "Qəfəs döyüşü"ndə

**İki məşhur milyarder - İlon Mask və Mark Zukerberq arasında qəfəs döyüşü olacaq. Milyonların səbirsizliklə gözlədiyi bu idman qarşıdurması X.com saytında yayımlanacaq. Onların döyüşə peşəkar məşqçilər hazırlayır.**



Mask paylaşımında bildirib ki, yarışda əldə olunan bütün gəlirlər veteranlar üçün xeyriyyə işlərinə sərf olunacaq. Döyüşün nə vaxt olacağı barədə isə hələ dəqiq məlumat verilmir.

Mask, həmçinin vurğulayıb ki, döyüş əgər qısa olarsa, yəqin ki, qalib gələcək. Uzun müddət davam edərsə, daha dözümlü olan Markın üstün olacağı istisna edilmir.

*F. HÜQUQQIZI, "Xalq qəzeti"*

Maraq dünyamız

## Hər il Yerə 100 milyarddan çox mikrometeorit düşür



***Evlərin damında belə kosmik toz hissəcikləri var. Onlar mikrometeoritlər adlanır və ölçüsü, təxminən, 400 mikrondur. Hesab edilir ki, hər il Yerə 100 milyarddan çox mikrometeorit düşür.***

Bütün hissəciklər subsferik formalı diyircəkli silikatlardan (S tipli) ibarətdir. Onlar maqnezium-dəmir silikat kristallarının atmosferə daxil olduqdan sonra ərimə prosesi zamanı əmələ gəlir.

Mikrometeorit axınının nəzəri proqnozlarla müqayisəsi təsdiqləyir ki, mikrometeoritlərin əksəriyyəti, ehtimal ki, kometlərdən, qalanları isə asteroidlərdən əmələ gəlir.

## Ayda adam dəfn edilib



***Məşhur amerikalı alim Yujin Şumeyker "Shoemaker-Levy 9" kometini kəşf edənlərdən biridir.***

O, Aya ayaq basan ilk geoloq olmalı idi. Təəssüf ki, səhhəti sağlığında Aya getməyə imkan vermədi. Bunun əvəzində Şumeyker "Apollon" missiyaları çərçivəsində Nil Armstronq və digər astronavtları uçuşa hazırlayıb.

1997-ci ildə naməlum zərbə kraterlərini axtarmaq üçün Avstraliyaya gedib və orada avtomobil qəzasında ölüb. Onun elmə verdiyi töhfələrə görə, NASA Şumeykerin külünü "Lunar Prospector" gəmisində Aya göndərib. Bu günə qədər Yujin Şumeyker Ayda dəfn edilən yeganə insan olaraq qalır.

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

# Sudan zəhərlənmək mümkündür!



***Sudan zəhərlənmə necə baş verir və buna səbəb nədir? Su intoksikasiyası həddindən artıq maye istehlakı nəticəsində yaranan bir vəziyyətdir. Bunun necə yarandığını bilmək istəyirsinizsə, cavab xəbərimizdə...***

Çox su içməyin nəticəsində beyin fəaliyyətinin pisləşməsinə "su intoksikasiyası" deyilir. Bu, qanda suyun miqdarını artırarkən elektrolitlərin və natriumun azalmasına səbəb ola bilər. Həddindən artıq su istehlakı nəticəsində natrium səviyyəsi aşağı düşdükdə, mayelər hüceyrələrə keçərək onların şişməsinə səbəb olur. Bu, insanın beyin hüceyrələrində baş verdikdə, həyati təhlükə yaranır.

Su zəhərlənməsinin ilk əlamətləri bunlardır: baş ağrısı, ürəkbulanma, qusma. Daha sonra əzələ zəifliyi, qan təzyiqi, şüurun dumanlanması, nəfəs almada çətinlik baş verir. Ən ağır hallarda isə su intoksikasiyası komaya və hətta ölümə səbəb ola bilər.

Su zəhərlənməsi ən çox idman yarışlarında, ağır məşqlərdə iştirak edən və psixoloji cəhətdən problemi olan insanlara təsir göstərir.

Elə isə, orqanizmimiz üçün nə qədər su "çox" sayılır?

Suyun miqdarı su intoksikasiyasının yeganə amili hesab edilmir. İlk növbədə, hansı aralıqlarla içdiyiniz çox mühüm rol oynayır. Araşdırmalara görə, böyüklər gündə təxminən 20-28 litr su xaric edə bilir, ancaq saatda 0,8-1 litrdən çox içilən su problem yaranmasına gətirib çıxarır. Bu səbəbdən ən əhəmiyyətli şərt böyrəkləri yükləməməkdir.

*Səadət RZAYEVA, "Xalq qəzeti"*

## MDB ölkələrinin III Oyunları 2025-ci ildə Gəncə şəhərində keçiriləcək

**"Xalq qəzeti" BELTA-ya istinadla xəbər verir ki, bu barədə Azərbaycanın gənclər və idman nazirinin müavini Mariana Vasileva jurnalistlərə müsahibəsində bildirib.**



O, qeyd edib ki, ilk Oyunlar daha çox gənclərə yönəlib: "İndi yarışın formatında dəyişikliklər olub, düşünürəm ki, biz eyni ruhda davam edəcəyik. MDB ölkələrinin III Oyunları Azərbaycanın paytaxtından sonra əhalinin ən sıx məskunlaşdığı ikinci şəhər olan Gəncədə təşkil ediləcək. Hazırda orada yeni müasir kompleks tikilir. Bölgələrdə belə möhtəşəm yarışların keçirilməsi ideyası çox xoşumuza gəldi. İştirakçı ölkələrin sayının artırılmasını müzakirə edəcəyik". M.Vasileva bildirib ki, istənilən ölkə daha çox inkişaf etmiş idman növlərinə önəm verir. Oyunlarda əsas olimpiya idman növləri ilə yanaşı, bütün ölkələr üçün ənənəvi olan qeyri-olimpiya idman növlərinə də diqqət yetiriləcək.

*L.QURBANOVA, "Xalq qəzeti"*

Proqnoz



## 42 dərəcə isti olacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 8-də Bakıda və Abşeron yarımadasında əsasən yağmursuz keçəcək.

Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var.

Şimal-qərb küləyi əsəcək. Gecə 23-28°, gündüz 33-38° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu olacaq, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 35-40°, bəzi yerlərdə 42°, dağlarda gecə 15-20°, gündüz 24-29° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## "Sabirabad-konserv" ASC səhmdarlarının nəzərinə!

10 avqust 2023-cü il saat 15.00-da "Sabirabad-konserv" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələ:**

**1.** Sahibkarlığın inkişafı fonduna müraciət edilməsi.

Ünvan – Sabirabad şəhəri, Vidadi küçəsi 1.

*Müşahidə şurası*

## ALLAH RƏHMƏT ELƏSİN

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva və institutun kollektivi institutun aparıcı elmi işçisi

**ŞƏMSİ PƏNAH OĞLU ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Xalq qəzeti"nin kollektivi Akif Əhmədgilə əzizi

**GÜLƏNDAM XANIMIN**

Tovuz rayonunun Alakol kəndində vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.